RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 62 (9229) 28 MART 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Qarabağ" və "Qalatasaray" komandaları arasında xeyriyyə oyununa baxıblar



**Martın 26-da Bakı Olimpiya Stadionunda Ağdamın "Qarabağ" və İstanbulun "Qalatasaray" komandaları arasında xeyriyyə oyunu keçirilib.** AZƏRTAC **xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva stadionda oyuna baxıblar.**

→ 2

## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayı münasibətilə paylaşım edib

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Ramazan ayı ilə bağlı paylaşım edib.**




AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Müqəddəs Ramazan ayının başlanması münasibətilə bütün Azərbaycan xalqını və dünya müsəlmanlarını səmimi-qəlbdən təbrik edirəm! Qoy mübarək Ramazan ayı ürəklərdə saf duyğular və xoş niyyətlər oyatsın, hər bir ocağa ruzi-bərəkət, hər kəsin ailəsinə sağlıq, sevinc, səadət və əmin-amanlıq gətirsin! Uca Allah etdiyiniz duaları, tutduğunuz orucu qəbul etsin!"

## Şarl Mişel narahatdır

**Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel martın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında Şarl Mişel 2023-cü il fevralın 17-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində dövlətimizin başçısı ilə keçirdiyi görüşü məmnunluqla xatırlayıb, 2021-ci il dekabrın 14-dən 2022-ci il avqustun 31-dək olan dövr ərzində üçtərəfli formatda keçirilmiş görüşlərdə müzakirə edilmiş müxtəlif məsələlərə toxunub.

Şarl Mişel Avropa İttifaqının regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması üçün səylərini bundan sonra da davam etdirəcəyini deyib. Avropa İttifaqı Şurasının prezidenti Azərbaycanın Laçın-Xankəndi yolu ətrafındakı məsələlərə toxunub və son günlərdə Ermənistanla Azərbaycanın dövlət sərhədində baş vermiş insidentlərlə əlaqədar narahatlığını ifadə edib.

Prezident İlham Əliyev Azərbaycanın Brüssel prosesini dəstəklədiyini bir daha vurğulayıb. Laçın-Xankəndi yolu ətrafındakı vəziyyətə toxunan Azərbaycan Prezidenti qeyd edib ki, bu yolun guya bağlı olması ilə əlaqədar Ermənistanın irəli sürdüyü iddialar tamamilə yalandır. Belə ki, 2022-ci il dekabrın 12-dən bu günədək Rusiya sülhməramlılarına və Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus 5 minə yaxın nəqliyyat vasitəsi, tibbi yardıma ehtiyacı olan şəxs və onları müşayiət edənlər bu yoldan keçiblər.

Dövlətimizin başçısı Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə Ermənistan tərəfindən silah-sursat və şəxsi heyətin daşınması prosesinin hələ də həyata keçirildiyini bildirib.

Azərbaycan Prezidenti Ermənistan rəhbərliyinin təhlükəli və eskalasiyaya yönəlmiş rəsmi açıqlamalarına diqqət çəkib. Dövlətimizin başçısı qeyd edib ki, 2023-cü il martın 20-də Avropa İttifaqı missiyasının yerləşdiyi Ermənistan-Azərbaycan dövlət sərhədi istiqamətində Ermənistanın növbəti təxribatı zamanı Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu yaralanıb və martın 5-də Azərbaycanın Qarabağ bölgəsində qeyri-qanuni erməni hərbi birləşmələrinin törətdikləri təxribat zamanı 2 hərbi qulluqçumuz şəhid olub.

Azərbaycan Prezidenti vurğulayıb ki, bütün bunlar Ermənistanın apardığı təhlükəli siyasətin nəticəsidir.

***Prezidentin Mətbuat Xidməti***



# Qalibin məğlublara yeganə şərti

## Müzəffər Ali Baş Komandan İlham Əliyev kapitulyant ölkəyə sonuncu xəbərdarlığını etdi

Azərbaycan qalib ölkədir!

- Güclü ordusu, ən yeni və müasir silahları var!
- Güclü iqtisadiyyata, yüksək beynəlxalq nüfuza malikdir!
- II Qarabağ müharibəsindən sonra ordusunu yenidən silahlandırıb, sərhəddə müasir hərbi şəhərciklər salıb, yeni komando qüvvələri hazırlayıb və onlara müntəzəm təlimlər keçir!
- Ölkənin müdafiə sənayesi yeni silahlar (sizin hələ görmədiyiniz və "dadına baxmadığınız") istehsalını qaydaya salıb!
- Dövlət başçısı son sözünü və qəti mövqeyini bildirib, kimsə onu iradəsindən heç zaman döndərə bilməz!
- "Dəmir yumruq" artıq hazır vəziyyətdədir, əzicilik qabiliyyəti isə həmişəkindən də yüksəkdir!

**Əslində, zaman Azərbaycanın xeyrinə işləyir!**

**Buyurun, baxın:**

- Qeyd etdiyimiz kimi, ordu əvvəlkindən də qüdrətli vəziyyətə gətirilib;
- Qarabağın və Şərqi Zəngəzurun bərpası və dirçəldilməsi prosesi yüksək sürətlə gedir;
- Böyük qayıdış proqramına uyğun olaraq nəzərdə tutulan bütün işlər planlı qaydada görülür, məcburi köçkünlər hissə-hissə geri dönürlər;
- Yeni yollar çəkilir, dəmir yolu xətti salınır, ilin bütün fəsillərində Laçın və Kəlbəcərə rahat gediş-gəlişi təmin etmək üçün dağların altından tunellər qazılır;
- Çayların qarşısı kəsilərək süni göllər yaradılır, elektrik stansiyaları tikilir, suvarma kanalları çəkilir və təmir olunur;
- "Smart" tipli yaşayış məntəqələri inşa olunur, məktəblər, uşaq bağçaları açılır, geri qayıdanlar üçün iş yerləri yaradılır;
- Zəngəzur dəhlizinə aparan avtomobil yolunun 70, dəmir yolunun isə 40 faizi artıq hazırdır;
- Şuşada, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Xocavənddə planauyğun şəkildə bərpa və tikinti işləri aparılır;
- Azərbaycan etibarlı sözü, təbii qazı və "yaşıl enerji"si ilə Avropaya əvəzsiz tərəfdaş olduğunu daim və dönmədən sübut edir, yeni-yeni müqavilələr bağlayır, iqtisadi imkanlarını genişləndirir, siyasi nüfuzunu yüksəldir!

→ 3

## Hayastanın növbəti avantürası onun daha böyük məğlubiyyəti olacaq

### "Dəmir yumruq" bir daha işə düşsə, heç bir kənar qüvvə Azərbaycana təsir edə bilməyəcək

"Əfsuslar olsun ki, bu gün İkinci Qarabağ müharibəsinin ibrət dərsi Ermənistana hələ ki dərs olmayıb. Çünki biz görürük ki, Ermənistanda revanşist qüvvələr baş qaldırıb.

Ermənistanda yenə də Azərbaycana qarşı, Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları qaldırılır. Biz Ermənistan rəhbərliyini bu çirkin əməllərdən çəkindirmək üçün xəbərdar edirik. Ermənistanın arxasında dayanan bəzi ölkələri də bax, buradan - azad edilmiş Talış kəndindən xəbərdar edirik ki, əl çəkin bu çirkin əməllərdən. Azərbaycan dövlətinin, xalqının iradəsinə heç bir kənar qüvvə təsir edə bilməz".

→ 2

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məlumatı

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası martın 1-də Xocalı şəhərində keçirilmiş görüşün və martın 13-də təqdim edilmiş dəvətin davamı olaraq Qarabağın erməni ictimaiyyətinin nümayəndələrini reinteqrasiya, həmçinin Qarabağda infrastruktur layihələrinin icrası məsələlərinin müzakirəsi məqsədilə aprel ayının birinci həftəsi Bakı şəhərində görüşün keçirilməsini bir daha təklif edir.

## Cozef R. Bayden İlham Əliyevi təbrik edib



### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Amerika xalqı adından Sizə və Azərbaycan xalqına sevincli və firavan Novruz bayramı münasibətilə ən xoş arzularımı yetirirəm.

Azərbaycan və Birləşmiş Ştatlar ötən il ərzində enerji təhlükəsizliyini təmin etmək və xalqlarımızın üzləşdiyi transmilli çağırışlara cavab vermək üçün bir araya gəliblər. Baharın gəlişi və yeni başlanğıcları qeyd etdiyimiz bu ildə xalqlarımız arasında dostluğu daha da dərinləşdirməyi həvəslə gözləyirəm. Birləşmiş Ştatlar bu yenilənmə və düşüncə mövsümündə Cənubi Qafqazda gələcək nəsillər üçün təhlükəsizliyi və çiçəklənməni təşviq edəcək Azərbaycanla Ermənistan arasında dayanıqlı sülhə olan dəstəyimizi bir daha təsdiq edir.

Novruz bayramınız mübarək!

*Səmimiyyətlə,*

***Cozef R.BAYDEN,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

## ABŞ sülh naminə səylərini bundan sonra da davam etdirəcək

**Amerika Birləşmiş Ştatlarının dövlət katibi Antoni Blinken martın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında Azərbaycanın Laçın-Xankəndi yolu ətrafındakı vəziyyət müzakirə olunub. Dövlətimizin başçısı qeyd edib ki, ötən il dekabrın 12-dən bu günədək Rusiya sülhməramlılarının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə buradan 4700-dən artıq nəqliyyat vasitəsinin, tibbi yardıma ehtiyacı olan şəxslərin və onları müşayiət edənlərin keçidi təmin olunub. Buna görə də bu yolun guya blokadada olması barədə məlumat Ermənistanın yalançı təbliğatıdır.

Azərbaycan Prezidenti vurğulayıb ki, Ermənistanın Laçın yoluna köməkçi yoldan istifadə edərək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərimizdə qanunsuz hərbi daşımalar, şəxsi heyətin rotasiyasını həyata keçirməsi, habelə Ermənistan silahlı qüvvələrinin 10 minə yaxın hərbçisinin hələ də Azərbaycan ərazisində olması ciddi narahatlıq doğurur. Bu xüsusda dövlətimizin başçısı Azərbaycanın Laçın yolunun Ermənistanla sərhədinin son nöqtəsində sərhəd-keçid məntəqəsinin yaradılmasının labüdlüyünü xüsusilə vurğulayıb.

Prezident İlham Əliyev son həftələr ərzində Ermənistan tərəfinin Avropa İttifaqının bu ölkədəki missiyasının yerləşməsindən sui-istifadə edərək vəziyyəti qəsdən gərginləşdirmək istiqamətində siyasət yürütdüyünü, Azərbaycan-Ermənistan dövlət sərhədi boyu və Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələri və qanunsuz erməni hərbi birləşmələri tərəfindən atəşkəsin intensiv şəkildə pozulması hallarının müşahidə olunduğunu diqqətə çatdırıb. Azərbaycan Prezidenti bu xüsusda 2023-cü il martın 5-də qeyri-qanuni erməni birləşmələrinin törətdikləri təxribat nəticəsində 2 hərbi qulluqçumuzun şəhid olmasını və Novruz bayramı günü - martın 20-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistanın növbəti təxribatı nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusunun yaralandığını qeyd edib.

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan sülh gündəliyinə tam sadiqdir, Ermənistanla münasibətlərin normallaşdırılmasına və tezliklə sülh müqaviləsinin imzalanmasına hazırdır və son təklif və düzəlişlərinin olduğu sülh müqaviləsinin mətnini Ermənistan tərəfinə təqdim edib.

Dövlətimizin başçısı bildirib ki, ABŞ və şəxsən dövlət katibi Antoni Blinkenin bu istiqamətdə səylərini yüksək qiymətləndirir.

Dövlət katibi Antoni Blinken bir daha vurğulayıb ki, ABŞ Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün səylərini bundan sonra da davam etdirəcək.

Dövlətimizin başçısı Münhendə keçirilmiş görüşün davamı olaraq Azərbaycanın Qarabağdan olan erməni sakinlərlə təmaslara hazır olduğunu və bu xüsusda Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən reinteqrasiya üzrə təmasları davam etdirmək və infrastruktur layihələrini müzakirə etmək üçün onların Bakıya dəvət edildiyini də xatırladıb.

***Prezidentin Mətbuat Xidməti***

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Qarabağ" və "Qalatasaray" komandaları arasında xeyriyyə oyununa baxıblar

















*Əvvəli 1-ci səh.*

FIFA referisi Əliyar Ağayevin idarə etdiyi oyunda "Qalatasaray" komandası erkən qolla hesabı açıb. Matçın 4-cü dəqiqəsində İstanbul təmsilçisinin heyətində Bafetimbi Qomis fərqlənib. Görüşün 19-cu dəqiqəsində "Qarabağ"ın oyunçusu Redon Cica hesabı bərabərləşdirib. "Qalatasaray" matçın 87-ci dəqiqəsində Mauro İkardinin 11 metrlik cərimə zərbəsindən vurduğu qol sayəsində yenidən hesabda irəli çıxıb. Bu, oyunda sonuncu qol olub. Beləliklə, "Qarabağ" - "Qalatasaray" xeyriyyə matçı İstanbul təmsilçisinin qələbəsi ilə başa çatıb - 1:2.

"Qalatasaray" futbol klubunun prezidenti Dursun Özbək Prezident İlham Əliyevə üzərində komandanın oyunçularının imzası olan formanı və digər xatirə hədiyyələrini təqdim etdi. Bu oyun qardaş Türkiyədə baş vermiş "Əsrin fəlakəti"nin - güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına yardım məqsədilə təşkil olunub. Görüşdən əldə olunacaq bütün gəlirlər zəlzələdən əziyyət çəkənlərə yardım üçün Türkiyəyə göndəriləcək. Oyun üçün satışa çıxarılmış 62 mindən çox biletin hamısının qısa müddətdə satılması bu qarşılaşmaya göstərilən böyük maraqla yanaşı, Azərbaycan xalqının çətin gündə qardaş Türkiyə ilə sarsılmaz həmrəylik nümayiş etdirməsinin də əyani təsdiqidir.

## Azərbaycan Misirlə əməkdaşlığı genişləndirməkdə maraqlıdır

**Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi martın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Əbdülfəttah Əs-Sisi müqəddəs Ramazan ayının başlanması münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb, Misirin hər iki xalqın maraqları naminə ölkəmizlə əməkdaşlığı genişləndirməkdə əzmli olduğunu vurğulayıb.

Telefon zənginə və təbriklərə görə təşəkkürünü bildirən Azərbaycan Prezidenti də öz növbəsində Əbdülfəttah Əs-Sisini və Misir xalqını müqəddəs Ramazan ayının başlanması münasibətilə təbrik edib.

Dövlətimizin başçısı da Azərbaycanın Misirlə dostluğu və əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu bildirib, Misir dövlətinə və xalqına çiçəklənmə və inkişaf arzulayıb.

***Prezidentin Mətbuat Xidməti***

## Birinci vitse-prezident Mehriban Əliyeva "Qarabağ"-"Qalatasaray" oyunundan videogörüntülər paylaşıb

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında "Qarabağ"-"Qalatasaray" oyunundan videogörüntülər paylaşıb.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "26.03.2023. Türkiyə-Azərbaycan qardaşlığı əbədidir, sarsılmazdır!"

## Yunanıstan Respublikasının Prezidenti zati-aliləri xanım Katerina Sakellaropuluya

Hörmətli xanım Prezident.

Yunanıstan Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Yunanıstan əlaqələrinin inkişafı, əməkdaşlığımızın genişlənməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 mart 2023-cü il*

## Azərbaycanın və Türkiyənin XİN başçıları mövcud regional vəziyyəti müzakirə ediblər

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı nazirlər Azərbaycanla Türkiyə arasında gündəlikdə duran ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərini, habelə mövcud regional vəziyyəti müzakirə ediblər.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər sahələr ətrafında fikir mübadiləsi aparıblar.

# Hayastanın növbəti avantürası onun daha böyük məğlubiyyəti olacaq

## "Dəmir yumruq" bir daha işə düşsə, heç bir kənar qüvvə Azərbaycana təsir edə bilməyəcək

*Əvvəli 1-ci səh.*

Tərtər rayonunun Talış kəndinə səfəri zamanı Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edən Prezident İlham Əliyev eyni zamanda 44 günlük Vətən müharibəsində ağır məğlubiyyətindən sonra ölkəmizlə sülh müqaviləsini imzalamaqdan yayınan Hayastana sonuncu xəbərdarlığını etdi. Qalib Ali Baş Komandan cəmi 44 günə diz çöküb yalvaran ölkənin rəhbərliyini bir daha Azərbaycanla hesablaşmağa çağırdı. Əks təqdirdə baş verəcəklərin yalnız Hayastana ağır zərbə vuracağını bəyan etdi.

### İşğal dövründə susqun dayanan bəzi beynəlxalq dairələr Azərbaycana qarşı hücuma keçiblər

Azərbaycan Prezidenti bir daha işğal dövründə Ermənistanla əməkdaşlığa başlamaq üçün ölkəmizin göstərdiyi səylərdən, ortaya qoyduğu mövqedən söz açaraq dedi ki, xalqımız və dövlətimiz güclü iradə göstərərək bütün bu cəhdləri dəf edib. Çünki Azərbaycanın işi hər zaman haqq işi olub.

İlham Əliyev bir daha tarixə ekskurs edərək keçmiş Qarabağ münaqişəsini və aparılan sülh danışıqlarını xatırladı və bildirdi ki, Azərbaycan işğala məruz qalan ölkə kimi hər zaman ikili standartlarla, təzyiqlərlə üzləşib. Amma Hayastana bir dənə də olsun sanksiya tətbiq edilməyib. Bu cəzasızlıq mühitindən istifadə edən işğalçı ölkənin rəhbərliyi isə harınlamağa başlamışdı. Hətta o qədər azğınlaşmışdır ki, "Qarabağ Ermənistandır və nöqtə" sözlərini deyərək Azərbaycan xalqının haqlı hüququnu əlindən almaq istəyirdi. Əfsuslar olsun ki, Hayastanın arxasında dayanan qüvvələr, o cümlədən ovaxtkı Minsk qrupuna həmsədrlik edən ölkələr bu bəyanata heç bir reaksiya verməmişdilər.

İlham Əliyev dəfələrlə bəyan etmişdi ki, əgər məsələ sülh yolu ilə həll olunmasa, Azərbaycan müharibə yolu ilə öz doğma torpaqlarını işğalçılardan azad edəcək və belə də oldu. Müzəffər Ali Baş Komandanın qüdrətli ordusu cəmi 44 günə torpaqlarımızı düşməndən təmizlədi və 3 ilə yaxındır ki, dünya erməni barbarlığına şahidlik edir.

Təəssüfləndirici məqam odur ki, 30 illik işğal dövründə Hayastana heç bir xəbərdarlıq, heç bir sanksiya tətbiq etməyən beynəlxalq təşkilatlar indi Azərbaycana qarşı hücuma keçiblər. Öz doğma torpaqlarımızı azad etdiyimiz üçün bizə qarşı ədalətsiz addımlar atılır, çirkin əməllər törədilir.

Prezident dedi ki, bu gün hay havadarları, Hayastanın işğalçılıq siyasətinə şərik olan ölkələr Azərbaycana qarşı informasiya müharibəsi elan ediblər. Bəzi ölkələrdə Azərbaycanın daxili işləri ilə bağlı hansısa konfranslar, simpoziumlar təşkil edirlər. Bəzi ermənipərəst ölkələr dünya xəritəsində olmayan, dırnaqarası "Dağlıq Qarabağın müstəqilliyini" tanıyırlar. Bu da həmin ölkələrin real mövqeyini ortaya qoyur. Prezidentin də söylədiyi kimi, bütün bunlar göstərir ki, həmin dairələrin yeganə amalı işğalı əbədiləşdirmək olub. Amma istəkləri, niyyətləri ürəklərində qalıb.

### Heç kim qabağımızda dura bilmədi, bu gün də dura bilmir, sabah da dura bilməyəcək

Azərbaycan Prezidenti həmçinin İkinci Qarabağ müharibəsi dövründə baş verən proseslərə də toxunub. Dövlət başçısı bildirib ki, müharibə zamanı Azərbaycana qarşı edilən təzyiqlərin heç bir nəticəsi olmayıb.

Bir tərəfdən Ermənistana yardımlar göndərib, digər yandan Azərbaycana təzyiqlər edilsə də, son nəticə haqlının qələbəsi ilə başa çatıb: "Heç kim bizim qabağımızda dura bilmədi. Mən demişdim ki, öldü var, döndü yoxdur, ya Qarabağın azadlığı, ya ölüm! Heç kim bizim qabağımızda dura bilmədi, bu gün də dura bilmir, sabah da dura bilməyəcək. Əgər kimsə fikirləşir ki, bizə qarşı cızılmış çirkin planlar həyata keçə bilər, səhv edir. Bizə qarşı hər bir çirkin plana bizim güclü iradəmiz, güclü siyasətimiz, müzəffər Ordumuz cavab verəcək".

İkinci Qarabağ müharibəsində əldə edilmiş böyük zəfərdən sonra yaranmış yeni reallıqlara uyğun addım atan İlham Əliyev işğaldan azad edilən torpaqlarımızda reallaşdırdığı yeni layihələrlə bir daha dünyaya Azərbaycanın iqtisadi qüdrətini nümayiş etdirir. Çünki bu möhtəşəm yenidənqurma işlərini Azərbaycan yalnız öz iqtisadi imkanları hesabına, yəni heç kimdən maddi yardım almadan həyata keçirir.

Hayastanın 30 ildə viran qoyduğu, talan etdiyi əraziləri İlham Əliyev yenidən cənnətməkana çevirir. Tərtərin Talış kəndində yaradılan infrastruktur da bunun əyani təcəssümüdür. Azərbaycan Ordusu 2020-ci il oktyabrın 3-də bu strateji ərazini düşməndən azad edib. Qalib Ali Baş Komandan kimi İlham Əliyev 2021-ci il oktyabrın 4-də Talış kəndindəki Bayraq meydanında Azərbaycanın Dövlət Bayrağını ucaldıb. İşğaldan azad edildikdən sonra Azərbaycan Prezidentinin tapşırıqları əsasında Talış kəndində tikinti-bərpa işləri aparılıb, yeni evlər inşa olunub, zəruri infrastruktur yaradılıb. Kənddə aparılan təmir-bərpa işlərinin birinci mərhələsi çərçivəsində Bayraq meydanında abadlıq işləri görülüb. Talış kəndinin yüksək nöqtələrindən birində sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət guşəsi və seyr meydanı, uşaq bağçası, məktəb və digər sosial-iaşə obyektləri tikilib. Görülən işlər çərçivəsində 10 qeyri-yaşayış və ictimai iaşə obyekti də bərpa olunub və tamamilə yenidən qurulub. Bu obyektlərin ərazisində abadlıq işləri aparılıb. Bunlardan biri də inzibati binadır.

Bütün bunlar Azərbaycanla Hayastanın fərqini dünyaya nümayiş etdirir. Söyləməyə başqa fikir yoxdur. İlham Əliyev bayram təbrikində bəyan edib ki, Azərbaycan işğaldan azad etdiyi torpaqlarda bundan sonra daha da möhkəmlənəcək: "Biz bu gün doğma Qarabağ torpağında, doğma Zəngəzur torpağında dayanmışıq və burada əbədi yaşayacağıq. Azərbaycan xalqı haqlı olaraq qürur hissi ilə yaşayır. Bizim hər birimiz, xaricdə yaşayan azərbaycanlılar da daxil olmaq şərtilə iki il yarım müddət ərzində qürur hissi ilə yaşayırıq. Hər kəsə, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq və ərazi bütövlüyünü öz gücümüzə bərpa edən ölkə kimi bundan sonra da ancaq və ancaq irəliyə gedəcəyik. Necə ki, Vətən müharibəsində 44 gün ərzində irəliyə getmişiksə, müharibə başa çatandan sonra bütün sahələr, bütün istiqamətlər üzrə irəliyə gedirik və gedəcəyik".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Qalibin məğlublara yeganə şərti

## Müzəffər Ali Baş Komandan İlham Əliyev kapitulyant ölkəyə sonuncu xəbərdarlığını etdi



Müzəffər Ali Baş Komandan İlham Əliyev Novruz bayramı münasibəti ilə Azərbaycan xalqına növbəti müraciətini etdi.

Həm də məğlub, kapitulyant Hayastana və onun havadarlarına sonuncu xəbərdarlığını edərək son sözünü söylədi!

**Üstəlik, Baş Sərkərdəmiz qalib görkəmi, məğrur duruşu, vüqarlı baxışı, sıxılmış "dəmir yumruğ"u, qətiyyətli səsi, özünəməxsus məntiqi və təkzibolunmaz faktları ilə ağlı çaşanlara yerlərini göstərərək meydan oxudu!**

**Üç cəbhədə - müharibə, diplomatiya və informasiya meydanında düşməni ağır məğlubiyyətə uğradaraq qarşısında diz çökdürən Müzəffər Ali Baş Komandanımıza necə də yaraşırdı bu şahanə duruş, sərt və qəti mövqe nümayişi!**

*Artıq bütün dünya Azərbaycan Prezidentini sözü ilə əməli bir olan dövlət başçısı kimi tanıyır.*

*Hamı şahiddir ki, İlham Əliyev dediyini edir!*

*Odur ki, cənab İlham Əliyevin növbəti dəfə dediklərini və etdiyi xəbərdarlıqları da qəbul etmək zorundadırlar!*

❖ ❖ ❖

Gah Rusiyaya qarşı "xalqın etirazı"nı təşkil edən, gah da ona yalvaran, Qərbdə özünə yeni ağa axtaran, İranla cici-bacı olan, böyük bacısı Fransanın əli ilə beynəlxalq təşkilatlarda məsələ qaldıraraq dəstək axtaran, "konyak diplomatiyası"nı yenidən işə salaraq korrupsiyalaşmış Avropa Parlamentində qərarlar qəbul etdirən Hayastan sülh müqaviləsini imzalamaqdan boyun qaçırır.

*Üç ilə yaxın zaman keçməsinə baxmayaraq, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın maddələrinin birinə də sonadək əməl etməyib.*

*Halbuki müharibənin dayandırılması, danışıqlara başlanaraq sülh müqaviləsi imzalanması üçün neçə dövlət başçısının zəhləsini tökərək dayanmadan zənglər etmiş, neçə prezidentin dabanını yalamış, yalvar-yaxarla Azərbaycanın dövlət başçısına minnətçi salmışdı.*

*Xeyli xahiş-minnətdən sonra Prezident İlham Əliyevin irəli sürdüyü bütün şərtlərin əks olunduğu sülh müqaviləsinin bağlanacağı təqdirdə hərbi əməliyyatları dayandırmağa razılaşmışdı.*

Rusiya Prezidenti Vladimir Putinlə Azərbaycanın dövlət başçısı İlham Əliyev aşkarda, televiziya kameraları qarşısında, məğlub və miskin erməni baş naziri Paşinyan isə gizlində, gözə görünmədən üçtərəfli Bəyanatı imzaladılar.

**Əlbəttə, kimsə öz adına, imzasına əhəmiyyət verməyə bilər.**

**Azərbaycan Prezidenti İlham Əliyevin isə sözü ilə əməli birdir və sonadək daha neçə dəfə təsdiqlənmiş birgə bəyanatların bütün bəndlərinin tam şəkildə icrasında israrlıdır!**

*Görünür, Paşinyanın ya ağlı çaşıb, ya da yaddaşı itib:*

- Sanki İkinci Qarabağ müharibəsində uzun illər "məğlubedilməz" adlandırdıqları ordularının məhv edildiyini unudub!
- Sanki itkilərinin tam sayı barədə hələ də xalqa dəqiq informasiya verməkdən necə çəkindiyini xatırlamır!
- Sanki on bir min əsgər və zabitinin silahını ataraq fərari kimi qaçdığını yaddan çıxarıb!
- Sanki Ağdam, Laçın və Kəlbəcər kimi möhkəmləndirilmiş, xüsusi istehkam, səngər və atəş nöqtələri, mina sahələri ilə qorunan rayonları bir güllə belə atmadan məcbur olub geri qaytardığından xəbəri yoxdur!
- Sanki indi əməl etmək istəmədiyi sülh müqaviləsinin bağlanması üçün kimlərə nə qədər yalvardığını, özünü alçaltdığını yaddaşından silib!

*Xam xəyallara düşüb:*

- Elə zənn edir ki, İrandan, Hindistandan aldığı silahlar, gətirdiyi muzdlular sayəsində yenidən güclənərək Azərbaycana üstün gələcək.
- Elə bilir ki, kimsə gəlib onun əvəzində döyüşəcək, öləcək, Qarabağı alıb təzədən ona verəcək.
- Elə fikirləşir ki, haralardasa, hansı yollasa, kiminsə vasitəsi ilə (yaxud diasporun pulu) çıxartdırdığı qərarlar nəyisə dəyişəcək, Azərbaycanın mövqeyinə və iradəsinə təsir edəcək.

AY-HAY!

Elə bu ağılla torpaqları vaxtında qaytarmadınız ki, indi çaş-baş vəziyyətdə qalmısınız.

**Şübhəsiz, Azərbaycan Prezidentinin Novruz bayramı münasibətilə Talış kəndindən etdiyi müraciəti hamınız eşitmisiniz!**

**İndi isə yadda möhkəm saxlayın:**

**Azərbaycan qalib ölkədir!**

- Güclü ordusu, ən yeni və müasir silahları var!
- Güclü iqtisadiyyata, yüksək beynəlxalq nüfuza malikdir!
- II Qarabağ müharibəsindən sonra ordusunu yenidən silahlandırıb, sərhəddə müasir hərbi şəhərciklər salıb, yeni komando qüvvələri hazırlayıb və onlara müntəzəm təlimlər keçir!
- Ölkənin müdafiə sənayesi yeni silahlar (sizin hələ görmədiyiniz və "dadına baxmadığınız") istehsalını qaydaya salıb!
- Dövlət başçısı son sözünü və qəti mövqeyini bildirib, kimsə onu iradəsindən heç zaman döndərə bilməz!
- "Dəmir yumruq" artıq hazır vəziyyətdədir, əzicilik qabiliyyəti isə həmişəkindən də yüksəkdir!

*Bütün bunları yaddaşları təzələmək üçün söylədik!*

❖ ❖ ❖

**Azərbaycan ona görə səbir edib gözləmir ki, guya, kimdənsə, yaxud nədənsə qorxur.**

ƏSLA!

Azərbaycan zəruri və vacib saydığı işləri görür və bir an belə dayanmır!

**Əslində, zaman Azərbaycanın xeyrinə işləyir!**

**Buyurun, baxın:**

- Qeyd etdiyimiz kimi, ordu əvvəlkindən də qüdrətli vəziyyətə gətirilib;
- Qarabağın və Şərqi Zəngəzurun bərpası və dirçəldilməsi prosesi yüksək sürətlə gedir;
- Böyük qayıdış proqramına uyğun olaraq nəzərdə tutulan bütün işlər planlı qaydada görülür, məcburi köçkünlər hissə-hissə geri dönürlər;
- Yeni yollar çəkilir, dəmir yolu xətti salınır, ilin bütün fəsillərində Laçın və Kəlbəcərə rahat gediş-gəlişi təmin etmək üçün dağların altından tunellər qazılır;
- Çayların qarşısı kəsilərək süni göllər yaradılır, elektrik stansiyaları tikilir, suvarma kanalları çəkilir və təmir olunur;
- "Smart" tipli yaşayış məntəqələri inşa olunur, məktəblər, uşaq bağçaları açılır, geri qayıdanlar üçün iş yerləri yaradılır;
- Zəngəzur dəhlizinə aparan avtomobil yolunun 70, dəmir yolunun isə 40 faizi artıq hazırdır;
- Şuşada, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Xocavənddə planauyğun şəkildə bərpa və tikinti işləri aparılır;
- Azərbaycan etibarlı sözü, təbii qazı və "yaşıl enerji"si ilə Avropaya əvəzsiz tərəfdaş olduğunu daim və dönmədən sübut edir, yeni-yeni müqavilələr bağlayır, iqtisadi imkanlarını genişləndirir, siyasi nüfuzunu yüksəldir!

**Azərbaycanın xeyrinə işləyən zaman məğlub, vassal, alət dövlət olan Hayastanın miskin vəziyyətini daha da dərinləşdirir, ölkənin gələcəyini görməyən əhalinin bu perspektivsiz dövləti tərk etmələrini daha da sürətləndirir.**

❖ ❖ ❖

Ağılsız siyasət yürüdən Hayastanın öz təqsiri ucundan blokada vəziyyətində qalması bir dövlət kimi onun sonunu yaxınlaşdırır.

İşğal dövründə təcrid vəziyyətində olsa da, xeyli gəlir mənbəyi də vardı:

- Azərbaycanlı əhalinin dolu vəziyyətdə qoyub çıxdığı evlərdəki əmlak və əşyaları satıb pula çevirirdilər;
- Evləri terrorçu fars qardaşları ilə sökərək dəmir, taxta materiallarını, mişar daşlarını İrandakı tikinti materialları bazarında sataraq qazanırdılar;
- Azərbaycan ərazisindəki mis, qızıl, gümüş, molibden mədənlərindəki qiymətli metalları, habelə tikinti materiallarını yağmalayıb xaricə ötürürdülər;
- Meşələri, xüsusən oradakı qiymətli ağac növlərini qırıb inşaat materialları kimi satıb sovururdular;
- İşğal ərazilərindəki elektrik stansiyalarında istehsal olunan elektrik enerjisindən məişətdə və istehsalda istifadə etməklə qabaq düşürdülər;
- Azərbaycana məxsus hazır meyvə bağlarının və üzüm plantasiyalarının məhsullarını, habelə mədən sularını öz adları ilə dünya bazarına çıxararaq satırdılar;
- Azərbaycan ərazisindəki çay və göllərin suyundan kənd təsərrüfatı məhsullarının istehsalında gen-bol istifadə edirdilər.

**44 günlük Vətən müharibəsindən sonra Azərbaycan xalqı öz sərvətlərinə yenidən sahib çıxdı!**

**Blokadadan qurtula bilməyən Hayastan isə daha nə oğurlaya bilir, nə sata, nə də qazana.**

**Üstəlik, işsiz qalaraq dilənçi vəziyyətində yaşayan haylar sürətlə ölkəni tərk edirlər.**

*On bir min fərarisi olan, müharibə iştirakçıları və əlilləri adam yerinə qoyulmayan bu dövlətdə yeni müharibə qorxusu qarşısında başıpapaqlıların hamısı qaçıb aradan çıxır.*

*Ordu Anna Akopyanın "sərkərdəliyi" ilə haxçiklərın ümidinə qalır.*

Belə bir vəziyyətdə olan haylar, görəsən, kimə və nəyə arxayın olub Azərbaycanı qəzəbləndirirlər.

Artıq qaçmağa yerləri də çox dardır.

❖ ❖ ❖

Vaxt var idi elə güman edirdik ki, "Qarabağ problemi" BMT-nin 4 məlum qətnaməsi əsasında sülh yolu ilə həll ediləcək, məsələ beynəlxalq hüquqa uyğun olaraq AŞ PA-da, Aİ-nin Parlament Assambleyasında qəbul olunan qərarlarla çözüləcək.

Dünyada ədalətin mövcudluğuna, beynəlxalq hüququn işlənməsinə inanırdıq, yaxud inanmaq istəyirdik.

İkili standartların mövcudluğunu hər an hiss etsək də, özümüzü o yerə qoymur, "sülh yolu"ndan gözümüzü çəkmirdik.

Hərdən ermənipərəst qüvvələrin, ermənilərin ələ aldıqları Avropa Parlamenti deputatlarının qərəzli addım və açıqlamalarından, erməni dəyirmanına su tökən çıxış və addımlarından narahat olsaq da, yenə gözləyirdik.

Azərbaycanda mətbuat və söz azadlığının "boğulması", insan haqlarının "pozulması" ilə bağlı öz satqınlarımızın (5-ci kolonun) "arayış"ları əsasında beynəlxalq qurum və təşkilatlar tərəfindən hazırlanan "hesabat"ları oxuyanda qərəzi, yalanı açıq-aşkar görsək də, yenə özümüzə bəraət qazandırmağa can atır, əsl həqiqətin necə olduğunu ermənipərəstlərə sübut etmək üçün xeyli çabalar göstərərdik.

Artıq öz işimizi özümüz həll etmişik!

**Həm də ATƏT-in Minsk qrupunun vasitəçiliyi, "sülh danışıqları yolu ilə" yox!**

**"Dəmir yumruq"la həll etmişik!**

Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı qüdrətli Azərbaycan Ordusu sayəsində həll etmişik!

Birliyimizlə, əsgər və zabitlərimizin rəşadəti ilə, şəhidlərimizin torpağa tökülən qızıl qanı ilə həll etmişik!

*İndi kim harda hansı "qərar"ı çıxarmaq istəyirsə, qoy çıxarsın.*

*Qoy erməni diasporu Avropa Parlamentində istədiyi qədər deputatı "konyak diplomatiyası", korrupsiya və rüşvət yolu ilə ələ alsın.*

*Qoy Ermənistan Avropadakı bütün "nəzarətçi"ləri yığaraq öz ərazisində sərhəddə yerləşdirsin, gecə-gündüz dayanmadan bizə "nəzarət" etdirsin, istədiyi qədər atəşkəsi pozsun.*

- Artıq Azərbaycan öz torpaqlarına qayıdıb!
- Artıq Azərbaycan öz ərazisinə özü nəzarət edir!
- Artıq Azərbaycanı öz ordusu, öz əsgərləri qoruyur!
- Artıq Azərbaycanın razılığı olmadan heç bir ordu, heç bir nəzarətçi onun ərazisinə ayaq basa bilməz!
- Artıq Azərbaycanın təbii sərvətlərini kimsə talayıb apara bilməz!
- Artıq hər şey nəzarətdədir!

**Hər məsələ zamanı çatan kimi həllini tapır!**

**Prezident İlham Əliyev nəyi, nə vaxt və necə edəcəyini hamıdan yaxşı bilir və edir də!**

**Azərbaycanı əsəbiləşdirmək olmaz!**

**Azərbaycanla hesablaşmaq, üçtərəfli Bəyanata sözsüz əməl etmək lazımdır!**

*Sonra gec olacaq!*

*Necə ki məsələnin "sülh yolu ilə həlli" gecikdirildi!*

*Nəticədə "dəmir yumruq" işə düşdü!*

**"Dəmir yumruğ"u qəzəbləndirmək olmaz!**

❖ ❖ ❖

Özünə yeni ağa axtaran Hayastan öz ərazisinə "mülki missiya" adı ilə müşahidəçilər gətirdi.

*Əvvəla,* bu necə "mülki" missiyadır ki, onun üzvlərinin yarısını fransız jandarmasının, o biri yarısını isə alman hərbi polisinin keçmiş zabitləri təşkil edirlər?!

*İkincisi,* bu "mülki" müşahidəçilər gələndən sonra niyə Hayastan tərəfi xeyli ürəklənib və atəşkəsi tez-tez pozmağa başlayıb?

*Üçüncüsü,* "müşahidəçi"lər Azərbaycan tərəfinə baxdıqlarından, deyəsən, qulaqlarının dibində bizə sarı tuşlanan silahları "görmür", atılan güllələrin səsini "eşitmirlər".

Yoxsa təkcə biz tərəfdə "pozuntu" axtarırlar?!

*Müşahidəçiləri ermənilər çağırdıqları üçün onların dediklərini də özləri eşidib əməl etməlidirlər.*

*Gələn gündən özlərini karlığa və korluğa qoyanların rəyi və mövqeyinin bizim üçün heç bir əhəmiyyəti yoxdur!*

**Azərbaycan istəmədiyi istənilən "missiya"nı, yaxud "missiya daşıyıcısı"nı qəbul etmir!**

**Azərbaycanın qəbul etmədiklərinin isə axırı olmur!**

- Necə ki ATƏT-in Minsk qrupu dağıldı!
- Necə ki qondarma qurumun "dövlət naziri" yoxa çıxdı!

*"Mülki missiya" və onun təşkilatçıları təkcə ATƏT-dən yox, yaxın tarixdə baş verən "Vardanyan əhvalatı"ndan da özlərinə ciddi nəticə çıxarmalıdırlar!*

❖ ❖ ❖

**Biz bundan sonra yalnız irəliyə gedəcəyik!**

**Bu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sözləridir!**

**Elə gedirik də!**

HƏM DƏ:

- Bizə qarşı törədilən bütün bədxahlıqlara və düşmənçilik hərəkətlərinə baxmadan!
- İranın və Fransanın düşmənçilik əməllərinə əhəmiyyət vermədən!
- Guya, bizə sanksiya tətbiq ediləcəyi barədə eyhamlardan çəkinib qorxmadan!
- "Konyak diplomatiyası"nın korrupsiyalaşmış "uğur"larını heçə saymadan!

**Düşməndən qat-qat güclü olduğumuzu dərk edərək ədalətin və beynəlxalq hüququn tərəfimizdə olduğuna arxalanaraq, Ulu Tanrıya, ordumuzun gücünə, dostlarımızın sədaqətinə, Müzəffər Ali Baş Komandanımızın qətiyyət və uzaqgörənliyinə, hadisələri qabaqlamaq məharətinə güvənərək, yumruq kimi birləşərək gedirik!**

Əgər Hayastan 29 min kvadratkilometrlik ərazidə rahat yaşamaq istəyirsə:

- Ağlını başına yığmalı və xam xəyallara qapılmamalıdır!
- Revanşist xülyalardan, Azərbaycana qarşı ərazi iddialarından dərhal əl çəkməlidir!
- Kimlərəsə arxalanaraq özgə ağzı ilə hürməməlidir!
- Avropa Parlamenti kimi korrupsiyalaşmış qurumun qəbul etdiyi boş kağız-kuğuza, baxıcı-müşahidəçiyə güvənməklə nəyəsə ümid bəsləməməlidir!
- Kiminsə gəlib onun yerinə döyüşərək, ölərək yenidən Qarabağı Hayastana qaytaracağına heç bir ümid bəsləməməlidir!
- Azərbaycanın nə vaxtsa zəifləyəcəyi, əlinə fürsət düşəcəyi və qisas alacağı kimi sərsəm yuxularının çin çıxacağına sadəlövhcəsinə inanmamalıdır!
- Ən əsası daim hazır vəziyyətdə gözləyən "dəmir yumruğ"u unutmamalıdır!

*Onun nicatının bircə yolu var:*

*İmzaladığı bəyanatın şərtlərini tez bir zamanda yerinə yetirməlidir!*

❖ ❖ ❖

**"Dəmir yumruğ"u ilə yeni reallıqlar yaradan, erməni ordusunu məhv edərək Azərbaycan torpaqlarından qovan Müzəffər Ali Baş Komandan İlham Əliyevin düşmən qarşısında bir şərti var:**

*"Ermənistanın 29 min kvadratkilometrlik ərazidə rahat yaşaması üçün bir şərt var - bizim şərtlərimizi qəbul etməlidir, rəsmən Qarabağı Azərbaycan ərazisi kimi tanımalıdır, bizimlə sülh müqaviləsi imzalamalıdır, bizim şərtlərə əsasən, delimitasiya işlərini aparmalıdır. Ancaq o təqdirdə onlar 29 min kvadratkilometrlik ərazidə, - hansı ki indi onlar ancaq bunu istəyirlər, - rahat yaşaya bilərlər".*

**Əgər Hayastan rəhbərliyi bu dəfə də kiməsə, yaxud nəyəsə güvənərək sülhdən yayınsa, ərazi iddialarını davam etdirsə, İkinci Qarabağ müharibəsindən betərini alacaqdır!**

Bəli, Azərbaycanın yalnız bir şərti var!

Bircə şərti!

Bütün şərtlərinin danışıqsız yerinə yetirilməsi şərti!

Sonra gec olar!

❖ ❖ ❖

**PS.** Novruz bayramı şənlikləri başa çatmamış Müzəffər Ali Baş Komandan İlham Əliyev dediyini etdi!

Bir güllə atıb, bir damcı qan tökmədən ordumuz Laçın yoluna alternativ olan torpaq yolu nəzarətinə götürdü!

Beləliklə, həm ermənilərin gizlincə silahlanmalarının, həm də Hayastana xəlvəti gediş-gəlişin qarşısı alındı!

Üstəlik, RSK-ni erməniyə vaxtaşırı qulluq göstərmək "əziyyəti"ndən də qurtardı!

Həm də bir daha yüksək peşəkarlığını və hazırlıq vəziyyətini nümayiş etdirdi!

**Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyev heç zaman sözü havayı söyləmir!**

**Dedisə, deməli, edəcəkdir!**

**Bu da sözlə əməlin birliyinə daha bir nümunə!**

**Bəxtiyar SADIQOV**

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 124-cü kitabı çapdan çıxıb

**"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 124-cü kitabı çapdan çıxıb.**




AZƏRTAC xəbər verir ki, çoxcildliyin yeni kitabında toplanmış materiallar 2022-ci ilin noyabr-dekabr aylarını əhatə edir. O dövrün ən mühüm hadisələrindən biri Prezident İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü olub. Dövlətimizin başçısı görüşdə çıxışı zamanı Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı məsələsini gündəmə gətirdi. Əminliklə bildirdi ki, gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri də tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar.

**Sitat:** *Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır. Bu gün Zəngilan rayonunun Ağalı kəndinin nümunəsi bunu deməyə əsas verir. Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir. Əminəm ki, Qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar.*

Yeni kitaba dövlətimizin başçısının digər mühüm bir tədbirdə - ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda çıxışının və ona verilən suallara cavablarının mətnləri də daxil edilib.

Dekabr ayı Prezident İlham Əliyevin bir neçə mühüm xarici səfəri ilə yadda qalıb. Dövlət başçısı dekabrın 14-də Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə görüşündə iştirak etmək üçün Türkmənistanda işgüzar səfərdə olub. Dekabrın 17-də "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması mərasimi ilə bağlı Rumıniyaya işgüzar səfər edib. Dekabrın 26-da isə Rusiyada MDB dövlət başçılarının iclasında iştirak edib. Yeni nəşrdə həmin səfərlər barədə materiallar yer alıb.

Bu nəşrdə Prezident İlham Əliyevin ölkəmizə işgüzar səfərə gəlmiş Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə görüşü haqqında informasiya, iki ölkənin liderlərinin mətbuata bəyanatlarla çıxışlarının mətnləri də verilib.

Dövlətimizin başçısı dekabr ayında bölgələrdə də səfərdə olub. Şəki rayonunda Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidən qurulmasından sonra açılış mərasimində iştirak edib, Orta Zəyzid kəndində "Green Factory" MMC-nin quru meyvə istehsalı müəssisəsində yaradılmış şəraitlə, Heydər Əliyev Fondu tərəfindən Şəki Xan Məscidi Kompleksində aparılmış bərpa işləri ilə, habelə Şəkidə Yuxarı Baş Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə tanış olub, sənətkarlarla, ustalarla söhbət edib. Prezidentin iştirakı ilə həmçinin Oğuz rayonunda kiçik su elektrik stansiyaları silsiləsinin açılışı olub, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçası istifadəyə verilib. Dövlət başçısı səfər çərçivəsində "Şəki-Oğuz" Aqroparkında qoz məhsulunun qərzəkdən təmizlənməsi, yuyulması və qurudulması zavodunun təməlini qoyub. Bütün bunlar haqqında informasiyalar 124-cü kitabda əksini tapıb.

Yeni kitaba Prezident İlham Əliyevin Bakı Metropoliteninin "Xocəsən" stansiyasının və "Xocəsən" elektrik deposunun açılış mərasimində iştirakına, Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında görülmüş işlərlə tanışlığına və Qarabağ Atları Kompleksinin təməlini qoymasına dair materiallar da daxil edilib.

Oxucu bu kitabda Prezidentin Azərbaycan könüllülərinin V Həmrəylik Forumunun iştirakçılarına, Azərbaycan Memarlarının XX Qurultayının iştirakçılarına, "Müasir idarəetməyə gedən yol: dayanıqlı və innovativ dövlət xidmətlərinə doğru" Beynəlxalq Forumun iştirakçılarına müraciətlərinin, Dünya Azərbaycanlılarının Həmrəylik Günü, Yeni il münasibətilə Azərbaycan xalqına təbrikinin mətnləri ilə də tanış ola bilər.

"Azərnəşr" tərəfindən buraxılan 124-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Azərbaycan-İsrail tərəfdaşlığı yeni müstəviyə qədəm qoyur

## Bu ölkədə səfirliyimizin açılması münasibətlərimizi daha da möhkəmləndirəcək

Azərbaycanın İsrail Dövlətində (Təl-Əviv şəhərində) səfirliyi ötən ilin noyabr ayında təsis edilib. Azərbaycanın İsraildəki ilk səfiri təyin olunmuş Muxtar Məmmədov etimadnaməsini martın 2-də İsrail Xarici İşlər Nazirliyinə, martın 26-da isə İsrail Prezidenti İsaak Hersoqa təqdim edib. Azərbaycanın İsraildəki səfirliyinin sabah açılması gözlənilir.







Möhkəm Azərbaycan-İsrail tərəfdaşlığı siyasi-iqtisadi, hərbi əməkdaşlıq kimi məsələlərdə yalnız qarşılıqlı maraqlara deyil, eyni zamanda uzun illərdən bəri davam edən dostluğa söykənir. Bunun nəticəsidir ki, iki ölkə arasındakı əməkdaşlıq əlaqələri də gündən-günə möhkəmlənir. Azərbaycanın İsraildə səfirlik açması bu baxımdan mühüm siyasi hadisədir.

### Dostluğumuzun təməli dərin tarixi əlaqələrə söykənir

Milli Məclisin deputatı, Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Fəzail Ağamalı bildirib ki, dövlət müstəqilliyi qazandıqdan sonra Azərbaycanın ən sıx əməkdaşlıq etdiyi ölkələrdən biri də İsrail olub. Etiraf etmək lazımdır ki, bu əməkdaşlığı möhkəmləndirən mühüm amillərdən biri də azərbaycanlılarla yəhudilər arasında mövcud olan dərin tarixi əlaqələrdir.

"Azərbaycan və İsrail xalqları bir-birilərinə hər zaman nümunə ola biləcək münasibət sərgiləyiblər. Həm də uzun illər ərzində bu əlaqələri qoruyub saxlamağı və inkişaf etdirməyi bacarıblar. Yəhudilərə qarşı ayrı-ayrı ölkələrdə müşahidə edilən diskriminasiyalar ölkəmizdə heç vaxt özünü göstərməyib. Təsadüfi deyil ki, Azərbaycanın gözəl guşələrindən biri olan Qubada, Qırmızı qəsəbədə yəhudilər Azərbaycan xalqının tərkib hissəsi kimi firavan yaşayır və dövlətimizin imkanlarından yüksək səviyyədə bəhrələnirlər. İsraillə Azərbaycan münasibətlərinin inkişaf etməsində, təbii ki, səfirliklərin açılması mühüm əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, İsrailin Azərbaycanda fəaliyyət göstərən səfirliyi dostluq əlaqələrimizin möhkəmləndirilməsinə ciddi töhfələr verib və verməyə davam edir", - deyə deputat qeyd edib.

F.Ağamalı deyib ki, Azərbaycanın da İsraildə səfirlik açması zamanın tələbi idi: "Bu məsələ aktual olduğu üçün Milli Məclisdə də dəfələrlə müzakirə edilmişdi. Lakin müəyyən amillərdən dolayı, xüsusilə də fars-molla rejiminin Azərbaycana qarşı düşmənçilik münasibətini gücləndirməmək və İranla əlaqələrimizi pozmamaq üçün ehtiyat tədbirlərimiz və sair bu kimi amillər səfirliyin açılmasını təxirə salırdı. Buna baxmayaraq, Azərbaycan-İsrail əlaqələri müxtəlif platformalarda inkişaf etdirilirdi. Azərbaycanın 44 günlük müharibədə erməni faşistləri üzərində qələbəsindən sonra isə İran düşmən mövqeyini açıq şəkildə ifadə etməyə başladı, Hayastana hər cür yardımını göstərdi. Eyni zamanda müxtəlif vaxtlarda ölkəmizə qarşı təxribatlar törətməkdən, təhdidlər yağdırmaqdan çəkinmədi. Beləliklə, işğala məruz qalmış torpaqlarını azad etmiş, bölgədə yeni reallıqlar yaratmış bir dövlət kimi Azərbaycan, nəhayət ki, dost ölkə olaraq İsraildə səfirlik açmağa qəti qərar verdi. Bu, iki ölkə arasındakı münasibətlərin ən yüksək səviyyədə davam etdirilməsi üçün vacibdir".

### İsrail Vətən müharibəsində Azərbaycanın yanında olub

Milli Məclisin deputatı, Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Ceyhun Məmmədov bildirib ki, İsraildə Azərbaycan səfirliyinin açılması böyük əhəmiyyət kəsb edir: "İsrail hər zaman, eləcə də 44 günlük Vətən müharibəsində ölkəmizin yanında olub və dəstəyini nümayiş etdirib. İkinci Qarabağ savaşı zamanı da İsrailin ölkəmizin ərazi bütövlüyünü dəstəkləməsi, yanımızda olması bizim etimadımızı bir daha doğrultdu, hər iki dövlət üçün əlverişli imkanlar yaratdı. Bu faktorlar iki dövlət arasında əlaqələrin inkişafında mühüm rol oynadı. Həmçinin ölkəmizdə yəhudilərə qarşı tolerant münasibət və xalqlarımızın dərin tarixi əlaqələri də Azərbaycanla İsraili yaxınlaşdıran amillərdəndir. İsraildə səfirliyimizin açılması isə iki ölkə arasındakı dostluq əlaqələrinin yeni müstəviyə keçidini təmin edəcək. Bunun nəticəsində Azərbaycan-İsrail əlaqələrinin daha sağlam və sürətli inkişafına şahidlik edə biləcəyik".

Deputat İsraildə fəaliyyət göstərən Azərbaycan diasporunun da xidmətlərinin vacibliyini vurğulayıb. Qeyd edib ki, diasporun səmərəli fəaliyyəti iki ölkə arasındakı əlaqələrin güclənməsində mühüm rola malikdir. "Azərbaycanla İsrail iqtisadi, ticari, hərbi və digər sahələrdə uğurlu əməkdaşlıq edir, ölkəmiz İsraildən müasir hərbi texnikalar alır. Hesab edirəm, belə çoxşaxəli əməkdaşlıqlar münasibətlərimizin inkişafına müsbət təsir göstərir. Təl-Əvivdə Azərbaycan səfirliyinin fəaliyyətə başlaması münasibətlərimizin daha da dərinləşməsinə səbəb olacaq. Orada yaşayan soydaşlarımız üçün bəzi məsələlər asanlaşacaq, turizmə yeni töhfələr veriləcək və sair. Onu da xüsusi qeyd etmək lazımdır ki, ölkə rəhbərlərinin xoş münasibəti də əlaqələrimizin yüksək səviyyədə davam etməsinə şərait yaradır. Bu baxımdan İsraildə Azərbaycan səfirliyinin fəaliyyətə başlamasının proseslərə ciddi töhfə verəcəyi şübhə doğurmur".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Reallıq, yoxsa növbəti realiti-şou?

## Süni intellekt bu dəfə Donald Trampın həbsi ilə bağlı fotolar hazırladı

Ekstravaqant həyat tərzi və açıq ünsiyyəti ilə məşhurlaşmış ABŞ-nin sabiq prezidenti Donald Tramp bu günlərdə yenidən dünyanın diqqət mərkəzində yer almağı bacarıb. Keçmiş prezident həbs olunacağını gözlədiyini bildirib və buna görə də tərəfdarlarını nümayişə çağırıb.



*Şəkillər süni intellekt vasitəsilə yaradılıb*

Bunun ardınca internetdə Trampın polis tərəfindən "güc həbsi" ilə bağlı saxta şəkillər peyda olub. Yerli medianın xəbərinə görə, şəbəkədə yayılmış fotomontajlardakı görüntülərin bəziləri süni intellekt vasitəsilə yaradılıb.

Biznesmen və siyasi xadim, mediamaqnat, yazıçı, "Trump Organization" tikinti konqlomeratının prezidenti, qumar oyunları və hotel biznesində ixtisaslaşan "Trump Entertainment Resorts" şirkətinin yaradıcısı Donald Tramp 2017 - 2021- ci illərdə ABŞ-nin 45-ci prezidenti olub. 1996-2015-ci illərdə "Dünya gözəli" müsabiqəsinin sahibi olub və bir sıra filmlərdə və televiziya seriallarında epizodik rollarda çəkilib. Donald Tramp icraçı prodüser kimi də özünü sınayıb və on ildən cox bir müddətdə NBC telekanalında "Namizəd" realiti-şousunda aparıcılıq edib.

Co Baydenin sələfi 2016-cı il seçkilərindən bir müddət əvvəl keçmiş aktrisa Stormi Danielsi "susdurmaqda" şübhəli bilinir. Əsl adı Stefani Klifford olan qadın iddia edir ki, o, 2006-cı ildə Trampla on ay yaxın münasibətdə olub və bu barədə susduğuna görə ondan xeyli məbləğdə pul alıb. Amerika prezidenti üçün belə bir ittiham tarixi və görünməmiş bir hadisə ola bilər.

### Tramp ABŞ-nin cinayət məsuliyyətinə cəlb edilən ilk eks-prezidenti ola bilər

Trampın özü Danielslə münasibətdə olduğunu inkar edir, lakin həbs olunacağını gözlədiyini deyib. CNN telekanalının xəbərinə görə, keçmiş prezident tərəfdarlarını nümayişə çağırdıqdan sonra Nyu Yorkun və Vaşinqtonun polis qüvvələri həyəcan təbili çalıb. Belə ki, 2021-ci il yanvarın 6-da Vaşinqtondakı ABŞ Kapitolisində baş vermiş xoşagəlməz hadisələrə bənzər növbəti zorakılıq qorxuları yenidən gündəmə gəlib.

Jurnalist Eliot Higginsin dediyinə əsasən, Tramp süni intellektdən istifadə edərək saxta şəkillər yaradıb və həmin fotoları tviter hesabında yerləşdirib.

ABŞ-nin keçmiş lideri həqiqətən də ötən həftə həbs olunacağından qorxurdu. Bu barədə onun vəkili Co Takopina NBC telekanalına müsahibəsində bildirib. Onun sözlərinə görə, bu cür qorxuya səbəb Nyu Yorkdakı rayon prokurorluğundan sızmalar olub. Məsələn, məxfi xidmətin əməkdaşlarının Nyu York Polis Departamentinin nümayəndələri ilə eks-prezidentin martın 22-də məhkəməyə gətirilməsinin logistikası ilə bağlı görüşünün olacağı barədə məlumatlar yayılıb.

Ümumiyyətlə, Tacopinanın da qeyd etdiyi kimi, müvəkkilinin həbsi ilə bağlı çoxlu şayiələr olub və Tramp bu sızmalara əsaslanaraq həbsin baş verəcəyini güman edib. Vəkilin dediyinə görə, o, həqiqətən, heç bir şey uydurmayıb və həbs olunmaq istəmir.

Dünyaşöhrətli sahibkar İlon Mask isə proqnozlaşdırıb ki, Donald Trampın ictimaiyyət arasında əlləri qandallı görünməsi onun növbəti prezident seçkilərində qələbəsini təmin edəcək. Cəmiyyətin əhəmiyyətli hissəsinin hazırkı hökumətin keçmiş Amerika liderini əsassız olaraq təqib etdiyinə inandığı bir şəraitdə Trampın tamaşaya məhəbbətlə hazırladığı "Mən məhbusam" televiziya layihəsi istər-istəməz ona böyük siyasi və maliyyə dividendləri gətirəcək. Eyni zamanda bu layihə ikinci müddətə prezidentliyə namizəd olmaq planlarını açıqlayan hazırkı dövlət başçısı Co Baydenin ambisiyalarını boğacaq.

Bununla belə, Tramp "qurbanlıq quzu" rolunu oynamağa meyilli deyil. Əksinə, o, Bayden komandasını ifşa etmək üçün özünə qarşı hücumlardan bəhrələnməkdən həzz alır. Ağ evin nəzarətində olan prokurorların Trampı parlamentə hücumla nəticələnən, Kapitoli yaxınlığında iğtişaşlar təşkil etməkdə təqsirləndirmək və "məxfi" qrifli sənədləri özündə saxladığına görə onu cəzalandırmaq cəhdlərinin uğursuzluğu buna bariz nümunədir. Bu ittihamlar qalmaqallı eks-prezidentin hüquqşünaslar komandası tərəfindən puça çevrilib və onun populyarlığını daha da artırıb.

### Sabiq prezidentə qarşı ittiham irəli sürüləcəkmi?

Trampla münasibəti barədə susduğuna görə 130 min dollar aldığı iddia edilən aktrisaya rüşvət vermək ittihamı ilə Trampı həbsə göndərmək cəhdi, görünür, Bayden ətrafının respublikaçı namizədi seçkidən kənarda saxlamaq üçün son şansıdır. Məhkəmənin Trampın ən yüksək dövlət vəzifəsinə namizədliyini qadağan etmək hüququ var. Hazırlanmış həbs realiti-şousunun bəlkə də ən təhlükəli nəticəsi budur. İşlər planauyğun getmədiyi təqdirdə, Tramp, hər ehtimala qarşı, əvvəlcədən tərəfdarlarından etiraz aksiyalarına çıxmalarını istəyib.

Ekspertlər, hakimiyyət eks-prezidenti həbsə göndərməyə cəsarət edərsə, hadisələrin belə inkişafını böyük ehtimal edirlər. Heç kim vətəndaş müharibəsinə çağırmasa da, Tramp tərəfdarları mövcud qanunsuzluğa dözmək istəmirlər. Onlar əmindirlər ki, Ağ evin indiki sahibi nəinki son seçkiləri saxtalaşdırıb, o, həm də açıqlanmayan sosial müqaviləni pozub - məğlub olan rəqibin təqibini davam edib və ölkəni polis dövlətinə çevirib.

Stormi Danielsə ödəniş faktı pozuntu olmasa da, Trampın vəkili 130 min dolları məhkəmə xərcləri kimi sənədləşdirib və bu, artıq maliyyə sənədlərinin saxtalaşdırılması, yəni cinayət kimi qiymətləndirilə bilər.

Trampa qarşı ittihamların irəli sürülməsi ilə bağlı qərar vermək Manhetten rayonunun prokuroru Elvin Breqqin səlahiyyətindədir. Məhz o, cinayət işinin açılması üçün kifayət qədər əsasların olub-olmadığını öyrənmək məqsədilə xüsusi böyük münsiflər heyətini çağırıb və həbs qərarının verilib-verilməyəcəyini, habelə veriləcəyi təqdirdə bunun hansı tarixdə olacağını ancaq özü bilir.

Trampın vəkilləri bildiriblər ki, eks-prezidentə böyük münsiflər heyəti qarşısına çıxmaq imkanı verilib ki, bu da istintaqın yekunlaşmaq üzrə olduğuna işarə sayıla bilər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hayastan şərtləri yerinə yetirməyə məcbur edilir

## Xarici havadarlarına güvənərək ölkəmizə qarşı yenə də ərazi iddiaları qaldırmaları haylara baha başa gələ bilər

**"Əfsuslar olsun ki, bu gün İkinci Qarabağ müharibəsinin ibrət dərsi Ermənistana hələ ki dərs olmayıb. Çünki biz görürük ki, Ermənistanda revanşist qüvvələr baş qaldırıblar. Ermənistanda yenə də Azərbaycana qarşı, Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları qaldırılır".**



Martın 18-də Tərtər rayonunun Talış kəndindən Azərbaycan xalqının Novruz bayramını təbrik edən Prezident İlham Əliyev həm də Qarabağ torpağından Hayastana və onun xarici himayədarlarına çirkin əməllərindən çəkinmələri üçün xəbərdarlıq etdi. Müzəffər Ali Baş Komandan işğalçıları məğlubiyyətə uğradaraq azad etdiyimiz Talış kəndindən bir daha qətiyyətlə bəyan etdi ki, Azərbaycan dövlətinin, xalqının iradəsinə heç bir kənar qüvvə təsir edə bilməz.

### Azərbaycan sülhün tərəfdarıdır

Azərbaycan Vətən müharibəsində Hayastanı məğlub edərək torpaqlarının az qala 30 illik işğalına son qoyaraq BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməni özü icra edib.

Vətən müharibəsinə qədər ötən otuz il ərzində Azərbaycan işğalla bağlı reallıqları bütün beynəlxalq təşkilatlara çatdırmış, eyni zamanda məsələnin sülh yolu ilə həllinə çalışmışdı. Amma heç bir beynəlxalq qurum Hayastana Azərbaycan torpaqlarının işğalından əl çəkməsi ilə bağlı hansısa təzyiq göstərmədi. Qarabağ münaqişəsi ilə məşğul olmuş vasitəçilər də üç onillik ərzində yalnız məsələni dondurmaq üçün səy göstəriblər. Buna görə də Azərbaycan Qarabağ münaqişəsini hərb meydanında həll edərək ədaləti güc yolu ilə təmin etdi.

Eyni zamanda ölkəmiz döyüş meydanında qalib tərəf olmasına baxmayaraq, yüksək humanizm nümayiş etdirərək qarşı tərəfə təkmil sülh modeli təklif edib. Azərbaycanın sülh razılaşması üçün irəli sürdüyü ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanan beş əsas prinsipi isə həm də Hayastanın özünü sürüklədiyi uçurumdan, fəlakətdən xilas olması kimi dəyərləndirilə bilər.

Bakı bölgədə davamlı sülhə nail olunması üçün konstruktivlik göstərərək 10 noyabr üçtərəfli Bəyanatı ilə üzərinə götürdüyü bütün öhdəlikləri layiqincə və vaxtından əvvəl yerinə yetirib. Laçın yolunun deyiləndən daha qısa müddət ərzində tikilib istifadəyə verilməsi buna bariz nümunədir.

Lakin 44 günlük müharibənin üzərindən keçən iki il yarımlıq vaxt ərzində Hayastanın heç də sülh bağlamaq niyyətində olmadığını, əksinə, torpaqlarımıza qarşı yenidən işğal siyasəti yürütmək kimi çirkin iştahaya düşdüyünü müşahidə edirik. Müharibədəki biabırçı məğlubiyyətindən dərs çıxarmayan Hayastanın ölkəmizə qarşı davamlı təcavüz aktları və təxribatlar törətməsinin şahidi oluruq.

Xüsusilə də Fransa və İran kimi riyakar himayədarlarına olan güvən, eləcə də ölkəmizin icazəsi olmadan Avropa İttifaqının məramı sülh olmayan missiyasının sərhədimizə gəlişi Hayastanı sülhə xələl gətirəcək təxribatlara, revanşa cürətləndirir.

Elə bu ay ərzində Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti olaraq yerləşdiyi Azərbaycan ərazilərində Hayastanın törətdiyi növbəti təxribatları da bunun əyani göstəricisidir.

Belə ki, martın 5-də Xankəndi-Xəlfəli-Turşsu yolunda, ayın 20-də isə Zəngilan rayonu istiqamətində Hayastanın törətdiyi təxribatlar nəticəsində Azərbaycan hərbçilərinin şəhid olması və yaralanması rəsmi İrəvanın sülhə qəsdən əngəl olmaq üçün təxribatlar törətdiyini təsdiqləyir.

Ümumiyyətlə, Hayastan iki ildən çox zaman ötməsinə baxmayaraq, hələ də 10 noyabr üçtərəfli Bəyanatı ilə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyib.

Erməni silahlı qüvvələrinin qalıqları hələ də Azərbaycan ərazilərindən çıxarılmayıb, bölgədə bütün nəqliyyat-kommunikasiya yollarının açılmasına maneçilik törədilib. Hayastan Laçın yolundan həm hərbi təxribatlar, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə edib.

Lakin ötən il dekabrın 12-dən azərbaycanlı ekofəalların Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi rayonunda sərvətlərimizin qeyri-qanuni istismarına qarşı Laçın-Xankəndi yolunda keçirdikləri dinc aksiya Hayastanın təxribat əməllərinin də yolunu kəsib.

### Qeyri-qanuni fəaliyyətin qarşısı alınıb

"Qozbeli qəbir düzəldər" deyiblər, erməni xislətini də dəyişdirmək mümkün deyil və onlar necə olur-olsun öz çirkin əməllərini hansısa bir yol tapıb törətməyə çalışırlar. Belə ki, bölgəyə gəlmiş Avropa İttifaqının "sülhməramlı" missiyasının varlığından daha da cuşa gələn haylar son dövrlər Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Hayastan silahlı qüvvələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasını intensivləşdiriblər. Son bir neçə gündə isə Xankəndi-Xəlfəli-Turşsu və bu marşrutdan şimalda keçən Xankəndi-Kosalar-Mirzələr-Turşsu yollarında ermənilər tərəfindən qeyri-qanuni yol tikinti işlərinin aparılması müvafiq müşahidə vasitələri ilə qeydə alınıb.

Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, martın 25-də Azərbaycan Ordusunun bölmələri Laçın yolunun şimalında torpaq yollarından qeyri-qanuni fəaliyyətlər üçün istifadənin, eləcə də Ermənistan tərəfindən Azərbaycanın ərazilərinə silah-sursat daşımaqla vəziyyətin daha da gərginləşməsinin və potensial təxribatların törədilməsinin qarşısını almaq məqsədilə müvafiq nəzarət tədbirləri həyata keçiriblər.

Hayastanın törətdiyi bu hərbi cinayət əməlləri Azərbaycan-Ermənistan arasında sərhəd nəzarət-buraxılış rejiminin tətbiq edilməsinin vacibliyini bir daha sübut edir.

Hayların ölkəmizə qarşı həyata keçirdiyi bütün bu təxribat əməlləri Rusiya sülhməramlılarının gözləri qarşısında həyata keçirilib və onlar tərəfindən bu təxribatların qarşısının alınması üçün heç bir addım atılmayıb...

Görünən odur ki, Hayastan Azərbaycana qarşı işğalçılıq siyasətini hələ də davam etdirir və heç bir vəchlə sülh bağlamaq niyyətində deyil. Həmçinin də təcavüzkar Hayastana havadarlıq edən qüvvələr Cənubi Qafqazda sülhün təmin olunmasında maraqlı deyillər.

Amma Azərbaycan necə ki Vətən müharibəsində öz torpaqlarını güc yolu ilə cəmi 44 günə işğaldan azad etdi, postmüharibə dövründə də öz milli maraqlarını qətiyyətlə təmin edir. İstər sülh, istərsə də yenidən güc yolu ilə.

Qarabağda, Talış kəndində bayram tonqalı alovlandıraraq bu torpaqların əbədi sahiblərinin qayıtdığı mesajını dünyaya çatdıran Müzəffər Ali Baş Komandan İlham Əliyev deyir: "İşğal reallıqları, müharibə reallıqları, postmüharibə reallıqları sülh danışıqlarında öz əksini tapmalıdır və tapacaq. Əks təqdirdə heç bir sülh müqaviləsi olmayacaq. Ermənistana lazım deyilsə, bizə də lazım deyil. Ondan sonra görək, baxaq bunun axırı nə olacaq?!"

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Qərbi Azərbaycan İcması UNESCO-nun baş direktoru Odri Azuleyə məktub ünvanlayıb

**Qərbi Azərbaycan İcması UNESCO-nun baş direktoru Odri Azuleyə məktub göndərib.**

AZƏRTAC xəbər verir ki, icmanın rəhbər heyətinin, Qərbi Azərbaycandan olan ziyalıların, mədəniyyət və incəsənət xadimlərinin, şair və yazıçıların imzaladığı müraciətdə bildirilir:

"Ermənistanda Azərbaycan mədəni irsinin dağıdılmasından dərindən narahat olaraq və Azərbaycan ictimaiyyətinin UNESCO-ya əvvəlki müraciətlərini təkrarlayaraq, Ermənistandakı azərbaycanlı mədəni irsinin vəziyyətinin monitorinqi üçün faktaraşdırıcı missiya göndərməyinizi bir daha xahiş edirik.

1989-cu ildə yaradılmış təşkilatımız indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hüquqlarının müdafiəsi ilə məşğul olur.

Azərbaycanlılar bir vaxtlar mütləq əksəriyyəti təşkil etdikləri Ermənistandan tamamilə qovulublar. Onların indiki Ermənistan ərazisindəki tarixi və mədəni irsi, o cümlədən məscidləri və qəbiristanlıqları kütləvi miqyasda dağıdılıb.

Ermənistan hökuməti azərbaycanlı maddi və qeyri-maddi mədəni irsini bilavasitə hərəkətləri ilə və azərbaycanlılara qarşı etnik ayrı-seçkiliyi təşviq edən təbliğat aparmaqla dağıdıb və ya ona zərər vurub. Dağıntı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən əvvəl, onun zamanı və ondan sonrakı dövrdə baş verib. Ermənistandakı azərbaycanlı mədəni irsinin demək olar ki, hamısı hərbi əməliyyatların təsiri olmadan, əvvəlcədən planlaşdırılmış şəkildə məhv edilib. Başqa sözlə, Azərbaycan mədəni irsinin məhv edilməsinin hərəkətverici qüvvəsi Ermənistan hökumətinin monoetnik və təkmədəniyyətli məkanın yaradılmasına yönəlmiş sistematik irqi ayrı-seçkilik siyasəti olmuşdur və təəssüf ki, bu mənfur hədəfləri reallığa çevrilmişdir.

Ermənistanın azərbaycanlıların mədəni irsinə qarşı törətdiyi qanunsuzluqlara irs nümunələrinin mənimsənilməsi və təhrif edilməsi də daxildir. Ermənistanda salamat qalmış yeganə məscid olan paytaxt İrəvandakı Göy məscid qəsdən yanlış şəkildə "fars məscidi" kimi təqdim edilir. Əslində, məscidi inşa edən və əsrlər boyu orada ibadət edənlər o vaxt şəhərdə mütləq əksəriyyəti təşkil etmiş azərbaycanlılar olublar.

Ermənistan hökuməti orada Azərbaycan mədəniyyətinin son izlərini silməkdə davam edir. İrəvan şəhərinin Təpəbaşı məhəlləsi şəhərin tarixi mərkəzinin bu günə qədər gəlib çatmış yeganə parçasıdır. Bu məhəllə XVII əsrdən bu günə qədər İrəvanın tarixi yaddaşını özündə saxlayır. Tarixən azərbaycanlıların məskunlaşdığı Təpəbaşı məhəlləsi indi məhv olmaq təhlükəsi altındadır. Ermənistan hakimiyyət orqanları məhəlləni tamamilə sökmək üzrədir.

Ermənistanın ayrı-seçkilik və etnik təmizlik siyasəti Azərbaycanın qeyri-maddi mədəni irsinə də dağıdıcı təsir göstərmişdir. Məsələn, Ermənistanın Göyçə mahalında azərbaycanlılara qarşı apardığı etnik təmizləmə UNESCO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilmiş Azərbaycan aşıq sənətinin dayağı olan Göyçə aşıq məktəbinə sağalmaz yara vurmuşdur. Ermənistan hökuməti hətta Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin doğma Göyçədəki abidəsini və məzarını nümayişkaranə şəkildə dağıtmışdır.

Ermənistan tərəfindən azərbaycanlı mədəni irsinin dağıdılması və zədələnməsi bizim mədəni hüquqlarımızı, xüsusən mədəni irslə təmasda olmaq və ondan istifadə etmək hüququmuzu pozur. Bu hüququn pozulması sabitliyə, ictimai birliyə və mədəni kimliyə təhlükə yaradır və regional təhlükəsizliyi ağırlaşdıran amil olaraq dialoq, sülh və barışığa ciddi maneə törədir.

Biz Ermənistandan qovulmuş azərbaycanlıların Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində və Ümumdünya İnsan Hüquqları Bəyannaməsində tanınan hüquq və əsas azadlıqlara uyğun olaraq sülh yolu ilə təhlükəsiz şəkildə və ləyaqətlə öz evlərinə qayıtmaları, qayıtdıqdan sonra kollektiv və fərdi hüquqlarının təmin edilməsi uğrunda mübarizə aparırıq. Bu, digər məsələlərlə yanaşı, Ermənistandan oradakı azərbaycanlı mədəni irsinin və mülkiyyətinin bərpası, mühafizəsi və saxlanması ilə bağlı beynəlxalq hüquq çərçivəsində öhdəliklərini yerinə yetirməsini tələb edir.

Mədəni irsin qorunması təkcə beynəlxalq humanitar hüququn deyil, həm də Ümumdünya İnsan Hüquqları Bəyannaməsində qəbul edilən əsas hüquqların təmin edilməsindən irəli gələn tələbdir. Mədəni irsdən bəhrələnmək qovulmuş insanların ləyaqətlə qayıtması yanaşmasının əsas elementlərindəndir. Mədəni hüquqların, yəni bütün müxtəlifliyi ilə insan yaradıcılığının və onun həyata keçirilməsi, inkişaf etdirilməsi, əlçatan edilməsi, qorunub saxlanılması və mühafizəsi üçün şəraitin təmin edilməsi bizim əsas hüquqlarımızın ayrılmaz bir hissəsidir.

Ermənistan bizim qayıdışımızdan əvvəl, qayıdış dövründə və sonra bu hüququmuzu təmin etmək üçün öhdəlik daşıyır.

Bütün bunları nəzərə alaraq, biz mədəni irsimizin bərpası və qorunmasında UNESCO-nun dəstəyini xahiş edirik. Bu ölkədəki azərbaycanlı mədəni irsinin vəziyyətini, habelə mədəni irsin və mədəni hüquqların qorunması ilə bağlı Ermənistanın beynəlxalq öhdəliklərinə necə əməl etməsini qiymətləndirmək üçün bu ölkəyə faktaraşdırıcı missiyanın göndərilməsi bütövlükdə bəşəriyyətin mədəni irsinə dəyən zərərin aradan qaldırılmasına və bununla da davamlı sülhün əldə edilməsinə əvəzsiz töhfə olardı.

Təşkilatımız Ermənistanda azərbaycanlı mədəni irsinin qiymətləndirilməsi, bərpası, saxlanılması və mühafizəsi, Ermənistandan qovulmuş azərbaycanlıların öz mədəni irsindən istifadə etməyə dair mədəni hüquqlarının təmin edilməsi istiqamətində fəaliyyətlərin həyata keçirilməsində UNESCO ilə əməkdaşlığa hazırdır".

Qeyd edək ki, müraciətin surəti BMT-nin İnsan Hüquqları Şurasının sədri Vatslav Baleke və BMT-nin mədəni hüquqlar sahəsində xüsusi məruzəçisi xanım Aleksandra Xantakiyə göndərilib.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin aprel ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu

## CƏDVƏLİ

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Naftalan** | Naftalan, Gəncə, Mingəçevir, Yevlax, Göygöl, Samux, Goranboy, Xocalı | **04** |
| 2. | **Baş prokuror** Kamran Əliyev | **Ağcabədi** | Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, Xocavənd, Laçın | **07** |
| 3. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Şamaxı** | Şamaxı, Ağsu, Qobustan | **07** |
| 4. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Göygöl** | Göygöl, Daşkəsən | **07** |
| 5. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **10** |
| 6. | **Ədliyyə naziri** Fikrət Məmmədov | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli | **11** |
| 7. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Masallı** | Masallı, Yardımlı | **11** |
| 8. | **Kənd təsərrüfatı naziri** İnam Kərimov | **Hacıqabul** | Hacıqabul, Şirvan | **13** |
| 9. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Arzu Rəhimov | **Lənkəran** | Lənkəran, Astara, Lerik, Masallı, Cəlilabad, Yardımlı | **13** |
| 10. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Balakən** | Balakən, Zaqatala | **13** |
| 11. | **Energetika naziri** Pərviz Şahbazov | **Şamaxı** | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan | **14** |
| 12. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Kürdəmir** | Kürdəmir, Hacıqabul | **14** |
| 13. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Mingəçevir** | Mingəçevir, Yevlax | **14** |
| 14. | **"Azərsu" ASC-nin sədrinin səlahiyyətlərini icra edən** Köçərli Həsənov | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **14** |
| 15. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli, Beyləqan, Füzuli, Xocavənd | **19** |
| 16. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Quba** | Quba, Qusar | **19** |
| 17. | **Ali Məhkəmənin sədrinin müavini** Çingiz Əsgərov | **Oğuz** | Oğuz, Şəki | **20** |
| 18. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Sumqayıt** | Sumqayıt, Qubadlı | **20** |
| 19. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Göyçay** | Göyçay, Ağdaş | **20** |
| 20. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | **Şəki** | Şəki, Oğuz, Qəbələ | **25** |
| 21. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **İsmayıllı** | İsmayıllı, Qəbələ | **25** |
| 22. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Oğuz** | Oğuz, Qəbələ | **28** |
| 23. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Qusar** | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən | **28** |
| 24. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Sumqayıt** | Sumqayıt, Abşeron | **28** |
| 25. | **Mədəniyyət naziri vəzifəsini müvəqqəti icra edən** Adil Kərimli | **Qobustan** | Qobustan, Şamaxı, Ağsu | **28** |
| 26. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Beyləqan** | Beyləqan, Füzuli, Xocavənd | **28** |
| 27. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Göygöl** | Göygöl, Naftalan, Daşkəsən, Goranboy, Xocalı | **28** |
| 28. | **Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri** Zaur Mikayılov | **Tovuz** | Tovuz, Ağstafa, Qazax | **28** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# REGİONLAR

## Heydər Əliyevin azərbaycançılıq məfkurəsi tanınmış tərtərliləri bir araya gətirdi

**Tərtərdə əslən bu rayondan olan tanınmış ziyalıların və elm xadimlərinin iştirakı ilə "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda elmi-praktiki konfrans keçirilib.**

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Tərtər şəhərindəki abidəsini və Şəhidlər Abidə Kompleksini ziyarət ediblər. Konfrans rayon icra hakimiyyətinin akt zalında davam edib. RİH-in başçısı Müstəqim Məmmədov qeyd edib ki, azərbaycançılıq təkcə ölkəmizdə yaşayan etnik azərbaycanlıları və ya etnik xalqları deyil, eyni zamanda harada yaşamasından və hansı ölkə vətəndaşı olmasından asılı olmayaraq, bütün azərbaycanlıların və qeyri-azərbaycanlıların milli-mənəvi dəyərlərini ifadə edən bir məfkurədir. Ümummilli Lider, görkəmli ictimai-siyasi xadim Heydər Əliyev deyirdi: "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır".




Natiq daha sonra vurğulayıb ki, sovet dövründə azərbaycançılıq ideyası əsasən xalqın yaddaşında, o cümlədən milli adət-ənənələrdə, bədii əsərlərdə yaşamış və təbii ki, dövlət ideologiyasına çevrilə bilməmişdir. Lakin bir faktı unutmamalıyıq ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə - 1970-1980-ci illərdə azərbaycançılığın inkişafına əlverişli ictimai-siyasi, elmi və mədəni-mənəvi şərait yaradılmışdır: "Ulu Öndərin ölkəmizə rəhbərliyinin birinci dövründə respublikamızda Azərbaycan dilinin əhəmiyyəti artmış və ana dilinə olan diqqət və qayğı, eləcə də dövlət qurumlarında azərbaycanlıların yüksək vəzifələrə gətirilməsi halları çoxalmışdır".

M.Məmmədov daha sonra 1993-cü ildən Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışı ilə bütün Azərbaycan vətəndaşlarının, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkənin istiqlaliyyətini dəstəkləyən insanların vahid dövlətçilik ətrafında birləşdirilməsi üçün ciddi iş aparıldı: "Cəmiyyətdə hakim olan istiqlal arzusu, azərbaycançılığın müstəqil dövlətin bütün əhalisinin ali ideologiyasına çevrilməsi, ümummilli birliyin təmin olunması zərurəti tezliklə ictimai-siyasi və elmi-mədəni dairələrin gündəliyinə çıxarıldı. Bunun ardınca Azərbaycan dilinin rəsmi dövlət dili statusu alması və latın qrafikasının tətbiqi, milli-mənəvi dəyərlərin qorunması, inkişafı və azərbaycançılıq ideyaları ilə birgə bütün dünyada yaşayan həmvətənlərimiz arasında geniş yayılması, dekabrın 31-nin hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi və bu münasibətlə xarici ölkələrdə yaşayan soydaşlarımızın iştirakı ilə təşkil olunan toplantılar, xarici səfərlər zamanı Heydər Əliyevin həmvətənlərimizlə keçirdiyi görüşlər və s. azərbaycançılıq ideologiyasının dövlət siyasəti səviyyəsinə qaldırılmasının bariz nümunələri oldu".

"Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" Bu ifadələrin Ümummilli Liderin milli-mənəvi dünyasını, vətəndaş mövqeyini və varlığını göstərən, öz milli köklərinə bağlılığını sübut edən tarixi bir bəyanat olduğunu deyən natiq Ulu Öndərdən başqa bir sitat gətirib: "Biz elə bir nəsil yetişdirməliyik ki, o, öz dövlətini sevsin, onu qorumağı, yaşatmağı və bütün dünyada layiqincə təmsil etməyi bacarsın. Gənc nəsil öz milli adət-ənənələrinə sadiq olmalı, ana dilini, milli mədəniyyətimizi dərindən öyrənməli, eyni zamanda bəşəri dəyərləri mənimsəməlidir". Sonra da M.Məmmədov fikrini bu sözlərlə tamamlayıb: "Bəli, belə bir nəsil yetişdi və həmin nəsil Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etdi".

Konfransda Milli Məclisin deputatı Sahib Alıyev "Heydər Əliyev və Azərbaycan Parlamenti", akademik Vaqif Abbasov "Heydər Əliyev və neft strategiyası", Xalq şairi Vahid Əziz "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı", ehtiyatda olan polkovnik-leytenant, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl "Heydər Əliyev - türk məfkurəsi və Azərbaycanın təhlükəsizliyi", tarix elmləri doktoru, Əməkdar müəllim Vəkil Həsənov "Heydər Əliyev və Azərbaycanda ictimai-siyasi vəziyyət", filologiya üzrə fəlsəfə doktoru İlahə Əliyeva "Heydər Əliyevin dil siyasəti", həkim, şəhid bacısı, Birinci Qarabağ müharibəsi veteranı Məhəbbət Paşayeva "Heydər Əliyev və Azərbaycan səhiyyəsi" və başqaları müxtəlif mövzularla çıxış ediblər. Çıxışlarda bir fikir vurğulanıb: bu gün çəkinmədən və inamla söyləmək olar ki, Heydər Əliyev müasir azərbaycançılıq ideologiyasının - dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan milli təlimin banisidir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Talış kənd məktəbində ilk dərs keçilib



**Tərtər rayonunun Talış kənd tam orta məktəbində ilk dərs günü ilə bağlı mərasim keçirilib.**

Mərasimdə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin təmsilçiləri Seymur Məmmədov, Şamxal Muxtarov, Qarabağ Regional Təhsil İdarəsinin müdiri Gündüz Əbdülov, kənd sakinləri iştirak ediblər. AZƏRTAC xəbər verir ki, mərasim iştirakçıları əvvəlcə məktəbdə yaradılmış şəraitlə tanış olublar. Bildirilib ki, məktəb 78 şagird yerlikdir. İkimərtəbəli binanın dam örtüyü tamamilə yenilənib, kommunikasiya sistemləri yenidən qurulub. Bina yanğın əleyhinə siqnalizasiya, rabitə, videomüşahidə sistemləri ilə təchiz edilib. Məktəbdə 8 sinif, tibb və müəllimlər otağı, akt zalı və kitabxana yerləşir. Məktəbin həyətyanı ərazisində süni ot örtüklü futbol və idman meydançaları yaradılıb. Hazırda təhsil müəssisəsində 24 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə isə 16 müəllim məşğul olur.

Daha sonra məktəbəqədər təhsil müəssisəsində yaradılmış şəraitlə tanışlıq olub. Məlumat verilib ki, uşaq bağçasının birmərtəbəli binası da əsaslı təmir edilib. Bütün kommunikasiya sistemləri yenidən qurulub və bina yanğın əleyhinə siqnalizasiya, rabitə, videomüşahidə və fövqəladə hal xəbərverici sistemləri ilə təchiz edilib. Həyətyanı ərazidə uşaqlar üçün rezin örtüklü oyun meydançası və iki söhbətgah inşa olunub.

## Kənd məktəbində peşə də öyrədilir

**Vaqo kənd tam orta məktəbində "Peşə Təmayüllü Siniflərin Təşkili" və "İcmaəsaslı məktəbəqədər təhsil" layihələri həyata keçirilir.**

Yeri gəlmişkən, qeyd edək ki, məktəb Elm və Təhsil Nazirliyinin IV qrant müsabiqəsinin təhsildə inkişaf və innovasiyalar üzrə qalibi olmuşdur.

Hazırda "Peşə təmayüllü siniflərin təşkili" layihəsi çərçivəsində təhsil alan şagirdlər dərzi, çilingər, aşpaz, mebel quraşdırma ustası köməkçiləri peşələrinə yiyələnirlər. Bu günlər onların əl işlərindən ibarət məhsulların sərgi-satış yarmarkası keçirilmişdir. Onu da bildirək ki, layihələrin həyata keçirilməsi Elm və Təhsil Nazirliyi tərəfindən mütəmadi olaraq nəzarətdə saxlanılır. Hətta bu məqsədlə nazirliyin məktəbdə koordinatoru fəaliyyət göstərir.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## "Şahdağ" yay mövsümünə hazırlaşır



**Qusar rayonunda yerləşən "Şahdağ" Turizm Mərkəzi bu ayın əvvəlindən 9 minə yaxın turist qəbul edib. Kompleksin tabeliyində olan hotellərin xidmətlərindən ümumilikdə 3400-ə yaxın şəxs istifadə edib.**

Novruz bayramı münasibətilə elan olunan qeyri-iş günlərində istirahət kompleksində dincələnlər arasında xeyli əcnəbi olsa da, qonaqların əksəriyyəti yerli turistlərdir. Əcnəbi qonaqlar arasında Yaxın Şərq, MDB ölkələri, Hindistan, Pakistan və Avropa ölkələrindən olanlar daha çox idi.

Mart ayında havaların isti keçməsi səbəbindən "Şahdağ"da qış mövsümü nisbətən erkən başa çatıb. Xizək zolaqlarının və qış əyləncə növlərinin fəaliyyəti dayandırılıb. Hazırda kompleks ərazisində yay mövsümünə hazırlıq işlərinə start verilib. Burada turistlərin istirahətlərini xoş və maraqlı keçirmələri üçün ziplayn, kvadrosıkl, paintbol, offroad turlar, Şahdağ koster, dağ velosipedi, hiking, bobkart və digər yay əyləncə növlərində xidmət göstərilir. Eyni zamanda yay mövsümünə qədər sifarişli əsaslarla piyadalar üçün 3 nömrəli kanat xətti fəaliyyətini davam etdirəcək. Yay fəslində isə 1 və 5 nömrəli qandolla xətti də əlavə olunaraq, qonaqların ixtiyarına veriləcək.

Mərkəzin ərazisində yüksəksəviyyəli 5 hotel fəaliyyət göstərir. Hotellər təkcə qonaqlama xidməti ilə deyil, eyni zamanda 20-yə yaxın iaşə obyekti (restoran, kafe və bar), sağlamlıq və fitnes mərkəzi, SPA xidməti, xizəklərin icarəsi və satışı məntəqəsi, uşaq bağçası, konfrans zalı və s. kimi xidmətlərlə də qonaqların ixtiyarındadır.

## 65 kənd qonaq evi yaradılıb

**"Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı" layihəsi çərçivəsində Dağlıq Şirvan, Quba-Xaçmaz, Lənkəran-Astara və Şəki-Zaqatala iqtisadi rayonlarında 65 kənd qonaq evi yaradılıb.**



Bu barədə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov deyib. O bildirib ki, KOBİA və tərəfdaşların dəstəyi ilə icra olunan layihə regionlarda sahibkarlığı təşviq edir.

## Səmərəli və qənaətlə

### Yaranmış su qıtlığından yalnız bu yolla xilas olmaq mümkündür

**"Ocağımız yanar, sularımız axar olsun" diləyi ulularımızın dilindən heç vaxt əskik olmayıb. Bəzən bu sözlərin dərinliyinə varmamışıq, hətta onların gəlişi gözəl olduğu üçün deyildiyini düşünmüşük. Lakin od kimi su da həyat üçün həmişə vacib olub. Həlli son dərəcə zəruri olan, ölüm-dirim məsələsini həll edən nədənsə danışanda onun nə qədər gərəkliyini "hava və su kimi" deyərək bildiririk.**

"Bu su haqqı" andı da dilimizə böyüklərimizdən keçib. Nənəmiz suya: "Səndən gözəl nemət varmı?" söyləyəndə təəccüblənərdik. Uşaq idik, fikirləşərdik ki, gözəl nemətin dadı-tamı olmazmı, sudur da... Nənəmiz isə suya şükür etməkdə, dualar oxumaqda idi. Təəssüf ki, bütün bunların hikmətini gec dərk etdik.

Bu gün zaman qarşımızda həmin məsələni kəskin şəkildə qoyub. Bütün dünyada su ehtiyatlarının qorunması ən önəmli problemlərdən biri kimi gündəmdədir. Məsələ bilavasitə bizə - ölkəmizə də aiddir. Bu səbəbdən də Prezident İlham Əliyev su ehtiyatlarından planlı, optimal və səmərəli şəkildə istifadənin təmin edilməsini və su təsərrüfatında yaranmış problemlərin həllini hökumət qarşısında ən ciddi vəzifələrdən biri kimi qoyub. Belə ki, iqlim dəyişir, əsasən qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatları azalır. Digər tərəfdən, əhalinin sayı artır, ölkə iqtisadiyyatı, o cümlədən kənd təsərrüfatı inkişaf edir, əkin sahələri, suvarma və içməli su təchizatı üzrə şəbəkələr genişləndirilir. Son nəticədə su təhlükəsizliyi məsələsi ən aktual mövzulardan birinə çevrilib.

Cari il martın 17-də Baş nazir Əli Əsədovun Nazirlər Kabinetinin 2022-ci ildə fəaliyyətinə dair Milli Məclis qarşısında hesabatında da bu məsələ önəmli yer alıb.

Xatırladaq ki, hələ 2020-ci il iyulun 23-də Prezident İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilmişdi. Həmin müşavirədə qeyd edilmişdi ki, həyata keçirilən infrastruktur layihələri sırasında içməli su və meliorasiya layihələri öz yerini tapıb. "Regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramı"nın qəbul edildiyi 2004-cü ildə Azərbaycanda içməli su ilə təminat 40 faiz səviyyəsində idi. Bakı şəhərində içməli suyu davamlı şəkildə əhalinin 29 faizi alırdı. Regionlarda isə əhalinin içməli su ilə əhatə dairəsi cəmi 9 faiz təşkil edirdi. Bu rəqəmlərin hər birinin dəfələrlə artması isə, əslində, tarixi nailiyyətdir və bu ilk növbədə insanların sağlamlığı, iqtisadiyyatın, kənd təsərrüfatının inkişafı üçün edilib. Bu baxımdan Oğuz-Qəbələ-Bakı su kəməri xüsusi əhəmiyyət kəsb edir. Kəmər paytaxtımıza böyük həcmdə təmiz içməli su çatdırır. Vurğulayaq ki, su resurslarımızın böyük hissəsi ölkədən kənarda formalaşır. Oğuz-Qəbələ-Bakı su kəməri isə sırf yerli mənbə üzərində inşa edilmiş önəmli bir xətdir.

Həmçinin suvarma suyu ilə bağlı genişmiqyaslı işlər görülüb. Su tutumu kifayət qədər böyük - 270 milyon kubmetr olan Taxtakörpü su anbarı tikilib. Buradan eləcə də Ceyranbatan su anbarına qədər yeni beton kanalı inşa edilib. Taxtakörpü su anbarının xüsusi əhəmiyyəti ondadır ki, Samur çayının suları orada yığılır, təbii yollarla təmizlənir və beləliklə, yeni bir rezervuardan Ceyranbatan anbarına su gəlir. Bu su hövzəsi Bakının içməli su ilə təmin edilməsində birmənalı olaraq əhəmiyyətlidir. Eyni zamanda Şabran, Siyəzən, Xızı rayonlarında suvarılan əkin sahələrini böyük dərəcədə artırıb. Təqribən 30 min hektar suvarılmayan torpaqlara su verilir və indi həmin torpaqlarda geniş kənd təsərrüfatı işləri görülür.



Bu gün Şəmkirçay su anbarı da su resurslarımızın yığılmasında və bölüşdürülməsində xüsusi rol oynayır. Bu anbarın su tutumu 165 milyon kubmetrdir və qərb zonasının bir neçə rayonu bu imkandan faydalanır, orada əkin sahələri genişləndirilir. Paralel olaraq son illərdə Tovuzçay və cənub zonasında yerləşən Göytəpə su anbarları da inşa edilib.

Dövlət başçısı bütün bunlarla yanaşı, həm də görüləsi işlərin çox olduğunu diqqətə çatdırmışdı. Quraqlığın və bəzi hallarda aidiyyəti qurumların laqeyd münasibəti nəticəsində ciddi problemlər yarandığını bildirmişdi: "Biz kənd təsərrüfatımızı intensiv yollarla inkişaf etdirməliyik və buna nail olmaq üçün kifayət qədər su mənbələrimiz olmalıdır və bu var... Biz suyu itiririk. Beləliklə, o, əkin sahəsinə, insanların evinə çatmır, əksinə, torpaqlara ziyan vurur. Bizim indi ən çox əməktutumlu sahələr taxılçılıq və pambıqçılıqdır. Pambıqçılıq, ümumiyyətlə, su olmadan inkişaf edə bilməz. Pambıqçılıqda təqribən 200-300 min adam işləyir, öz ailə büdcəsini təmin edir. Biz müasir texnologiyaların, o cümlədən müasir suvarma sistemlərinin mövcud olduğu taxılçılıq təsərrüfatlarında hər hektardan təqribən 70-80 sentner buğda alırıq. Bu, inkişaf etmiş ölkələrin səviyyəsindədir. Yəni, bu, dünyada ən yüksək səviyyədir, bundan yüksək səviyyə yoxdur. Əgər su olmasa, biz buna nail ola bilərikmi? Biz indi taxılçılıqda müasir texnologiyaların tətbiq edilməsi ilə mövcud əkin sahələrində, bəlkə də, bir qədər az əkin sahələrində daha çox məhsul istehsal edə bilərik, idxaldan daha az asılı ola bilərik. Su həm həyatdır, həm inkişafdır, həm təhlükəsizlikdir. Ona görə bu məsələlərə laqeyd yanaşmaq olmaz".

Qarşıda duran mühüm məsələlərin həlli üçün Prezidentin sərəncamı ilə 2020-ci ildə su ehtiyatlarından səmərəli istifadə üzrə komissiya da yaradıldı. Bu komissiya su ehtiyatlarından istifadəyə gündəlik rejimdə monitorinq və nəzarəti həyata keçirir. Eyni zamanda yanacaq-enerji balansı ilə yanaşı, ilk dəfə olaraq su təsərrüfatı balansı formalaşdırılıb. Bu balans çərçivəsində su ehtiyatlarının formalaşması üzrə dəyərləndirmələr aparılır. Görülmüş işlər nəticəsində su ehtiyatlarından səmərəli istifadə, azalan su həcmlərinə qənaət artıb. Belə ki, əsas su anbarlarında suyun həcmi bu il yanvarın 1-i tarixinə 12,5 milyard kubmetr təşkil edib. Bu, 2022-ci illə müqayisədə 600 milyon kubmetr, 2020-2021-ci illərlə müqayisədə 2 milyard kubmetrdən çoxdur.

Bu fakt və rəqəmlər Nazirlər Kabinetinin 2022-ci ildə fəaliyyətinə dair hesabatında da öz əksini tapıb. Eyni zamanda bildirilib ki, mövcud infrastrukturun yaxşılaşdırılması, su itkilərinin minimuma endirilməsi, su sahəsində fəaliyyət göstərən qurumlarda institusional, struktur islahatlarının aparılması, müvafiq qanunvericilik və normativ-hüquqi aktların təkmilləşdirilməsi istiqamətində lazımi tədbirlər görülür.

Qeyri-ixtiyari illər əvvəl şahidi olduğumuz olaylar yada düşür. Gələcəkdə aqronom olacaq qiyabiçi tələbə Mehman suya qənaətlə bağlı ətrafdakılarla əsl mücadiləyə çıxmışdı. O zaman bu gəncin yaşadığı rayon mərkəzindəki küçəyə bir neçə su kranı çəkilmişdi və onlardan gecə-gündüz fasiləsiz olaraq su axırdı. Mehman tez-tez kranları bağlayır və qonşulara az qala yalvarırdı ki, istifadə etmədikləri halda suyun boş-boşuna axmasına imkan verməsinlər. Evdə isə o, anası və bacıları ilə mübarizəyə qalxmışdı:" Güllərə, ağaclara bu qədər su lazım deyil axı! Hovuzdan da su aşıb daşır. Bu neməti niyə israf edirsiniz? Haradasa ona təşnə olanlar var. Tarlalara, zəmilərə su lazımdır, su!"

Sözün düzü, o vaxt Mehmanı heç də hamı düzgün başa düşmürdü. Hətta onun psixoloji durumuna şübhə edənlər də vardı...

Bu gün, nəhayət, sözügedən problemə məhz belə bir yanaşma gərəkdir. Suya qənaət etmək çox vacibdir - hava kimi, suyun özü kimi!.. Bütün bunlar Nazirlər Kabinetinin hesabatında ciddiliyi ilə vurğulanıb: "Əsas çağırış sudan maksimum səmərəli və qənaətlə istifadə etməkdir. Bu, bütün su istehlakçılarına aiddir. Su sərvətdir və onu qorumaq hər birimizin borcudur".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Bizim Aqil Abbas

**Dünyanın "yalan günü" - 1 apreldə (1953-cü ildə) təvəllüd tapan Aqil Məhəmməd oğlu Abbas yetmiş ildə çox maraqlı ömür yolu keçib. Sevincli, kədərli, qəmli, qələbəli, uğurlu anlar… Bunlar hamısı bir insan ömrünün artıq arxada qalan izləridir. Təəssüf ki, onun tərcümeyi-halında ancaq rəsmi məqamlar qeyd olunur: filan vaxtı ali məktəbə daxil olub, filan vaxtı oranı bitirib, sonra müəllim işləyib, sonra hansı jurnaldasa əməkdaşlıq edib, sonra isə… Milli Məclisə deputat seçilib. Təbii ki, bütün bu olmuşlar-keçmişlər Aqil Abbasın tərcümeyi-halında da öz əksini tapıb. Amma Aqil Abbas yazıçıdır, ədibdir və mənim fikrimcə, yazıçının əsl tərcümeyi-halı onun bədii əsərləridir, bu əsərlərdə yazıçının həyatının rəsmi tərcümeyi-hala sığmayan məqamları ilə rastlaşırsan.**



Ədəbiyyata gələnlərin, demək olar ki, doxsan beş faizi (mən bunu təxmini söyləyirəm) yaradıcılığa şeirlə başlayır. Aqil Abbas da bu "ənənəyə" sadiq qalıb, onun yetmişinci illərin əvvəllərində mətbuatda çap olunan bir-iki şeirini mən də oxumuşam və deyim ki, həmin şeirlər heç də zəif deyildi. Və Aqil Abbas o yolu davam etdirsəydi, bu gün biz istedadlı bir şairin yetmiş yaşını təbrik edərdik. Amma Aqil Abbas o yolla getmədi, "Şirinlik" adlı ilk hekayəsini çap etdirəndən sonra yolunu müəyyənləşdirə bildi: bu dünyanı, həyatı, gerçəkliyi, insanlar aləmini nəsr ahəngiylə, təhkiyə yolu ilə, təsvirlə əks etdirmək idi və 45 ildən artıqdır ki, Aqil Abbas o yolla uğurla irəliləyir. Onun publisistikası ilə nəsri arasında sıx bağlılıq var və əslində, NASİR AQİL ABBAS elə PUBLİSİST AQİL ABBASDIR, yaxud da əksinə…

Yazıçı Aqil Abbas əslən qarabağlıdır, yəni dəqiq desəm, ağcabədilidir (hərçənd çoxları onu ağdamlı kimi tanıyır). Bunun, əlbəttə, bizim söhbətə dəxli var: A.Abbas Zərdabda da, Ağsuda da, Qubada da doğula bilərdi, təbii ki, yenə də bir yazıçı kimi şöhrətlənərdi. Amma o zaman nə "Evləri köndələn yar", nə "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz", nə də "Dolu" kimi əsərlər yaranardı. Çünki bu adlarını çəkdiyim əsərlər sırf QARABAĞ ŞİKƏSTƏSİ üzərində köklənib və Aqilin bu əsərlərində Qarabağ koloriti, Qarabağ dərdi və Qarabağa böyük sevgilər öz ifadəsini tapıb və nə qədər subyektiv səslənsə də qoy deyim: Qarabağ dərdini və Qarabağla bağlı koloriti Aqil Abbas qədərində çox az yazıçı belə doluluqla ifadə edə bilərdi.

Bədii olan, yaşamağa qadir hər bir sözün, mətnin arxasında ŞƏXSİYYƏT durur. Bu şəxsiyyətlərin varlığıdır ki, ədəbiyyat yaranır və həmin şəxsiyyətlər olmasa, mənəviyyat aləmi də çat verər. Aqil Abbas da müasir ədəbiyyatımızda belə şəxsiyyətlərdən biridir. Bu gün çox mürəkkəb və təzadlı bir zəmanədə - Azərbaycan cəmiyyətində Aqil Abbasın öz yeri və mövqeyi var. O, ədəbiyyata yetmişinci illərin əvvəllərində gəlib, indi bu nəslin bir çox nümayəndələri nəsrdə, poeziyada aparıcı şəxslərdir.

Doxsanıncı illər başlananda Aqil Abbas artıq gənc yazıçı mərhələsini başa vururdu, istedadlı bir yazıçı kimi tanınırdı, hətta o zaman dəbdə olan, sözün həqiqi mənasında, hər bir yazarın həsrətlisi olduğu Respublika Komsomolu laureatı adını qazanmaq da ona nəsib olmuşdu.

Aqil Abbasın ilk yazılarında böyük bir səmimiyyət duyulurdu və bu səmimiyyət ondan irəli gəlirdi ki, o, həyatın, gerçəkliyin olaylarını qələmə alırdı, yalan yazmırdı. Ən başlıcası, özünün və yaşıdlarının romantika ilə dolu gənclik duyğularını qələmə alırdı. Aqil Abbas o zaman öz nadir və son dərəcə parlaq istedadı ilə artıq məşhurlaşmağa başlayan Qədir Rüstəmovun həyatından bir povest yazdı. Çünki "bu səs adilikdən başlayıb qeyri-adiliyə qalxırdı. Elə qeyri-adiliyə ki, kamança da, qarmon da o zirvəyə qalxa bilmirdilər, qalxa bilməzdilər".



Doxsanıncı illər Azərbaycanın ictimai, siyasi, mənəvi həyatında yeni bir dövrün başlanması ilə xarakterizə olunur. Dəyişilən zəmanə, ictimai quruluş və sistem yeni insan və qəhrəman tipini yaratmalıydı və proses bir qədər çətin və mürəkkəb başa gəlsə də, hər halda öz axarını tapdı. Aqil Abbas bu mənada müstəqillik dövrünün bütün atributlarını özündə əks etdirən ilk yazıçılardan oldu. Əgər belə demək mümkünsə, AQİL ABBAS doxsanıncı illərə qədərki ROMANTİK HƏYAT AXARINI dəyişdi, sırf realist, özü də SƏRT REALİZM yolunu tutdu. Doxsanıncı ildən təsis etdiyi və uzun müddət baş redaktor olduğu "Ədalət" qəzeti həm məzmununa görə, həm də qəzetçilik prinsiplərinə görə müstəqillik dövrünün mahiyyətini "Molla Nəsrəddin" jurnalı ənənələrinin davamı idi.

Öncə qeyd etdik ki, Aqilin yazılarında Qarabağ koloriti çox güclüdür (dil faktorundan tutmuş adət-ənənələrin təsvirinə qədər), amma bu, məhdud məhəlləçilik səviyyəsinə enmir. O, Qarabağı bütün tarixi keçmişi və müasirliyi ilə azərbaycanlaşdıran yazıçıdır. Bəli, Aqili Qarabağsız təsəvvür etmək mümkün deyil və doxsanıncı illərin o ağır günlərində Aqili Bakıda yox, cəbhə bölgələrində, Qarabağın kəndlərində, döyüşçülər və yaralılar arasında axtarıb tapa bilərdin.

Aqil Abbas "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz", "Dolu" və "Allahı qatil edənlər" kimi ədəbiyyat tariximizdə yaşaya biləcək əsərlərin müəllifidir və mən deyərdim ki, yazıçı Aqil Abbasın sənət tərcümeyi-halının ən şərəfli, ən qürurlu məqamları elə bu əsərlərlə bağlıdır.



ifadə edən ilk qəzetlərdən biri oldu. Bu qəzet, sözün həqiqi mənasında, Aqil Abbasın özünə oxşayırdı: sözü ironiya, məzə, yumor və satirik çalarlarla ifadə etmək Aqil Abbasın publisistikasında aydın nəzərə çarpırdı və bu manera qəzetdəki yazılara da sirayət edirdi. Bir sözlə, qəzet də onun özünə oxşayırdı. Və beləcə, "Ədalət" deyəndə Aqil Abbas, Aqil Abbas deyəndə "Ədalət" yada düşürdü. Aqilin o dövrdəki "Köşə yazılar"ı, sözün həqiqi mənasında, böyük Mirzə Cəlilin,

"Çadırda Üzeyir Hacıbəyov doğula bilməz" povestini Aqil Abbasın o zaman "Qarabağı necə xilas etmək olar?" sualına cavab hesab etmək olar. O, povestin girişində yazır: *"Elə dərdlər var ki, onu yazmaq üçün qüdrətli bir qələm sahibi olmalısan. Və bu dərdi içimdən keçən kimi yazmağa qüdrətim çata bilən qədər yazdım"*.

Aqil Abbas təvazökarlıq edib, çünki povest, bizim fikrimizcə, doğrudan da, sənətkarlıqla qələmə alınıb və onun hər səhifəsində yanan ürəyin çırpıntıları eşidilir. Aqil Abbas ilk yazıçılardandır ki, Qarabağ müharibəsi haqqında birtərəfli, səthi, yanlış təsəvvürləri aradan qaldırır. O, "Qarabağı necə xilas etmək olar?" sualına cavab verərkən igid bir sərkərdənin, yaxud qəhrəman bir döyüşçünün həyat yolunu və taleyini deyil, müharibənin bütün ağırlığını, dəhşətini yaşayan adi bir insanın taleyini əks etdirməklə buna nail olur. Məllim adlandırdığı bu adam başdan-ayağa dərd içində olsa da, təpədən-dırnağa qeyrət mücəssəməsidir. O, tanıdığı yollarla Malıbəyli və oradan da Stepanakertə tərəf yollanır, onun evini yandıran Aşotu axtarıb tapır, qumbaranı işə salır. Özü də həlak olur. Müəllif qayəsini də elə əsərin bu ümumi ruhunda axtarmaq lazımdır. Yəni müəllif demək istəyir ki, Qarabağı o zaman xilas etmək olar ki, minlərlə, on minlərlə, yüz minlərlə azərbaycanlının fikri Məllim kimi eyni hədəfə vursun: MÜQƏDDƏS QİSAS HİSSİ onları çulğasın.

Aqil Abbasın "Dolu" romanına gəldikdə isə… bu əsər son iyirmi ildə



nəsrimizdə Qarabağ mövzusuna həsr olunan ən sanballı əsərlərdən biridir, - desək, qətiyyən səhv etmərik. "Dolu"nu ədəbiyyatımızın yeni "Qarabağnaməsi" hesab edən professor Nizami Cəfərov yazır: "Qarabağ müharibəsi ilə bağlı bu günə qədər oxuduğum və say etibarilə çox olmayan əsərlərin içərisində mən "Dolu" romanı qədər, həqiqətən, dolu və əhatəli əsər oxumamışam. Mənim zənnimcə, bu ilk növbədə onunla bağlıdır ki, Aqil Abbas, ümumiyyətlə, Qarabağ bölgəsinin ictimai-siyasi, sosial, coğrafi mühitini çox gözəl bilir, insanları yaxşı tanıyır, onların nəyə qadir olduğundan xəbəri var".

"Dolu" romanının bədii film şəklində meydana çıxması da tamamilə təbii və qanunauyğundur. Əslində, Aqil Abbas əsərlərinin bədii film kimi yaranmasında çox gecikib. Elə "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz" gözəl bir filmə çevrilə bilərdi.

Aqil Abbas o yazıçılardandır ki həqiqəti yalanla bəzəyib oxucuya sırımır, əksinə, bütün yalanların üstündən keçib əsl həqiqəti ortaya qoyur. Aqilin "Allahı qatil edənlər" romanında da əsas qəhrəman GERÇƏKLİYİN ÖZÜDÜR, amansız həqiqətlərdir. Bu əsərində A.Abbas bir romançı kimi bir qədər də formalaşır, qabağa gedir.

Əslində, "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz", "Dolu" və "Allahı qatil edənlər" əsərlərini trilogiya hesab etmək olar. Üçüncü əsərdə əvvəlki iki əsərdəki hadisələrin məntiqi davamı gəlir. Müəllif diqqəti müharibəyə və onun törətdiyi faciələrə deyil, bu faciələrin dinc və sakit dövrdəki fəsadlarına, mənəvi bəlalarına yönəldir. Məlum olur ki, doğrudan da, müharibə davam edir - özü də daxildə, insanların bu müharibəyə müxtəlif münasibətində. Orduda baş verən hərc-mərcliklər, xaos və müsibətlər müəllifi daha çox məşğul edir. Xaos və hərc-mərclik olan yerdə böyük vətənpərvər olmaq mümkün deyilmiş! İçərimizdəki bəla və müsibətlərdən xilas olmalıyıq! Bunsuz müharibə udulmaz!

Bu üç nəsr əsərinin məntiqi davamı Aqilin "Ölülər" pyesidir. Çox təəssüf ki, bu əsər haqqında gerçək sözü az eşitdik. Mirzə Cəlilin məşhur "Ölülər" əsərinin süjetini, oradakı məlum vaqiəni yeni variantda işləyən Aqil Abbas müasir dövrün həqiqətlərini qələmə alıb. Mirzə Cəlilin "Ölülər"ində Şeyx Nəsrullahın "marşrutu" Xorasandan başlamışdı və bir müsəlman kəndini seçmişdi ki, avam camaatın başını piyləsin, onları cənnət və cəhənnəm haqqında cəfəng xülyalarına inandırsın, hər gecə azyaşlı bir qız uşağını siğə etsin.

Aqilin "Ölülər"ində cənab Tasye Fransadan gəlib, çadır şəhərciyinə yol alıb ki, ATƏT adından sadəlövh qaçqınları inandırsın ki, Avropanın güclü dövlətləri Azərbaycanın Qarabağ dərdinə şərikdir.



Mirzə Cəlil "Ölülər"də mənəvi ölülüyü hədəf seçmişdi. İnsanların kütləvi inamına üsyan edən ədib eybəcərliyin doğurduğu kədəri, müsibəti açıb göstərirdi. Aqil Abbas da öz böyük sələfinin işini davam etdirir.

Mirzə Cəlilin "Ölülər"ində olduğu kimi, cənab Tasye də yalanlarının üstünün açılacağını görüb qaçır. Və İskəndərin sarsıdıcı monoloqu bu dəfə daha gur səslənir: *"Siz bunların ayağının altında qurbanlar kəsməklə, ciblərini doldurmaqla elə bilirsiniz ATƏT-in lotuları Qarabağı ermənilərdən alıb verəcəklər sizə?! ATƏT-in boş-boş sözlərinə nə vaxta qədər inanacaqsınız? Hərəniz əlinizə bir çomaq götürüb ermənilərin üstünə getsəniz, erməni İrəvanacan qaçar!"*

Yetmiş yaş. Qırx il əvvəl qapqara saçlı Aqil Məhəmməd oğlu Abbasov indi saçları ağappaq Aqil Abbas görkəmindədir. Qırx beş il əvvəl ilk şeirləri, hekayələri ilə redaksiyaların qapısına utana-utana, sıxıla-sıxıla gəlib çıxan Aqil indi özü nüfuzlu bir qəzetin təsisçisidir və istedadlı cavanlara qayğısını əsirgəmir. Qırx beş il əvvəl Aqilin gəzib-dolaşdığı mühit ancaq özü yaşda cavan ədiblərin mühitiydi. Amma həyat yolunu ağılla, səbirlə, təmkinlə keçən Aqil Abbas xalqın sevimlisinə çevrildi, müstəqillik dövrünün fəal ziyalılarından biri kimi diqqəti cəlb etdi və indi onun Milli Məclisdə bir deputat kimi fəaliyyəti tamamilə qanuni və ədalətlidir.

Aqil Abbas həmişə Ümummilli Liderimiz Heydər Əliyevin siyasi kursunu dəstəkləmiş, onun azərbaycançılıq ideyalarına sadiq qalmışdır, deyərdim ki, Heydər Əliyev məktəbinin yetirmələrindən biridir.

Bu ağsaçlı ədibə cansağlığı, könül xoşluğu və yeni yaradıcılıq uğurları arzulayırıq…

***Vaqif YUSİFLİ,***
***filologiya elmləri doktoru, professor***



# Tarixin yadigarı - Məmmədbəyli türbəsi

Qədim abidələr yurdun, məmləkətin tarixinin nişanələridir. Eyni zamanda o yerlərdə müxtəlif dövrlərdə yaşamış əhalinin həyatı, düşüncələri, inancı və adət-ənənələrindən soraq verir. Azərbaycanın qədim abidələrlə zəngin yurdlarından biri olan Zəngilan rayonunun Məmmədbəyli kəndindəki türbə də bu mənada dəyərlidir.

Araşdırmaçılar səkkizguşəli prizmadan ibarət olan Məmmədbəyli türbəsi barədə ilkin məlumatın 1940-cı illərdə rus tarixçisi İvan Şeblıkinin verdiyini qeyd ediblər. İ.Şeblıkin Araz və Həkəri çaylarının hövzəsindəki abidələri - Füzuli rayonundakı Mir Əli, Qubadlı rayonundakı Dəmirçilər kəndi yaxınlığındakı türbəni və başqa abidələri qeyd edib. Onların təsvirini verib. Ancaq memarlıq quruluşu cəhətdən həmin türbələrdən fərqlənən Məmmədbəyli türbəsinin təsvirini olduğu kimi verməyib.

1975-ci ildə ilk dəfə yeraltı sahə təmizlənib, türbənin sərdabəsi üzə çıxarılıb. Türbənin qapı yerindən yuxarı qövsvari çatılmış bütöv daş üzərində həkk olunmuş kitabəsi maraqlı və orijinaldır. Aradan keçən zaman ona təsir göstərsə də, bəzi yerlərdə daş sınıb töküldüyü üçün xarab olsa da, yazılar pozulsa da, izi qalmış müəmmalı sözlər çətinliklə oxunub, bərpa edilib. Mütəxəssislərin nəsx xətti ilə yazıldığını bildirdikləri, altısətirlik ərəbdilli kitabə oyma üsulunda yazılıb. Dörd sətirdə "Qurani-Kərim"dən ayələr həkk edilib. İki sətirdə türbənin Məhəmməd əl-Hacı oğlu Yəhyanın şərəfinə hicri tarixi ilə 704-cü ildə (miladi 1305-ci il) tikildiyi qeyd olunub. Araşdırmalara görə, kitabədə göstərilən "Əl-Hac" ləqəbi bütün orta əsrlər dövründə dövlət xadimlərinə verilərmiş.

XIV əsrdə İpək yolu üzərində abidələr yaratmış Əli Məcdəddin bu binanın da memarı və bənnasıdır. Kitabənin son iki sətri belə tərcümə olunub: "Mən, bu imarətin sahibi, yəni türbədə dəfn olunmuş Məhəmməd əl-hac oğlu, zəif qul, yüksək Allahın rəhmətinə möhtac, miskin Yəhyayam. Əli Məcd-əd Dinin əli ilə mübarək ramazan ayında yeddi yüz dördüncü il tarixdə bina olundu".

Məlumata görə, Anadoludan Çinə qədər Araz boyu karvan-ticarət yolu olan İpək yolu üzərində, Zəngəzurun Səlim keçidi adlanan yerdə Elxani Əbu Səid dövründə tikilən karvansaranın kitabəsi ilə həmin yol üzərində, Zəngilanın Məmmədbəyli kəndində Yəhya ibn Məhəmməd türbəsinin qapısı üzərində qoyulan kitabə ölçüsü, forması, həkkolunma texnikasına görə eynidir. Səlim keçidi adlanan yerdə tikilmiş karvansaranın kitabəsində də memar Əli Məcdəddinin adı yazılıb. Araşdırmaçıların fikrincə, bu iki abidəyə bənzəyən başqa bir abidəyə Azərbaycanın tarixi ərazisində hələ rast gəlinməyib.

Dövrümüzədək salamat gəlib çatan abidələrdən biri olan Məmmədbəyli türbəsinə otuz ilə yaxın əlimiz yetmədi. Belə ki, abidənin yerləşdiyi ərazi 1993-cü ildə təcavüzkar Ermənistan tərəfindən işğal edildi. Qarabağın və Şərqi Zəngəzurun erməni əsarətində qalan digər yerləri kimi Zəngilanda da onlarca tarixi-dini abidə talan olundu. Məmmədbəyli türbəsi də erməni vandalizminə məruz qaldı. Ermənilər işğal dövründə abidənin müəyyən hissələrində dağıntılar törədiblər.

2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlub etdi. İndi o ərazilərdəki bütün abidələri yaxından görə bilirik. Azərbaycan dövləti geniş tikinti-bərpa və quruculuq işlərini həyata keçirir. Ermənistanın işğalı müddətində Qarabağda və Şərqi Zəngəzurda talan edilən, dağıdılan abidələrin hər biri yenidən bərpa olunur.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



*Azərbaycan və Türkiyənin sarsılmaz dostluğu, qardaşlığı bu gün özünün ən möhtəşəm dövrünü yaşayır. Şad gündə də, dar gündə də bir-birinə hayan olan qardaşların ortaya qoyduqları mövqe dünyaya nümunə kimi göstərilir. Ötən ay Türkiyədə böyük dağıntılara səbəb olan zəlzələdə Azərbaycan xalqının və dövlətinin mütəşəkkilliyi bunun bariz təcəssümü oldu. Hər zamankı kimi Türkiyənin köməyinə çatan ilk ölkə məhz Azərbaycan idi və bu, Türkiyə vətəndaşları tərəfindən də yüksək səviyyədə qiymətləndirildi. Bu faciə növbəti dəfə Azərbaycan-Türkiyə qardaşlığının və dostluğunun sarsılmaz olduğunu sübut etdi. Bu gün də Azərbaycanın hər bir bölgəsində türkiyəli qardaşlarımıza kömək etmək üçün insanlarımız əllərindən gələn köməyi əsirgəmirlər.*
*Bu dəstək martın 26-da xeyriyyə məqsədilə keçirilən "Qarabağ" - "Qalatasaray" matçında növbəti dəfə özünü göstərdi. Çünki bu qarşılaşmadan əldə ediləcək gəlirin zəlzələdən zərərçəkənlərə yönəldiləcəyi barədə razılığa gəlinmişdir.*




# Qardaşlıq qazandı

## "Qarabağ" və "Qalatasaray" yoldaşlıq oyunu azarkeşlərə əsl futbol bayramı yaşatdı

### Prinsipiallıq yox, mübarizə vardı

Xalqımız türkiyəli qardaşlarımızın acısını bölüşür, dərdinə şərik olur, onlara hər cür arxa-dayaq olmağa çalışır. Elə xeyriyyə məqsədi ilə keçirilən matç üçün satışa çıxarılan biletlərin 25 mindən çoxunun cəmi 2 saat ərzində alınması bunun əyani təsdiqi oldu.

Matç günündə isə bu rəqəm 65 min idi. Tarixində ilk dəfə olaraq Bakı Olimpiya Stadionuna bu sayda azarkeş toplaşmışdı.

Matç günü şəhərdə əsl futbol bayramı yaşanırdı. Küçələri Azərbaycan və Türkiyə bayraqları bəzəyirdi. Stadion ətrafında qələbəlik hökm sürürdü.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın stadiona gəlməsi bu qardaşlıq tədbirinin pik nöqtəsi idi.

Hər iki heyətin aparıcı oyunçularının əksəriyyəti milli komandalarda olduğundan əsas heyət üzvlərinin bir çoxu qardaşlıq matçında forma geymədi. "Qarabağ" heyətinə "Zirə"dən və "Şamaxı"dan iki futbolçu dəvət etmişdi. "Qalatasaray"ın start 11-liyində müdafiənin mərkəzində yer alan Kaan Ayxan və Matias Rossun ilk dəfə bu oyunda tandem təşkil etməsi arxa xətdə Ağdam klubu üçün qol epizodları yaradacağı ehtimalını artırmışdı. Matçın əvvəlində standart vəziyyətdən sonra qapısından qol buraxan ağdamlılar mərkəzdə top saxlamaqla rəqibi üzərilərinə çəkməyə çalışdılar. Matçın müəyyən hissələrində hətta buna nail oldular. Məhz belə epizodlardan sonra "Cim-Bom"un heyətində Debuanın kobud səhvindən sonra "Qarabağ" tarazlığı bərpa etdi.

Fasilədən sonra tərəflərin etdikləri dəyişikliklər matçın tempini aşağı salsa da, son dəqiqələrdə "Qalatasaray"lı futbolçuya qarşı edilən kobudluq "Qarabağ"ın qapısına təyin edilən 11 metrlik cərimə zərbəsi ilə nəticələndi. Azarkeşlərin böyük həyəcanla meydana çıxmasını gözləyən argentinalı superulduz Mauro İkardi zərbəni dəqiq yerinə yetirərək İstanbul klubuna qələbə qazandırdı-2:1.






Əslində, xeyriyyə məqsədilə keçirilən qarşılaşmada məğlub olmadı. Prinsipiallıq olmasa da, maraqlı mübarizənin şahidi olduq. Ən əsası isə tribunalarda yaşanan futbol bayramını görməyə dəyərdi.

### "Azərbaycan"ın əməkdaşının şərhləri Türkiyə kanalında gündəm oldu

Türkiyə mediası da bu qarşılaşmaya geniş yer ayırmışdı. Matçdan bir neçə gün öncədən başlayaraq "Qarabağ" - "Qalatasaray" oyunu barədə dostluğu, qardaşlığı tərənnüm edən materiallar dərc olunurdu. Qəzetimizin əməkdaşı Elçin Cəfərov ardıcıl üç gün Türkiyənin ən məşhur televiziya kanallarından "A Spor"a bağlanaraq oyunla bağlı fikirlərini səsləndirirdi. Canlı yayımda şərhlər böyük maraq doğururdu, qardaş ölkənin aparıcı yazılı KİV-ində də dərc olunurdu.

Qarşılaşmanın keçirildiyi gün isə birbaşa stadiondan "CBC Sport" kanalında efirdə gedən "Matça doğru" verilişində komandaların heyətləri üzərindən də təhlillər apararaq, prinsipiallıq olmasa da, maraqlı mübarizənin vacibliyini diqqətə çatdırdı.

Qeyd edək ki, qəzetimizin əməkdaşının aparıcı-eksperti olduğu "CBC Sport" kanalında yayımlanan "Türkiyədən futbol" verilişi qardaş ölkənin idman mediasında geniş işıqlandırılır, orada səslənən fikirlər gündəm mövzusu olur.

Bu arada qarşılaşma Türkiyənin nüfuzlu qəzetlərinin idman səhifələrində də yer alıb. "Sabah"ın "Yaxşı aslan", "Akşam"ın "Qardaşlıq rüzgarı", "Hürriyet"in "Bakıda qardaşlıq şousu" və "Milliyet"in "Qardaşlıq qazandı" başlıqlı xəbərlərində matçın təhlilinə yer verilib, azərbaycanlı azarkeşlərin böyük dəstəyindən bəhs edilib.

### "Dostluğumuz davam edəcək"

Matçdan sonra "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov "Qalatasaray"la keçirdikləri xeyriyyə oyunundan sonra deyib ki, möhtəşəm atmosfer var idi, azarkeşlərimizə təşəkkür edirəm: "Fanatlar üçün baxımlı oyun oldu. Oyundan çox razı qaldım. İşimizə görə çox şey qazandıq. Belə görüşlər həm futbola sevgini çoxaldır, həm də bizə böyük təcrübə verir. Oyunun mahiyyətini bilirdik, yardım məqsədilə keçirilirdi. "Qalatasaray"a uğurlar arzu edirəm. Son vaxtlar böyük işlər görürlər. Qarşıdakı oyunlarda onlara uğurlar arzu edirəm. İstərdim ki, Türkiyə və Azərbaycan çempionatları birləşsin, bir liqamız olsun. Qarşıda iki ölkə klublarının oyunları keçirilə bilər. Bu, bir başlanğıc oldu. Bu cür atmosfer tək Bakıda yox, digər bölgələrdə, hətta Türkiyədə də olar. Futbolumuzun inkişafı üçün belə oyunların daha çox keçirilməsi lazımdır. Bu cür görüşlər futbolu insanlara daha çox sevdirir. Bizim çempionatla onların liqası arasında fərq böyükdür. İstərdim ki, belə görüşlərin sayı çox olsun. Mənim narahatlıq keçirdiyim dostların bir-birinə qarşı oyunlarıdır. Çünki bəzən narazılıqlar olur və bu da futbolun prinsiplərindəndir. Bugünkü oyundan çox razı qaldım. Türkiyə futboluna uğurlar arzu edirəm. Hər zaman bir-birimizin yanındayıq".

"Qalatasaray"ın baş məşqçisi Okan Buruk isə deyib ki, evimizə gəlmiş kimi olduq. Bu stadionda, şəhərdə möhtəşəm qarşılandıq: "Əsas məqsəd Türkiyədə baş verən zəlzələdə zərərçəkənlərə yardım etmək idi. Çox gözəl futbol gecəsi oldu. Hər kəsə təşəkkür edirəm. Xüsusilə "Qarabağ" daha diqqətli və hazır idi. Heyətdə rotasiyalar etmişdik. Bəzi oyunçular şans qazanmırdılar. Qələbə qazandığımız üçün xoşbəxtik. Sizinlə birlikdə olmaqdan daha çox şadıq. Bu, başlanğıc idi. "Qarabağ"la olan dostluğumuz davam edəcək. "Qarabağ" Türkiyəyə gələcək, biz Bakıya. Burada olduğum müddətdə tez-tez belə oyunların keçirilməsini istəyəcəyəm".

Göründüyü kimi, xalqımız türkiyəli qardaşlarımızın acısını bölüşür, dərdinə şərik olur, onlara hər cür arxa-dayaq olmağa çalışır. Bu ağır dönəmdə Azərbaycan dövləti zəlzələnin fəsadlarının aradan qaldırılması üçün qardaş ölkəyə hərtərəfli yardım göstərir.

***Rəhman HƏSƏNOV,***
***"Azərbaycan"***

# Günəş küləyi

## Yer kürəsində hazırda güclü maqnit qasırğası yaşanır

Bir neçə gündür ki, Yer kürəsində yenidən maqnit qasırğası müşahidə edilir. Günəş küləyinin qasırğa şəklində atmosferə daxil olması və maqnit sahəsi ilə qarşılıqlı təsiri nəticəsində əmələ gələn maqnit qasırğaları eko, bio və texnosistemlərə mənfi təsir göstərir.



### Ölkəmizdə də geomaqnit qasırğası müşahidə olunur

Güclü geomaqnit qasırğası Azərbaycanda da müşahidə olunur. Bakı Dövlət Universitetinin Fizika fakültəsinin Astrofizika kafedrasından verilən məlumata görə, hazırda Günəşdə ləkələr müşahidə olunsa da, fəallıq aşağı səviyyədədir. Hər hansı alışma, tac kütlə atılması müşahidə olunmur. Buna baxmayaraq, Günəş küləyi ilə bağlı vəziyyət qeyri-stabildir.

Bunun əsas səbəbi martın 20-21-də "DSCOVR" peyki tərəfindən qeydə alınan tac kütlə atılmasının Yerə yaxınlaşmasıdır. Əldə olunan təsvirlərin təhlili ümumi maqnit sahəsinin aktivləşdiyini göstərir. Bu, kosmik hava şəraitində kifayət qədər güclü təlatümdən xəbər verir. Hesabat dövründə Günəş küləyinin sürəti 450-500 km/san intervalında, maksimal həddi isə 517 km/san olub. Qeyri-stabil vəziyyət Yerin əsasən yuxarı en dairələrində güclü geomaqnit qasırğasına səbəb olub. Ümumilikdə səviyyəsi orta-güclü qiymətləndirilən geomaqnit qasırğası hazırda zəif müşahidə olunur.

### Meteohəssas insanlar üçün risk faktoru

Geomaqnit qasırğaları insan səhhətinə də mənfi təsir göstərir. Kliniki Tibbi Mərkəzin Təcili Təxirəsalınmaz Tibbi Yardım şöbəsinin müdiri Sevinc Tağıyeva deyir ki, bu təbiət hadisəsi təzyiq, şəkər xəstələrini, ürək-damar problemləri olan şəxsləri, habelə yaşlıları, uşaqları və hamilələri daha çox narahat edir: "Bu şəxslər daha diqqətli olmalıdırlar. Maqnit qasırğasının təsirinin ilkin əlamətləri fərqli ola bilər. Başağrısı, təzyiqin oynaması, ürək ağrıları, xəstənin haldan-hala düşməsi, spazmalar, ürək döyüntüləri kimi halların baş verməsi mümkündür".

Həkim-terapevt qeyd edir ki, maqnit qasırğasının təsirləri əsasən bir neçə gün özünü büruzə verir: "Meteohəssas insanlar və risk qrupuna daxil olan şəxslər təbiət hadisəsi ilə bağlı xəbərdarlıq edildikdən sonra müəyyən tədbirlər görməlidirlər. Onlar günəş şüalarının birbaşa təsiri olmayan yerlərdə gəzməli, fiziki və psixoloji yüklənməni azaldaraq fəal istirahətə üstünlük verməli və gün ərzində 2 litrədək maye qəbul etməyə çalışmalıdırlar".

Saatlarla, günlərlə davam edən maqnit qasırğaları həm də qütb parıltısının yaranmasına səbəb olur. Qütb parıltısı günəş küləyinin elektrik yüklü hissəciklərinin Yerin atmosferinin yuxarı hissəsi ilə toqquşması nəticəsində əmələ gəlir. Bu hadisə əsasən qütbətrafı enliklərdə atmosferin yuxarı qatlarından biri olan ionosfer qatında müşahidə edilir. Əmələ gələn geomaqnit qasırğası səbəbindən yuxarı en dairələrində yerləşən ölkələrdə bu əsrarəngiz təbiət hadisəsi baş verir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Ölkənin bəzi yerlərində yağış yağacaq

**Azərbaycanda martın 28-nə gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 7-11° isti, gündüz 16-21° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə havanın arabir yağıntılı olacağı proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 18-23° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 4-8° isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 4-9°, gündüz 17-22° isti olacağı ehtimal edilir.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, səhər tədricən kəsiləcəyi, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 6-11° isti olacağı ehtimalı var.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, yağıntının səhər tədricən kəsiləcəyi, gündüz havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 6-11° isti olacağı gözlənilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 18-23° isti olacağı proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında havanın yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 16-21° isti, dağlarda gecə 1° şaxtadan 4° -dək isti, gündüz 4-8° isti olacağı bildirilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 6-11°, gündüz 18-23° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, gündüz yağıntının tədricən kəsiləcəyi ehtimal edilir. Arabir duman olacaq. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-12°, gündüz 17-22° isti, dağlarda gecə 7-10°, gündüz 14-17° isti olacağı ehtimalı var.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 1 dekabr (Bazar günü) tarixli 53-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 25 səfərülmüzəffər sənə 1337.
1 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrinküncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELAN

Bakı İkinci zəkur [oğlanlar] gimnaziyası cənbində [nəzdində] kamilən milliləşmiş əlifba şöbəsi açılır. Bu şöbəyə daxil olan çocuqlar türkcə təlim alacaqlar. Əhalinin nəzəri-etinası bu milliləşmiş əlifba şöbəsinə cəlb olunaraq, uşaqlarını qeyd etdirəcəklərinə ümid ediriz. Qeyd etdirmək istəyənlər məktəbin dəftərxanasına müraciət edə bilərlər.

*725*

## ELAN

Bununla "Azərbaycan" qəzetəsi idarəsi elan edir ki, həmin qəzetənin intişara [nəşrə] başladığı gündədək Qafqazda türk və rus lisanlarında nəşr edilmiş qəzetə, jurnal, əkslər [fotoşəkillər], tarixi məlumat və Azərbaycan həyat və mədəniyyətində əhəmiyyəti olan asarı [əsərləri] idarəyə təqdim edənlərə gözəl mükafat veriləcəkdir. Arzu edənlər Vorontsovski caddədə 4 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə saat 10-dan 2-yə kimi müraciət etməlidirlər. Telefon nömrə 39-60.

*b/8 5-2*

## ELAN

Bununla ümuma elan olunur ki:

1) Bakı şəhərinə Azərbaycan (sabiq Zaqafqaz) dəmiryolu mövqiflərindən [stansiyalarından], Poylufdan başlamış Bakı şəhərinə, sərbəst ərzaq (taxıl, düyü, göyərti, meyvə və ələfiyyat [yem]) və içki, odun və kömür gətirməyə icazə verilir.

2) Azərbaycan (sabiq Zaqafqaz) dəmiryolunun hamı mövqiflərində, Poylu mövqifi və Bakı arasında bilamümaniət [maneəsiz] nəqliyyat başlanır.

Qeyd: Müvəqqəti olaraq Gəncə mövqifindən taxıl çıxarmaq qadağandır. Həmçinin Bakı mövqifindən isə malı ancaq Ərzaq nazirinin xüsusi şəhadətnamələri ilə çıxarmaq mümkündür. Qalan mövqiflərdə malı qəbul edib göndərməsinə Ərzaq nazirinin icazənaməsi lazım deyil. (Bakı və Gəncə mövqiflərindən siva [başqa]).

*Ərzaq naziri: Yusifbəyov*
*Dəftərxana müdiri: Luçinski*
*b/9 2-2*

## BAKI, 1 KANUNİ-ƏVVƏL [DEKABR]

Məlum olduğu üzrə, Gürcüstan Hökumətinin təşəbbüsü ilə Tiflis şəhərində ümum [bütün] Qafqaz hökumətləri nümayəndələrinin konfransı təyin olunmuşdur. Əvvəlcə təşrini-saninin [noyabrın] 10-una dəvət edilmiş bu məclis sonra erməni nümayəndələrinin gəlmədiyinə görə, həmin ayın 14-ünə təyin edilmişdi. Lakin erməni nümayəndələri yenə də vaxti-müəyyənədə [təyin edilmiş vaxtda] gəlmədilər. Konfrans təşrini-saninin 20-sinə qoyuldu. Yenə də bir şey çıxmadı. Şimdi isə eşitdiyimizə görə, həmin məclis təkrar təxirə düşmüşdür...

Qafqaz millətlərinin arasında cərəyan edən ixtilaf və münaqişəni rəf edib də [aradan qaldırıb da], onların mənafeyini tətmin [təmin] edə biləcək ümumi bir dil tapmaq niyyətini daşıyan bu məclisə erməni nümayəndələri nə səbəbə gəlməyirlər əcəba?

İş burasındadır ki, həmin məsələ ortalığa atılar-atılmaz Tiflis erməni mətbuatında buna dair müəyyən bədxahanə [bədniyyətli] bir ton müşahidə olunurdu və həmin məclisin yapılmasına "zahiri" və "rəsmi" səbəblər göstərilirdi. Bununla böylə erməni hökuməti "Biz öz nümayəndələrimizi həmin məclisə göndərməyəcəyiz" kəlməsini demirdi. Lakin Gürcüstan Cümhuriyyəti nəzdindəki erməni diplomasi nümayəndəsi Camalyan cənabları hər gün bir bəhanə ilə işi təxirə salırdı.

Dün aldığımız Tiflis gürcü qəzetələrindən, Ararat Cümhuriyyətinin həmin konfransa qarşı etinasız qalmaqlarının səbəbi bəlli olur. "Kavkazskoye slovo" deyirmiş ki, biz həmin məclisdə iştirak edə bilməriz. Çünki indiki Azərbaycan Hökuməti ilə bizim heç bir əlaqəmiz ola bilməz. Bu sözlərdən də və başqa erməni qəzetələrinin hər gün yazdıqları müfəttinanə [fitnəkarca] məqalələrindən anlaşılır ki, Ararat Hökuməti qonşu Azərbaycan Hökumətini bir taqım cinayətkarlar heyəti surəti ilə təlqin edir. Çünki Azərbaycan Hökuməti 30 min nəfər məsum Bakı ermənilərinin qatili imiş...

Bakı zəbt olunduğu günü şəhərdə bir qədər əbəs qan töküldüyü xüsusda biz kərratla [dəfələrlə] izahat vermişik.

Şəhər həmçinin erməni firqəsinin inadlığından dolayı təslim olmaq istəməyib, Türk Ordusu[nun] şəhərə daxil olmağ[ın]a belə baxmayıb, müharibəni davam etdirdi. Böylə bir halda, handa bir müntəzəm qoşun olsun, dinc əhali dəxi bu vəlvələdə xəsarət çəkəcəyi bədihi [açıq] idi. Bu hala əlavə olaraq Mart hadisatında [hadisələrində] müsəlmanlara ermənilər tərəfindən edilən zülmlərdən dolayı mütənəffir [nifrət edən] və qəlbləri yanıqlı əhalinin intiqam hissiyyatı idi. Bu idi ki, nəticədə 30 min deyil, bəlkə bir-iki min nəfər ermənilərdən zərərdidə olan tapıldı. Əlbəttə ki, özbaşlarına böylə hərəkət icra edən həriflər dərhal Hökumət tərəfindən lazımi cəzalarını aldılar. 100-dən ziyadə müsəlmanlar boğazlarından asıldılar və ya qurşuna dizildilər.

İndi bizim hökumətə ilə "ələqədar" olmaq istəməyən erməni hökumət ricalı [hökumət adamları] əcəba İrəvan quberniyasında 200-dən artıq müsəlman kəndini yerlə yeksan edən Drolara və Zəngəzur mahalında 300 kimi müsəlman kəndlərini dağıdıb, neçə minlərcə məsum müsəlmanı qətl və qarət edən Andraniklərə və yaxud Bakıda 7-8 min nəfər məsum müsəlmanları qılıncdan keçirən və Ararat Hökumətinin indiki sədri ilə bir firqə yoldaşı olan Məlik-Yolçuyanlara və Arakelyanlara, Şamaxı və uyezdi islam əhalisini qətliama verən Əmirovlara və Lalayevlərə nə yapdılar, hansı cəza verdilər və yaxud böylə vəhşiyanə hadisata dair heç olmazsa quruca təəssüf izhar etdilərmi [bildirdilərmi] və ya bir bu qədər vəhşilik göstərən firqəyə cəza deyil, bir qədər etiraz belə etdilərmi?

Xeyr, yenə də həmin firqə iş başında əyləşib bildiyini eyləyir və bütün erməni millətini öz həva-vühəvəsinə [öz arzularına, öz kefinə] tabe edir.

İndi sual olunsun görək kimin əli məsum əhalinin qanına bulaşmışdır: bizimmi ya onlarınmı?

## SAMOAPREDELENİYE (Самоопределение)

İctimaiyyatçılardan birisi: "Lisan, daima insanları aldatan bir şeydir. Bir kəlməni müxtəlif ağızlardan eşitdiyiniz zaman həpsinin bu kəlmədən eyni mənanı murad etdiyini zənn etməyiniz" deyir.

Bu qayda sanki rusca "samoapredeleniye" kəlməsi haqqında vəz edilmişdir [meydana qoyulmuşdur]. Hər ağızda bir dürlü mənaya malik olan və bu vaxta qədər mənayi-əslisi [həqiqi mənası] ağıllı-başlı təyin olunmayan bir kəlmə varsa, o da şu yuxarıya yazdığımız rusca "samoapredeleniye" kəlməsidir.

Rusca olan bu kəlmənin yalnız türkcəyə deyil, sair Avropa dillərinə də aydın bir kəlmə ilə vazeh [dəqiq, açıqaydın] tərcüməsi yoxdur. Bu kəlməni sair dillərə tərcümə etmək istərkən, bir cümlə işlətmək lazım gəlir. Bizim qəzetələr bunu "kəndi müqəddəratını təyin etmək" şəklində tərcümə edirlər. Fransızca da təqribən böylə bir cümlə ilə tərcümə olunur. Yalnız lüğəvi mənası deyil, bu kəlmənin ifadə eylədiyi siyasi məfhumu dəxi müşkülatla təyin olunur. Ruscadan başqa bir dilə deyil, ruscanın özündə belə bu kəlimənin mənası bir deyildir. Son zamanlarda hər hangi inqilab və siyasət istilahından [terminlərindən] ən məruf [tanınmış] və məşhuru olan bu rusca kəlmənin müxtəlif rus partiləri [partiyaları] nəzdində müxtəlif mənası vardır. Hər parti bu kəlməyə özünün təhəmmül edə bildiyi [qəbul edə bildiyi; dözə bildiyi] bir mənanı verməkdədir.

Bolşeviklərdən tutaraq, "kadet" firqəsinə qədər hər parti "samoapredeleniye"ni işlədir və son zamanlarda hər kəs onu əsas etibarı ilə qəbul edir. Fəqət bununla bərabər rus firqələrindən heç biri bu kəlməyə "samoapredelit" olacaq [öz müqəddəratını müəyyənləşdirməsi gərəkən] millətlərin anladığı və arzu eylədiyi mənanı verməyir.

Zahiri bəlli, fəqət batini bu qədər ixtilaflı olan bu kəlməni eyi anlamaq üçün bunun nə surətlə Rusiya siyasi istilahları içinə soxulduğunu öyrənəlim:

"Samoapredeleniye" formulu Rusiya firqələrindən "sosial-demokratiya" tərəfindən yaxın bir zamanda qəbul edilmişdir. Rusiya sosial-demokratiyasının ömrü yarım əsr qədər bir tarixə malik ikən, bu kəlmənin siyasət aləmindəki müddəti-həyatı [yaşı, ömrü] 10 sənəni ancaq bulmaqdadır.

Məlum olduğu üzrə sosial-demokratiya, ideal etibarı ilə milliyyət fövqündə və mərkəziyyətçi bir firqədir. Onun şüarı cümlə cahan füqərayi-kasibəsini müttəhid qılmaqdır [bütün dünya proletarlarını birləşdirməkdir]. Bu ittihad [birlik] dəxi onlarca [onların fikrinə görə], sinif mübarizəsinin artması və şiddət eyləməsi nəticəsində hasil ola bilər. Sinif mübarizəsi onlarca əsasdır və bu mübarizəni qaranlıqda buraxan hər ictimai cərəyan onlarca maneyi-tərəqqi [tərəqqiyə mane] və irticai bir cərəyandır. Bu nöqteyinə-zərdən milliyyətpərvərlik onlarca qeyri-qabili-təhəmmüldür [qəbuledilməzdir]. Milliyyət hər nə qədər təhəmmül olunar bir hadisə isə də, tərvic [rəvac verilən] və təşviq olunar bir amil olammaz.

Nəzəriyyə etibarıyla milliyyət qəziyyəsinə [məsələsinə] böylə baxmaqla bərabər, həyat sosial-demokratları da milliyyət məsələsinə bir surəti-həll vermək [həll yolu tapmaq] məcburiyyəti qarşısında bulundurdu. Milliyyət məsələsi, millətin dili, dini, yazısı, mədəniyyəti, kəndi haqq və həyatını təmin etmək istəyirdi. Əmələ [fəhlələr] və demokrasi [xalq] dəxi bu təminat tələbindən fariğ olammayırdı [əl çəkə bilmirdi]. Sosial-demokratiya hər nə qədər milli məktəb, dil və din hürriyyətini digər siyasi hüquq və hürriyyətlərlə bərabər tələb etmək surəti ilə milliyyət məsələsini yumşaltmaq istəyirdisə də, milliyyət bununla qənaət etməyir, daha ziyadə təminat tələb edirdi. Bu təminatı vermədikcə, sosial-demokratiya məhkum millətlərin təvəccöh [rəğbət] və müavinətini [dəstəyini] səmimi bir surətdə qazana bilməyirdi. Sosial-demokratiya burada bir taktik hərəkəti işləməli idi. Bu kimi "tədbirə" o ilk dəfə müraciət etməyirdi. Ərazi məsələsində əsl nəzəriyyə və əsasatına [prinsiplərinə] rəğmən güzəşt edərək Rusiya həyati-xüsusiyyəsinə [xüsusi həyatına] tətbiqlə proqramına ərazi maddələri əlavə etmiş olan bu firqə, milliyyət məsələsini də "samoapredeleniye" kəlməsi ilə həll edir, "milli samoapredeleniye haqqı" deyə proqramına bir maddə əlavə edirdi.

Nə qədər ki siyasi cərəyanlar inkişaf etməmiş, nə qədər ki milliyyət kəndi mətalibini [mətləblərini] eninə-boyuna ərz etmək imkanını hasil etməmişdi, nə qədər ki millətlər ana lisanı ilə tədris etmək haqqını qazanmağı kəndiləri üçün bir neməti-üzma [böyük nemət] kimi tələqqi edirlərdi [qiymətləndirirdilər], o zamanlarda millətin kəndi haqqını təyin etmək haqqında olmasını qayət mübhəm olsa da təslim edən bu maddədən xoşlanacaqları təbii idi.

Milləti-hakiməyə [hakim millətə] mənsub olan sosial-demokratlara gəlincə, onlar "madam ki, böylə mühüm bir kəlmə ilə çarizmə qarşı ifa eylədikləri mübarizədən bütün miləli-məhkumənin [məhkum millətlərin] təvəccöhü qazanılır, varsın proqramda bu maddə də olsun" deyə düşünür, fəqət bu maddənin nə kimi bir mənanı ifadə eylədiyi bir o qədər də aranmayırdı.

Nəzəriyyat etibarı ilə daha fərdçi (individualist) olan sosialist-revolyu-sionerlər isə "samoapredeleniye" məsələsində bir az daha iləri gedərək, Rusiyanın federasyon muxtariyyətlər əsası üzərinə idarə olunmasını tələb edirlərdi. Gərçi bu federasyon, milliyyətdən ziyadə vilayət – ərazi üzərinə istinad edirdi.

Milli sosialist və federalist firqələrincə isə "samoapredeleniye"nin mənası tamamilə başqa idi. Onlarca [onların fikrinə görə], milliyyət bir camiədir [topluluqdur; kütlədir]. Millətin hüquqi-şəxsiyyəsi [şəxsi hüquqları] vardır. Fərdlər millət vasitəsilə dövlətə mərbut [bağlı] olmalı, binaileyh [buna əsasən], Rusiya millətlərin rizası ilə bir hökuməti-müttəfiqə [ittifaq hökuməti] halında təşəkkül etməli idi.

Qurnaz [hiyləgər] bolşeviklər hökuməti zəbt edə bilmək üçün yalnız aşağı siniflərin xoşuna gedə biləcək şüarlar deyil, məhkum millətləri dəxi cəlb edəcək sözlər söylədilər. "Hər millət istərsə Rusiya ilə bərabər qalar, istərsə muxtariyyət alar, istərsə tamamilə ayrılar" dedilər. "Samoapredeleniye"yə bu qədər geniş bir məna verdilər. Gərçi məqsədlərinə erdikdən [çatdıqdan] sonra bu bəyannamələrini geri alıb, sair hürriyyətləri ziri-payi-qəhrlərində [qəhredici ayaqları altında] çardan daha şiddətli tədbirlərlə qəhr etdikləri kimi, millətlərin bu haqqını da qanlı təcavüzləri ilə inkar etdilər.

Kadetlər hər nə qədər zamanın iqtizası [tələbi] ilə bu gün daxili muxtariyyət sözünü dillərinin ucuna gətirirlərsə də, bu ancaq dillərinin ucundadır. Qəlblərində isə yenə həmən "Sentrodom"un "dövlət dili" haqqında Gürcü Şurasına yazdığı məktubda işlətdiyi amirlik [əmr etmə, buyurma] vəziyyəti vardır.

Rusiya menşevikləri də "yedinstva" [birlik] halına gəldilər ki, bu məsələdə həman kadetlərə taydırlar. Sosialist-revolyusionerlərin fikri isə başının həşirinə qalmış bütün millətləri Müttəfiqlərin zoru ilə təkrar bir araya toplayıb nə olduğu anlaşılmayan Ufaya bağlamaqdır.

Bu firqələrdən heç birisi "Rusiya millətlərinin təyini-müqəddəratı Ümumi Sülh Konfransında həll və təyin olunsun" formuluna yanaşmayırlar. Onlar millətlərin hesabına baxacaq bu "məhkəmeyi-kübraya" getmək istəməyirlər. Burada icrayi-təsir edəcək ruhi-hürriyyət [hürriyyət ruhundan, hürriyyət ab-havasından] və hakim bulunacaq vicdani-bəşəriyyətdən qorxurlar. Qorxurlar ki, dünyada uzun bir sülh və səlah [əmin-amanlıq] dövrəsini təsis üçün çağırılan bu məclis "samoapredeleniye" kəlməsini rus firqələri kimi hər yana çəkilər "çək uzandı" halından çıxarıb, həqiqi və sərih [açıq-aydın] bir mənayi-istiqlal ifadə edər formul şəklinə qoyar.

Fəqət bu qorxunu mən qətiyyən anlamam. Rusiyanı Müttəfiqlərə istinadən, onların müavinətinə [köməyinə] güvənərək toplamaq istəyən adamlar, nədən eyni Müttəfiqlərin hakim və nafiz [nüfuz sahibi] bulunacağı bir sülh məhkəməsindən qorxurlar?

Neçin qorxurlar?

Əcəba "samoapredeleniye" təbirindəki [ifadəsindəki] mənanın mübhəm olduğu üçünmü?

*M. Ə. Rəsulzadə*

## MÜHÜM MƏSƏLƏLƏR

Azərbaycan Hökumətinin düşmənləri çoxdur. Türklər gedəndən bəridir ki, onlar dil açıb Hökumətimizi hər yerdə məzəmmət etməyə və töhmətləndirməyə çalışırlar. Bakı şəhərindəki bədxahlarımız bəs deyildir ki, Tiflisdə də rus sosialistlərindən və erməni daşnaklarından ibarət olan bir güruh, – ki amal və arzularının şeytənət [şeytanlıq, fitnəçilik] və xəyanətinə görə "qaragüruh" adlanmasına bihəqqin [həqiqətən] layiq və şayəstədirlər [yaraşırlar] – Hökumətimizin və hətta bütün millətimizin əleyhinə qəzetələri[nin] sütunlarında ağızlarına gələni deyib, Azərbaycan Hökumətinin dağıdılmasını və Azərbaycan türklərinin də Ümumi Qafqaz Konfransına buraxılmamalarını tələb edirlər.

Bu alçaq güruh Bakı haqqında biri-birindən qırmızı yalanlar buraxıb, bir tərəfdən camaatı iğfal [aldadaraq], digər tərəfdən dəxi son dərəcə acı olan buğz [nifrət] və ədavətlərini ibrazla [göstərərək] bir məqama çatıbdırlar ki, həmsayəmiz [bir kölgədə yaşadığımız, qonşularımız] nəcib gürcülər bunların bu payədə olan cinayət və şeytənətlərindən bezar olaraq "Qruziya" qəzetəsinin baş sütununda öz inciklərini [narazılıqlarını] izhar edib müfəttinlərin [fitnəkarların] yalanlarını bir-bir üzlərinə çırpırlar.

Azərbaycan Hökumətinin vəkili Məhəmməd Yusif Cəfərov cənabları dəxi bu qədər söylənən yalanlara və gəda ağzından çıxmağa layiq olan söyüşlərə laqeyd baxa bilməyib, gədalar güruhunun Gürcüstan dövlətində ağızları yumulması xüsusunda gürcü hökumətinə bir ixtar [xəbərdarlıq] verdi.

İçərimizdə və çölümüzdə olan düşmənlərə bu cürəti və bu sitizəliyi [davakarlığı] verən ingilis qoşununun Bakıya vürudu [gəlməsi] səbəb oldu. Zatən alçaq düşmənlər bu ümiddə idilər ki, ingilislər Bakıya gəlib də Azərbaycan Hökumətini qovacaq və əvəzinə onları qoyacaqdırlar. Lakin bu ümid puça çıxdı. İngilis qoşunu gəldi, Azərbaycan Hökumətini yerində saxladı və hətta baş qovzamaq [qaldırmaq] istəyən alçaqların da bir qədər başından basdı. Bunu da elan etdi ki, Ümumi Sülh Konfransı qurulub da millətlərin və əzcümlə [o cümlədən] Qafqaz millətlərinin hüquqi-siyasiyyə və milliyyə [milli və siyasi hüquqları] məsələləri həll olunana qədər bütün Qafqaz – nəinki tək bir Azərbaycan – sülh və asayiş iqası [yaradılması] naminə Müttəfiq dövlətlərin müraqibəsi [nəzarəti] altında olacaqdır.

Ümidləri puça çıxan düşmənlərimizin bu gün Bakıda, Tiflisdə və sair yerlərdə çalışdıqları, vuruşduqları, öldükləri odur ki, çığır-bağır salmaqla, söyüşlə, hiylə və təzvir [iftira] ilə xəbisliklər büruzə verib [alçaqlıq göstərib] Ümumi Sülh Konfransı olana qədər ingilislərin və sair Müttəfiqlərin rəyini Azərbaycan Hökuməti haqqında öz istədikləri tərəfə döndərib, Sülh Konfransında da Azərbaycan türklərinin hər bir hüquqdan məhrum edilmələrinə səbəb olsunlar.

Əlbəttə, bu hiylələrin müqabilində biz Azərbaycan türkləri və bizim Azərbaycan Hökumətimiz laqeyd qalsaq, mat-mat baxıb dursaq və bütün ümidimizi Sülh Konfransına yığılanların insafına və ya lütfü mərhəmətinə bağlasaq, düşmənlərimizin hiylə və təzvirlərində müvəffəq olacaqlarına şübhə edilməməlidir.

Sülh Konfransında hüquq paylamayacaqdırlar ki, biz də "növbətə" durub payımızı gözləyək. Sülh Konfransına yığılan millətlər özlərinin hər bir siyasi və milli hüquqa layiq olduqlarını isbata çalışıb, məhz öz millətləri haqqında deyib danışacaqdırlar. Sülh Konfransı keçən Balkan davası kimi kiçik millətlərin vuruşması nəticəsi deyil, bəlkə Cahan müharibəsinin intac etdiyi [ortaya çıxardığı] əzim [böyük] bir məclis olacaqdır ki, bir tərəfdən aləmşümul [bütün dünyanı əhatə edən] cəngi-məğlubənin [şiddətli, qızğın döyüşün] və digər tərəfdən məmləkətlər sarsıdan böyük-böyük inqilabların hasil və məhsulunu meydana çıxaracaqdır.

Burada kimin xəbəri olacaqdır ki, bizim də yeniyetmə Azərbaycanımızın müstəqil millətlər cərgəsinə girməyə layiq olub-olmadığımızı öz-özlərindən təhqiq və tədqiq etsinlər [araşdırsınlar və meydana çıxarsınlar]. Halbuki bütün böyük dövlətlər də, kiçik dövlətlər də, böyük millətlər də, kiçik millətlər də, hamısı ancaq və genə ancaq öz hüquqlarının təmini və təhsili [əldə edilməsi] haqqında çalışacaqdırlar.

Bu məclisi-kübrada [böyük məclisdə], bu millətlər hüququ bazarında biz də gözə çarpıb məta' [sərmayə] sahibi olmaq istərsək, ümidimizi ancaq öz şüurumuza, öz qabiliyyətimizə, öz çalışmamıza bağlamalıyıq.

Ona görə indidən və məhz indidən işə başlamalıyız. Vaxt azdır, iş çoxdur. Əvvəla içərimizdə və çölümüzdə əleyhimizə iş görən bugünkü düşmənlərimizin bizi Müttəfiqlər qarşısında bədnam və bədşöhrət etmələrinə qarşı bütün qüvvəmizlə müqabil durmalıyıq. Bizi kənd və şəhər dağıtmaqda ittiham edirlərsə, yüzlərcə dağılan kəndlərimizin və şəhərlərimizin hesabını meydana qoymalıyıq. Bizi ev soymaqda və adam öldürməkdə məzəmmət edirlərsə, minlərcə xarab edilmiş xanimanlarımızın və on minlərcə öldürülən adamlarımızın siyahısını lazım olan yerlərinə təqdim etməliyik. Necə ola bilər ki, özgələr bir dənə kəndin (məsələn Mərzi kəndi) bir-iki min manat cərimələnməsi və bir neçə adamın ittifaqən [təsadüfən] öldürülməsi haqqında ingilislərə şikayət edib bu barədə həftələrcə qəzetə sütununda yazsınlar, amma biz yerlə yeksan edilmiş kəndlərimizin, xarab edilmiş şəhərlərimizin, zülm ilə öldürülmüş adamlarımızın haqqında bir söz də söyləməyib kirimiş duraq?!

Düşmənlərimiz heç bir şeylə bizi töhmət edə bilməməlidirlər. Çünki hər nə onlara olubsa, on qat artıq da bizə olubdur. Bunu isbat etmək üçün münsif [ədalətli] və həqgu [doğru söyləyən] şahidlərimizlə bərabər, əlimizdə və göz qabağında öylə müsəlləm [möhkəm] dəlillərimiz var ki, daha düşmənlərimizin öz şərəf və heysiyyətlərinə layiq gördükləri yalanlara, hiylə və təzvirə və xəbislik büruzə verməyə heç bir ehtiyacımız yoxdur. Zatən öylə alçaqlıqları bizim namusi-millimiz də [milli namusumuz da] qəbul etməz.

Qərəz, içimizdə və çölümüzdə oynanılan bu intriqalara qarşı laqeyd və layənşüur [şüursuz, etinasız] qalmamalıyıq.

Məbada, məbada!

Və saniyən [ikinci olaraq] mühüm işimizin o biri də budur ki, Sülh Konfransı əqd edilənə [başlayana] qədər biz özümüzü Yevropaya və baxüsus [xüsusilə] Müttəfiqlərə bildirək, müərriflik edək [tanıdaq] ki, bu gün Sülh Konfransına gələrkən deməsinlər ki, siz kimsiniz!

Burası heç kəsə məxfi deyil ki, ermənilər əlli-altmış ildən bəridir öz millətləri xüsusunda Yevropada o qədər deyib-danışıbdırlar ki, bu gün "erməni məsələsi" yevropalıların uşaqlarınca da məruf [bilinən] və məşhur olan bir məsələdir. Gürcü qonşularımız dəxi bu xüsusda az çalışmayıb, millətlərini mədəniyyət aləminə tanıtdırıbdırlar. Dağıstan dəxi Yevropaca məşhur bir məsələdir. Amma Azərbaycan, baxüsus [xüsusilə] Qafqaz Azərbaycanı, iqrar [etiraf] etməliyik ki, təzə bir məsələdir.

İndiyə qədər o dərəcə bişüur olmuşuq ki, bütün Qafqaz millətlərindən təkə-təklikdə ədədcə çox olduğumuz halda, biz Azərbaycan türkləri haqqında nəinki Yevropanın, hətta yüz ildən bəri üstümüzdə sahiblik edən rusların da dürüst xəbərləri yox idi. Ruslar bu günə qədər bizə "persiyan" [farslar] deyə İran və fars millətindən hesab edirlər. Mən özüm bizim "persiyan" olmayıb türk olduğumuzu Moskva və Petroqraddan əlavə, Bakının özündə də bir çox ruslara dəfələrlə qandırmışam.

Bəs biz Azərbaycanı və iki milyondan artıq olan Azərbaycan türklərini Yevropaya və Müttəfiq dövlətlərə indidən tanıtdırmalıyıq. Özümüzə məxsus tarixə, gözəl və xüsusi bir ədəbiyyata, sənayeyi-nəfisəyə [incəsənətə] malik olduğumuzu onlara bildirməliyik. Dilimizin, firəng dili Yevropada olan kimi bütün Qafqazda ümumi bir dil olduğunu, məsələn bir ləzgi ilə bir ermeninin və ya bir malakan ilə bir aysorun bir-biri ilə türk-Azərbaycan dili ilə danışmağa məcbur olduğunu isbat etməliyik. Musiqimizin ümum [bütün] Qafqaz millətlərinə zövq və ləzzəti-ruhani [mənəvi həzz] verən bir musiqi olduğunu bildirməliyik. Yevropa şüəralarından [şairlərindən] geri qalmayacaq şairlərimizi, müsənniflərimizi [bəstəkarlarımızı], yazıçılarımızı, alimlərimizi birbəbir nişan verməklə, xüsusi bir mədəniyyətə malik olduğumuzu ayan və aşkar etməliyik. Daha yüz il əvvəl müstəqil xanlıqlar surətində yaşadığımızı yada salmalıyıq. Cəsur və rəhmli, safdil [ürəyiaçıq] və həqgu [haqq danışan, doğru söyləyən] bir millət olub da fitnə və fəsad, hiylə və təzvir [saxtakarlıq] kimi əxlaqi-zəmimədən [pis əməllərdən] ari [uzaq] olduğumuzu da gizlətməməliyik. Qəhrəman bir əsgər, qabil bir tacir, mahir bir sənətkar, zəhmətsevən bir əmələ [fəhlə], iş görən bir ziraətçi [əkinçi] olduğumuzu da unutmayıb söyləməliyik.

Əlqissə [qısası], bütün xüsusiyyatımızı [xüsusiyyətlərimizi], bütün məziyyatımızı [üstünlüklərimizi] təfsilatla Yevropaya bildirib, müstəqil yaşamağa və müstəqil bir hökumət təşkilinə kamalınca müstəhəq [haqq qazanmış] olduğumuzu layiqincə isbat etməliyik ki, gələcək Sülh Konfransı kimi məclisi-kübraya [böyük məclisə] gedən nümayəndələrimiz hüquqi-siyasiyyə və milliyyə [milli və siyasi hüquq] imtahanından sühulətlə [asanlıqla] keçib vətənimizə qayıdarkən, əllərində istiqlal şəhadətnaməsi olsun.

Bəs, daha durmayıb işə başlayaq.

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

* İngiltərə kralı Corc, vəliəhd və prins Albertin müşayiəti ilə Londondan çıxıb Parisə əzimət etmişdir [yola düşmüşdür]. Viktoriya mövqifində [stansiyasında] kral camaat tərəfindən təntənəli bir surətdə istiqbal edilmişdir [qarşılanmışdır].

* Kral Corc bu axşam Fransaya varid olub [çatıb], gecəni Metrel-sür-Merdə keçirəcəkdir. Pəncşənbə [cümə axşamı] günü kral vəliəhd ilə bərabər Parisə azim olacaqlardır [yola düşəcəklər].

* Parisdə kral Corcu istiqbal üçün böyük hazırlıq görülür. Kral Corcun Parisə gəlməsindən məqsəd, Rəisi-cümhur [Prezident] Puankareni Müttəfiqlər ordusunun böyük qalibiyyəti ilə şəxsən təbrik etməkdir.

* Berlindən Kopenhagenə teleqraf edirlər ki, Bolqariya kralı Boris Vyanadan qaçmışdır. Bolqariyada cümhuriyyət təsis edilmişdir.

* Münxendən xəbər verirlər ki, İtaliya və Avstriya hadisələri Bavariyanı xeyli narahat etmişdir. Yanğın, qarət və qeyri ixtilafların qarşısını almaqdan ötrü sərhədə qoşun göndərilmişdir.

* Vyanadan xəbər verirlər ki, İmperator Karl taxtı-səltənətindən əl çəkmək şəraitini [şərtlərini] həqarət [təhqir] ədd [hesab] etdiyindən, imzalamaqdan imtina etmişdir. Taxtı-səltənətdən əl çəkmək əqdi Ərkani-hərb naçalniki [Baş qərargah rəisi] Arts tərəfindən imza edilmişdir.

* Berlindən verilən xəbərlərə görə, Omsk Hökuməti Rusiyanın təhlükəli halı münasibətilə bütün hökumət ixtiyarını Ali Baş komandan sifəti ilə admiral Kolçaka vagüzar etməyi [tapşırmağı] təhti-qərara almışdır.

* Voronejdən verilən xəbərlərə görə, Rostov dəmiryol xətlərində artıq miqdarda yük oğurlanmaqdadır. Alman saldatları, vətənlərinə tələsdiklərindən vaqonları, paravozları və bütün qatarı zəbt etməkdədirlər.

* Berlin şəhərinin əsgəri komandanı saldatlara xitabən nəşr etdiyi dəvətnamədə deyir ki, nizamsızlıq cavan cümhuriyyəti təhlükəyə sala bilər. Saldatlar əhali ilə bərabər məmləkətdə təzə qanunları mühafizə etməyə dəvət edilirlər.

* Yekatrinodardan xəbər verirlər ki, hər gün bir çox fəhlə həbs edilməkdədir. Həbsxanalarda 1600-dən artıq adam vardır.

* "Taqeblatt" qəzetəsində dərc edilən xəbərlərə görə, Riqa şəhərində Latış Milli Şurası və çox əhali iştirakı ilə Latviya istiqlalı elan edilmişdir.

**Türküstanda**

Təşrini-əvvəlin [oktyabrın] 5-ində Şura hökuməti tərəfindən Daşkənddə Türküstan Mərkəzi İcraiyyə Komitəsi sədri Solkinə böylə bir teleqraf göndərilmişdir:

İngiltərə hücumu və tərəfinizdən şiddətli tədbirlər ittixaz edilməsi [tədbirlər görülməsi] haqqında göndərdiyimiz teleqrafa əlavə ediriz ki:

1) 17 sinnindən [yaşından] 48 sinninə [yaşına] qədər Müttəfiq dövlət təbəələrinin hamısı arvad, uşaq və Şura Hökuməti tərəfində olanlardan başqa və siyasi təsəvvürata [fikirlərə, düşüncələrə] görə Çin əhalisi dəxi istisna edilməklə, bir yerə cəm etdirilsin.

2) İngilislərə və Müttəfiqlərə para buraxılması dayandırılsın.

3) Rəsmi nümayəndələrin hamısı həbs edilib məktubat və təhriratları [məktubları və yazışmaları] dərdəst edilməklə [ələ keçirilməklə], bizə göndərilsin.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 1 dekabr (Bazar günü) tarixli 53-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

4) İngilislər və Müttəfiqlərlə əlaqədar olan adamlar haqqında ciddi tədbirlər görülsün.

İngiltərə təbəələrini girov saxlamaq elanı bicadır [yersizdir]. Rəsmi nümayəndələr üçün heç bir istisna olmamalıdır. Mərkəzi Hökumətin bu düsturüləməlinə [təlimatına] əməl edib nəticələrini bizə xəbər veriniz. İngilis Polkovniki Yelsi həbsə alınız.

* Cenevrədən teleqraf edirlər ki, fransızlar Peştə şəhərini işğal etmişlərdir. Fransızlar şəhər əhalisi tərəfindən gözəl surətdə qarşılanmışlardır.

* Almaniya Hökumət müşaviri Şults Macarıstan rəisi-cümhuru [prezidenti] Karolyinin fransızları rəsmi surətdə təbrik etmələrini gördüyündən, özünü öldürmüşdür.

* Askvit öz müntəxiblərinə [seçicilərinə] xitabən verdiyi müraciətində azad ticarət əsaslarına mümaniət [maneçilik] göstərilməsindən narazı olduğunu izhar etmişdir [bildirmişdir].

## CƏFƏROVUN NOTASI

Göyçə ətrafında erməni qoşunlarının Azərbaycan sərhədini keçib müsəlmanlara əziyyət verməsini və bundan naşi [bu səbəbdən] Azərbaycan Hökumətinin Ermənistana etiraz etdiyini vaxtilə qəzetəmizdə xəbər vermişdik. Şimdi həmin notanın surətini təqdim ediriz:

*"Mənim Hökumətimin aldığı məlumata görə, təşrini-saninin [noyabrın] 2-sində erməni qoşun qitəatı [hissələri] Azərbaycanın sərhədini keçərək 60 min islam əhalisi ilə məskun Gəncə qəzasının 9-cu dairəsinin Göyçə gölü ətrafında islamları təzyiq altına almışlar. Hökumətim namından [adından] buna qarşı etirazla təklif edirəm ki, erməni hissələrinin Azərbaycan dairəsindən çıxarılmasından ötrü lazımi binagüzarlıqda bulunasınız [addımları atasınız]."*

## QƏZETƏLƏRDƏN

**Tiflisdə müfəttinlik [fitnəkarlıq]**

Təşrini-saninin [noyabrın] 21-ində Tiflisdə alman saldatları miyanında [arasında] "Dəvət" sərlövhəli əcnəbi iştirakiyyunlarının [sosialistlərinin] Vladiqafqaz dəstəsi imzalı, Tiflisdə təb' [çap] edilmiş intibahnamələr [vərəqələr] nəşr etməkdə [yaymaqda] ittihamla [günahlandırılaraq], bir neçə əşxas [şəxs] tövqif [həbs] edilmişdir. İntibahnamələr alman lisanı ilə yazılmışdır.

İntibahnamə işbu sözlərlə xitampəzir olur [qurtarır]:

*"Alman saldatları, siz bu vaxtadək hələ əldə silah olaraq gürcü və Rusiya kapitalistlərini mühafizə edirsiniz?*

*Yoldaşlar! Almaniyada sizin arxadaşlarınız füqərayi-kasibə [proletar] hüququndan ötrü mübarizə edirlər. Sizin yeriniz oradadır. Bütün general və zabitanınızı [zabitlərinizi] buraxınız. Onlar sizin düşmənlərinizdirlər. Biz sizin yaxınlığınızdayız, sizi gözləyiriz ki, bərabər vətənimizə gedək."*

1600 ədəd böylə intibahnamə tapılmışdır. İşbu müfəttinliyin mənbəyini tapmaq üçün təhqiqat icra edilməkdədir.

**Nazaryanın hədiyyəsi**

Erməni "Taraz" qəzetəsi müdür və mühərriri, yeni Ermənistan Maarif Nazirliyinə təyin edilmiş Atabəyova bir məktub yazaraq xəbər verir ki, özünə məxsus kitabxanasını, mətbəə və dəftərxanasını "Axpyur" və "Taraz" qəzetələrinin bütün kolleksiyalarını, işbu qəzetələrə məxsus klişeləri və qeyrəni Ermənistan Maarif Nəzarətinə hədiyyə edir.

## KRIMDA

Bu yaxınlarda Krımdan Tiflisə gəlmiş bir zat "T. L." qəzetəsinə böylə məlumat vermişdir:

– Krım öz xüsusi kiçik bir hökumət həyatı ilə yaşamaqdadır. Burada vüzəra [nazirlər] böhranları vaqe olub ehtirasati-siyasiyyə [siyasi ehtiraslar] qaynamaqdadır. Bu fəvəran [qaynama] daşdığı zaman, alman komandasının dəqiq gözləri mübahisəçilərin hirsini yatırmaqdadır. Krım Hökuməti fövqəladə sülhpərvərdir. Krım Hökumətini udmaq istəyən Ukrayna Hökuməti ilə bu cür siyasət aparılır. Krım əhalisi Ukrayna Hökumətinə yem olmaq istəmədiyindən, Ukrayna Hökuməti hirslənməkdədir. Belə ki, Ukrayna Hökuməti sərhədləri qapayıb inadlı bir surətdə gömrükxana mübarizəsi etməkdədir. Bu mübarizə bu il yay fəsli Krım əhalisinə böyük zərər vermişdir. Çünki Krımın ixrac etdiyi tək bir meyvə bu il içəridə qalıb tələf olmuşdur. Zərər milyonlara baliğ olmuşdur [çatmışdır]. Krım Hökuməti bu tövr qonşuluq müamiləsini tezliklə yaddan çıxarmayacaqdır.

– *Ukrayna nə istəyir?*

– Ukrayna Hökuməti Krımın büsbütün Ukraynaya bitişdirilməsini, hər bir işdə ağalıq etməklə, donanma və qeyriləri öz ixtiyarına almaq istəyir.

– *Məgər donanma məsələsi həll edilib qurtarmışdır?*

– Xeyr, Qara dəniz donanması ümum Rusiyanın malıdır. Krım Hökuməti ondan istifadə etməyə bilməz və onu başqasına da vagüzar edə bilməz [tapşıra bilməz]. Hərçənd almanlar bu donanmaya sahibdirlər, fəqət onlar donanmaya nəzarət edirlər.

– *Almanlar Qara dənizdə Müttəfiqlərlə mübarizədən ötrü bu donanmadan istifadə edə bilərlərmi?*

– Xeyr, edə bilməzlər. Komanda heyəti yoxdur. Rus komanda heyəti də bu işə iqdam [təşəbbüs] etməz. Bundan əlavə, Qara dənizdə olan gəmilər fəna bir haldadırlar. Nəinki müharibə etmək, hətta bu gəmilərə müavinət [kömək] olmadan yerlərindən belə tərpəşə bilməzlər. Çünki bolşeviklərin ağalığı zamanında bu gəmilər hamısı qarət olunmaqla bərabər, xarab edilmişlərdir.

– *Sizin rəyinizcə Ukrayna-Romaniya mübahisəsi həll edilə bilərmi?*

– Bunlar hamısı Ukraynadan və ümum Yevropa əhvalından asılıdır.

– *Ümumiyyətlə Krım həyatı necədir?*

– Çox da fəna deyildir. Çörək boldur, ət və qeyri şeylər də kifayət qədəri vardır. Neftə və yağa ehtiyac vardır. Bəzzaziyə [parça, arşınmalı] və xərəzi [xırdavat] malları bir zaman kifayət edər. Əcnəbi malları artıq miqdarda gətirilməkdədir. Boğazlar açıldıqda, dəxi də yaxşı olacaqdır.

– *Burada şayiə var idi ki, sabiq Baş komandan Nikolay Nikolayeviç nerədə isə bolşeviklər tərəfindən güllələnmişdir. Bu doğrudurmu?*

– Boş sözlərdir. Nikolay Nikolayeviç, Cənubi Krım sahilində öz "Dyulber" sarayında asudəcə yaşayır. Tiflis qəzetələrindən biri Nikolay Nikolayeviçin bolşevikləri Moskvadan qovmaq qəsdində olan Cənub ordusu başında duracağı haqqında yazdığı xəbər daha doğru ola bilər. Yeri gəlmişkən burasını da söyləyim ki, biz çoxdan Müttəfiqləri gözləyirdik və indi də Bosfor, Dardanel açıldığından, Nikolay Nikolayeviç siyasət meydanına çıxacaqdır. Müttəfiqlər onu artıq dərəcədə sevirlər, qədir və qiymətini bilirlər.

## GÜRCÜ MƏTBUATI

Müttəfiqlər qoşununun Bakıya vürudu [gəlişi] və bu münasibətlə bəzi dairələrin fitnə və fəsad toxumu saçmaq üçün münbit zəmin tapılmış hesab edərək fəaliyyətə başlamaları münasibətilə "Qruziya" qəzetəsi bir baş məqalə yazaraq ermənilərin hərəkətindən narazılığını izhar ilə [bildirməklə] yazır ki:

*İngilislərin Bakıya vürudu ilə Tiflis min dürlü şayiələrlə dolmuşdur. Qeyri-məsul və naməlum adamların rəvayətinə istinadla, general Tomsonun kimlərə və nələr dediyi, Biçeraxova nə kimi vədlər verdiyi, Bakıda hökumət təşkili üçün Ufa Hökuməti tərəfindən kimlər göndərildiyi və sairə, bütün təfsilatı ilə şaye olur [yayılır]. Ermənilər tərəfindən idarə olunan "Avlabar Teleqraf Acentəliyi" adı ilə məruf [tanınan] makina [təbliğat maşını] mükəmmələn [mükəmməl surətdə] işləyir. Rus və erməni qəzetələri Biçeraxovun binagüzarlıqları [sərəncamları] haqqında xəbərlər verirlər.*

Bədəhu [sonra], general Tomson imzası ilə fəqət öylə rəsmi şəxs tərəfindən verilməsi qeyri-qabil olan intibahnamə [vərəqə] nəşrindən və Azərbaycan Hökuməti tərəfindən nəşr edilmiş olan müraciətnamənin onu fəsx [ləğv] etməsindən və rəsmi məlumatdan bəhslə yazır ki:

*Güman ediriz ki, bunların həpsi yenə "Avlabar" acentəliyinin meyvəsidir. Fəqət həman burasıdır ki, Qafqaziya millətləri istiqlalı[nın] düşmənlərinin cinayətkaranə siyasətini aşkara göstərir.*

Şimdi artıq müəyyən xəyanətkaranə fəaliyyət başlanır. Bu gün bu fəaliyyət Azərbaycana zərbə endirməyə sövq edilir. Çünki ingilislər Bakıya varid olmuşlardır. Sabah da, onların zənnincə, məqamı gəldikdə Gürcüstan əleyhinə sövq olunar. Erməni qəzetələrinin son zaman dil və ruhca heyrətəngiz bir xəbislik almalarının səbəbi də budur ki, bu ağalar şimdi özlərini hökmran hiss edərək cərəyani-hadisatı [hadisələrin cərəyanını] idarə etməyi öz əllərinə almaq istəyirlər.

"Kavkazskoye slovo" kimi adəta etidala riayətkar [mötədil mövqe tutan] bir qəzetə, bu gün Azərbaycan Hökumətinin iş başından çəkilməsini tələb edir və yazır ki, müsəlman nümayəndələrinin Zaqafqaziya Konfransında iştirak etməyə ixtiyarları yoxdur. Halbuki, əqidəmizcə, məhəlli [yerli] millətlərin dövlət təşkil etmələri və Qafqaziya istiqlalının xain və açıq düşmənlərinin ixtiyarı yoxdur iştirak etsinlər. İngilislər yaxındadırlar. Ona görə də çoxdan tanıdığımız və on illərdən bəri sınanmış iftiralar, böhtanlar, fitnəkarlıqlar, intiqam tələbləri, təhdidlər, erməni qanına bələşmişlərdən şikayətlər yenə başlanmışlardır. Erməni qanına bələşmək hər cəhətdən nifrətamiz bir şeydir. Fəqət xainlər, ümumi məqsədi satanlar əlbəttə qanuni cəzalarını çəkməli və ümidvarız çəkəcəkdirlər.

Qəzetələrin məlumatına görə Tomson qoşunları ilə bərabər, Biçeraxov dəstəsindən başqa Bakıya Amazasp və Baqratuni saldatları və erməni qaçqınları da gəlmişlərdir. Bu surətlə Qafqaziyanın vəziyyəti haqqında Tomsona bunlar məlumat verir və İngiltərə siyasətinə icrayi-təsir etməyə var qüvvələri ilə çalışırlar. Biz lazım biliriz ən yaxın zamanda Müttəfiqlər nümayəndələri ilə diplomasi əlaqəsi paydar edilsin [qurulsun] və onlara dürüst məlumat verilsin. İngiltərə işin həqiqətini bildikdən sonra təcavüz qaydaları qoymağa, hamının nifrət etdiyi keçmiş günlərin qayıtmasına çalışmaz. Vilsonun proqramından sərf-nəzər [Vilsonun proqramını bir tərəfə qoysaq], hətta İngiltərənin sabiq siyasəti heç vaxt məhəlli mənafe və hüquqa kəmetinalıqla [etinasızlıqla] əsaslanmamışdır. İngiltərə müstəmləkələri demək olar ki, tam müstəqildirlər. Təsəvvür etmək olmaz ki, Cahan müharibəsi bitərkən Amerika və İngiltərə Qafqaziyanı güclə ilhaq etsinlər və əldə silah olaraq Bakı şəhərinin Ufa şəhərinə tabe olmasını istəsinlər. Bu vaxtadək hələ öz daxilində azacıq bir nizam və asayişi bərpa edə bilməyən Rusiya nə əsasla və hangi ixtiyarla burada həyatı təcdid [bərpa] edən bir mədəni qüvvə olmaq istəyir? Fəqət lazımdır ki, İngiltərə generallarına və siyasi nümayəndələrinə məlumatı Amazasplar, Andraniklər və sair erməni qaçqınları [verməsin], məhəlli hökumətlər rəsmi surətdə bu işi öz əllərinə almalıdırlar. Gürcüstanla Azərbaycanın mənafeyini müttəhid [birgə], müştərək nümayəndəliklə mühafizə etmək olar. Bu iki dövlət arasında heç bir ixtilaf yoxdur və əgər Qafqaziyada erməni olmasaydı, Qafqaziya qövmləri və millətləri arasında heç vaxt ixtilaf çıxmazdı. Ümum əsəbiyyət çıxaran şayiələr, müfəttinanə [fitnəkarca] hərəkətlər dəxi həmin onlardan sadir olur [meydana gəlir].

## BAKI XƏBƏRLƏRİ

- Aldığımız məlumata görə, işbu günlərdə Müttəfiqlərin beş nəfərdən ibarət nümayəndəliyi, başda İngiltərə konsulu Makdonald olmaq üzrə, Tiflisə azim olmuşdur [yola düşmüşdür].

- Bələdiyyə rəisi general Tomsona müraciətən rica etmişdir ki, Ənzəli və Lənkərandan varid olmuş [gəlmiş] qaçqınların öz yerlərinə qayıtmalarından ötrü lazımi binagüzarlığı ittixaz buyursun [tədbirlər görsün]. Şimdilikdə Bakıda fərarilərin [qaçqınların] hesabı 600-ə çatmışdır. Qaçqınlar ümumən xəstədirlər. İşbu təşəbbüsata Port-Petrovsk Müvəqqəti İcra Komitəsinin ricasına görə iqdam edilmişdir [başlanmışdır].

**Ev Sahibləri İttifaqında**

Ev Sahibləri İttifaqı neçə vaxtdır ki, fəaliyyətdən məhrum olmuşdu. İşbu günlərdə İttifaq, yenidən fəaliyyətə başlayaraq yeni heyəti-rüəsa [rəyasət heyəti] intixab etmişdir [seçmişdir]. Sədrliyə Rjanski, müavinliyə Hacıyev və Yusif Mehdiyev, xəzinədarlığa isə Hacı Qasımov intixab edilmişlər.

Ev sahibləri ilə kirayənişinlər miyanındakı [arasındakı] ixtilafları bərtərəf etmək [aradan qaldırmaq] üçün İttifaq, Müvəqqəti Hökumətin 5 avqust 1917 sənədəki verdiyi qanunun ləğv edilməsi barəsində təşəbbüsatda bulunmağı və işbu ixtilafı müştərək komitələr vasitəsilə həll etmək məsələsini qət etmişdir [qərara almışdır]. Əlavə bir sənaye-inşaat bürosu və xüsusi bank təsisi ehtimal edilir. İttifaq qərar qoymuşdur ki, mətbuata bu barədə geniş məlumat versinlər.

**Fəhlə klubunda**

Təşrini-saninin [noyabrın] 27-sində Fəhlə klubu idarəsinin iclası vaqe olmuşdur. İclasda Türk Ocağı tərəfindən təklif edilən klub cənbində [nəzdində] xüsusi müsəlman şöbəsi güşad etmək [açmaq] məsələsi rədd edilmişdir. Klubun evi və əmlakını Türk Ocağından geri almaq üçün müzakirat [müzakirələr] Şterin və Pokura vasitəsilə aparılacaqdır. İclasda məlum olmuşdur ki, "Mikado" teatrosu da kluba verilmişdir. İşbu teatronu almaq üçün binagüzarlıqda bulunacaqdır [lazımi addımlar atılacaqdır].

- Təşrini-saninin 27-nci gecəsi Rəhmanəli Məhəmmədzadənin Bazarnı caddədəki dükanından 80 min rubləlik əşya oğurlanmışdır.

- Təşrini-saninin 28-inci gecəsi Ağaəlizadənin dəniz kənarındakı mağazasından 9468 rubləlik əşya oğurlanmışdır.

- Təşrini-saninin 27-sində, səhər saat 9 radələrində Vorontsovski soqaqda [küçədə] naməlum bir sartın meyiti tapılmışdır. Həkimlərin dediyinə görə, sart acından ölmüşdür.

- Əhali tərəfindən verilən ərzi-hallardan [ərizələrdən] anlaşıldığı üzrə, sentyabr hadisatından [hadisələrindən] əhalinin üçdən bir hissəsi xəsarətdidə olmuşdur [zərər çəkmişdir]. Oğurlanmış əşyanın bir hissəsi Quba meydanında satılıb, bir hissəsi də Gəncə tərəfinə aparılmışdır. Bayıl, Çornıqorod, Balaxanı dairələri ən artıq zərərdidə olmuşlar. Şəhərdə isə 6, 7 və 8-ci polis dairələri qarətə məruz qalmışdır. Ermənikənddə heç bir şey qalmamışdır. Zərərdidələr cümləsindən erməni, gürcü, rus hətta müsəlmanlar da vardır. Hər gün 1500-ə dək ərzihal verilməkdədir.

**Avetisovun qətli**

Aldığımız məlumata görə, Lənkərandakı erməni qoşunları sərkərdəsi Avetisov, Muğanda qətl edilmişdir. Qətlin təfsilatı böylə olmuşdur:

Təşrini-saninin [noyabrın] 25-ində, Prişib qəsəbəsində, miralay [polkovnik] İlyaşeviçin evində qapalı iclas var imiş. İclasda 12 nəfər iştirak edirmiş. Bunlardan biri də miralay Avetisov imiş. Saat 12 radələrində İlyaşeviçin evinə 12 nəfər Muğan qoşunu saldatlarından gəlirlər. Bunlar miralay Avetisovu zorla evdən çıxarıb döyməyə başlarlar. Qana bulaşmış miralay ağlaya-ağlaya güllələnməməsini rica edirmiş. Saldatlar isə bunu rədd edərək miralayı döyürmüşlər. Sonralar qoca miralaya onadək güllə vurmaqla iktifa [kifayət] etməyib, meyitini də tüfəng qundağı ilə döyürmüşlər. Avetisovun meyitini Lənkərana göndərmişlər. Yolda Qumbaşı kəndində meyiti saxlayıb telefon vasitəsilə araba istəmişlər ki, meyiti Lənkərana göndərsinlər. Meyiti Lənkərana göndərdikdən sonra təşrini-saninin 28-ində dəfn etmişlər.

**Demokratlar müşavirəsində**

- Təşrini-saninin [noyabrın] 28-ində mühəndis Yevanqulovun evində beynəlfirəq [partiyalar arası] müşavirə iniqad etmişdi [keçirilmişdi]. Müşavirədə İctimaiyyuni-inqilabiyyun [sosialist-inqilabçılar], menşevik, daşnaksaqan, müsəlman ictimaiyyun [sosialist] firqələri, "Müsavat", "Hümmət" və Kəsbkarlar İttifaqı nümayəndələri iştirak etmişlərdir. Kadet və erməni xalq firqələri nümayəndələri, "Bund", "Yedinstvo" və Rusiyada Müsəlmançılıq Firqəsi nümayəndələri gəlməmişlərdir.

İclasda müzakirə edilmiş məsələlər şunlardır:

1) Azərbaycanın vəz'i [vəziyyəti];
2) Rusiyanın vəziyyəti;
3) Ufa Hökuməti.

Mübadileyi-əfkardan [fikir mübadiləsindən, müzakirədən] sonra qət edilmişdir ki, gələcək iclası "Metropol" mehmanxanasında, cümə günü, saat 4-ə təyin etsinlər. Bu barədə o biri firqələrə də dəvətnamə göndərməlidir.

* Bələdiyyə rəisi İlyuşkin, general Tomsona bu məzmunda bir məktub göndərmişdir:

*"Bakı əhalisi tərəfindən məhəlli [yerli] Dövlət Banka və əmanət sandıqlarına böyük pullar və saxlanmaq üçün qiymətli şeylər tapşırılmışdır. İndiki bahalığa görə şəhər əhalisi öz pulunu ala bilmir. Çünki Dövlət Bankı, əmanət sandıqları fəaliyyətsiz qalmışlardır. Əhali tərəfindən tapşırılmış olan pullar və qiymətli şeylər Bakı şəhəri zəbt edildiyi zaman sabiq hökumət tərəfindən şəhərdən çıxarılıb aparılmışdır. Dövlət Bankı şəhərə gətirildiyinə görə şəhər idarəsi təşrini-saninin [noyabrın] 26-sında vaqe olan iclasında sabiq hökumət tərəfindən aparılan pulların və qiymətli şeylərin banka və əmanət sandıqlarına qaytarılması və bu lazımlı müəssisələrin işə başlamaları üçün nəzdi-alilərinizdə [sizin nəzdinizdə] istidada bulunmağı [xahiş etməyi] qərara almışdır. Şəhər idarəsinin bu qərarını cənabınıza yetirməklə, şəhərdə adi həyat başlanması xatirinə Dövlət Bankı ilə əmanət sandıqlarının tezliklə işə başlamaları üçün tədbirlər ittixaz etməyinizi [görməyinizi] acizanə rica eylərəm."*

**Maliyyə Nəzarətində [Maliyyə Nazirliyində]**

Maliyə Nəzarəti bir elan nəşr edərək banderolsuz tənbəki satışını məmnu [qadağan] etmişdir. İşbu ticarətdə müttəhim edilənlər ağır cəzaya məhkum ediləcəklər. Nəzarət, bir həftəyə, mövcud tənbəkini Gömrük İdarəsinə verməyi tələb edir.

**Vapor vürudu [gəmi gəlişi]**

Cümə günü təşrini-saninin [noyabrın] 29-unda Ənzəlidən "Oryol" nam [adlı] vapor Bakıya varid olmuşdur [gəlmişdir]. Vapor həman gün Ənzəliyə azim olmuşdur [yola düşmüşdür].

* Ərzaq şöbəsi tərəfindən həcz [müsadirə] edilmiş malların qiymətlərini müəyyən edəcək komisyona, Ərzaq Nəzarəti nümayəndəliyinə Abbasəli bəy Makinski təyin edilir.

* Ərzaq Nəzarəti Kürkənd camaatı miyanında [arasında] təqsim etmək [paylamaq] üçün həmin kənd müvəkkilinə Tağıyev fabrikasından 1640 arşın bez almağa vəsiqə vermişdir.

**Ərzaq işləri**

Təşrini-saninin [noyabrın] 29-unda Ərzaq şöbəsi müdiri Xaçmaz mövqifinə [stansiyasına] teleqraf göndərərək, 25 vaqon göndərilməsini tələb etmişdir.

**Azərbaycan Gömrük İdarəsində**

İşbu günlərdə məmuriyyətindən övdət etmiş [ezamiyyətdən qayıtmış] Azərbaycan gömrük rəisi Lopato, müxbirimizlə etdiyi müsahibəsində demişdir ki, gömrük işləri nizama düşməkdədir. Gürcüstan hüdudunda, Zaqatal nahiyəsi və Qazaxda dörd gömrükxana fəaliyyətə başlamışdır. Mağalı gömrük şöbəsi də ən yaxın zamanda işə başlayacaqdır.

**Vapor vürudu [gəmi gəlişi]**

Təşrini-saninin [noyabrın] 30-unda Lənkərandan "Feniks" nam [adlı] vapor Bakıya varid olmuşdur. Vaporda 750 nəfərədək sərnişin gəlmişdir. Bunlardan əlavə vaporda 3 nəfər saldatın da meyiti gətirilmişdir.

**Posta və Teleqraf məktəbi açılır**

Hökumət Şurasında Posta və Teleqraf naziri Ağa Aşurov həzrətləri[nin] məruzəsindən sonra Posta və Teleqraf məktəbinin Azərbaycan türkləri üçün son dərəcədə əhəmiyyəti haiz olduğunu [əhəmiyyət daşıdığını] nəzərə alaraq, Şura bu məktəb layihəsini qəbul etmişdir. Bu günlərdə bu məktəbdə dərslərə şüru ediləcəkdir [başlanacaqdır].

Yaz[ıl]maq üçün ərizə verməK lazımdır.

**Ərzaq Nəzarəti [Ərzaq Nazirliyi]**

- Hökumət İşləri İdarəsinin müdiri, idarə məmurlarının bazar qiymətinə çörək ala bilmədiklərini və qulluğu buraxıb növbədən çörək alammayacaqlarını nəzərə alıb Ərzaq nazirindən xahiş edir ki, qərar qoyulmuş qiymət üzrə həman məmurların hərəsinə gündə iki girvənkə çörək verilməsinə icazə versin.

- Qommel şərakəti [şirkəti] Tiflisdən Gəncə-Yelenendorf koloniyasına bir vaqon qənd aparması xüsusunda Azərbaycan Ərzaq Nəzarətindən icazənamə istəyir.

- Nobel qardaşları şərakətinin fəhlə və məmurlarının "Birlik" namında camaat dükanları ittifaqı cəmiyyətinə Quba nahiyəsindən üç vaqon buğda və iki vaqon da un gətirməsi xüsusunda Ərzaq Nəzarəti icazə verdi.

- Ərzaq Nəzarətində alınan məlumata görə, bəzi naməlum şəxslər Biləcəri ətrafında və şəhər yolunda şəhərə ərzaq gətirən arabaçılardan pul alıb buraxırlar. Bu işi kəşf etmək üçün Nəzarət lazımı binagüzarlıq etdi [addımlar atdı].

- Bakıya buğda, un və qeyri ərzaq gətirilməsi barəsində Ərzaq Nəzarətindən cəmiyyətlərə və qeyri şəxslərə gündə 50-dən 100-ə qədər icazənamə verilir. Hər icazənamədə 15 putdan bir vaqonadək ərzaq gətirilməsi icazə edilir.

- Xudat istasyonundan Bakıya Ərzaq Nəzarəti ehtiyacı üçün 480 put buğda gətirməyə Məhəmmədkərim Orucova icazə verildi.

- Bakıdan Sabunçu istasyonuna 10 vaqon ərzaq aparmaq üçün Kooperatsiya cəmiyyətinə Ərzaq Nəzarəti icazə vermişdir.

- Lənkəran yolu açıq olduğu üçün oradan ərzaq gətirməyə Ərzaq Nəzarəti icazə verir.

- Hal-hazırda Bakıda 35 min Avstriya-Macarıstan əsir və naxoşları nümayəndələrinə Gəncədən bir vaqon un, bir vaqon yağ, penir, iki vaqon da kartof gətirmələri barəsində Ərzaq Nəzarətində icazə verilir.

- Ərzaq Nəzarəti, Ticarət və Sənaye Nəzarətində[n] Gəncə camaatı üçün 300 top bez göndərilməsini xahiş edir.

- Şəhər bələdiyyə müəssisələrinin xahişinə görə, həman müəssisələr ehtiyacı üçün olaraq Ərzaq Nəzarəti Tağıyev fabrikasında nə qədər bez olduğunu və o barədə xəbər verməyi Ticarət və Sənaye Nəzarətindən xahiş edir.

- Bakı şəhər Ərzaq idarəsinin anbarları Ərzaq Nəzarəti ixtiyarına keçməsi və o anbarları təhvil verməsi barəsində Nəzarət, şəhər Bələdiyyə rəisinə yazmışdır.


**Arvad diş həkimi**
**A. P. Matsiyevskaya**

Naxoşları qəbul edir. Nikolayevski caddədə ev nömrə 33, Krasilnikovun evi. Telefon nömrə 45-90.

Qəbul edir saat 10-dan 2-yə kimi, 5-dən 7-yə kimi.

*283 25-1*

**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282 52-1*

**Diş həkimi B. L. Levin**

Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni diş qayırır. Tsitsyanovski caddə nömrə 7, Qubernskinin küncündə.

Qəbul edir: 9-dan 2-yə kimi; 4-dən 7-yə kimi.

*280 12-1*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Burada leyli [gecə] yatacaqlarıyla qadın cərrahiyyə xəstaxanası mövcuddur.

*209*

**Doktor F. S. Şteyn**

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, "Jorj" əksxanası. Telefon nömrə 54-44.

*232*

**Diş təbibəsi**
**Altmanın diş müalicəxanası**

Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

*245*



**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**


## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Samoapredeleniye***

"«Samoaperedeleniye» formulu Rusiya firqələrindən «sosial-demokratiya» tərəfindən...": «sosial-demokratiya» deyərkən, Rusiya Sosial-Demokrat Fəhlə Partiyası nəzərdə tutulur.

"...Sentrodomun «dövlət dili» haqqında Gürcü Şurasına yazdığı məktubda...": Bakıdakı Gürcü Milli Şurası, Türk Ordusunun Bakıya daxil olması əsnasında güya şəhərin gürcü əhalisinə vurduğu ziyan haqqında Mərkəzi Ev Komitəsinə (Sentrodoma) gürcü dilində bir sıra müraciətlər ünvanlamış, Mərkəzi Ev Komitəsi isə bu müraciətlərin "dövlət dilində – yəni rus dilində" (!) yazılmasını tələb etmişdi.

"...nə olduğu anlaşılmayan Ufaya bağlamaqdır...": Ufa Hökuməti nəzərdə tutulmuşdur.

"...məhkəmeyi-kübra...": Bütün mübahisələri qəti surətdə həll edən "ən böyük məhkəmə". İslami ədəbiyyatda "məhkəmeyi-kübra" deyiləndə əsasən, insanların bu dünyadakı əməllərinə görə mükafat yaxud cəza alacaqları axirət məhkəməsi nəzərdə tutulur. Burada, Dünya müharibəsindən sonra təşkil olunması planlaşdırılan, dövlətlər, millətlər və xalqlar arasındakı bütün mübahisələri yekunlaşdıracağına inanılan Sülh Konfransı nəzərdə tutulmuşdur.

***Teleqraf xəbərləri***

"İngiltərə kralı Corc...": qəzetdə "Georq" kimi getmişdir.

"…prins Albert…": 1936-cı ildə VIII Eduard adıyla Böyük Britaniya kralı olan, V Corcun vəliəhd şahzadəsi Eduard Albert Kristian nəzərdə tutulur.

"…Bolqariya kralı Boris…": 1918-1943-cü illərdə Bolqarıstan çarı olan III Boris nəzərdə tutulur.

"…taxtı-səltənətindən əl çəkmək şəraitini həqarət ədd etdiyindən...": qəzetdə "həqarət" yerinə "həqarətləri" getmişdir.

***Teleqraf xəbərləri: Türküstanda***

"…Türküstan Mərkəzi İcraiyyə Komitəsi sədri Solkinə...": qəzetdə "Solkin" yerinə "Silkin" getmişdir.

***Qəzetələrdən: Nazaryanın hədiyyəsi***

"Erməni «Taraz» qəzetəsi müdür və mühərriri...": erməni mətbəəçi və publisisti Tiqran Nazaryan nəzərdə tutulur.

***Krımda***

"T. L.": "Tiflisski listok" qəzeti nəzərdə tutulur.

***Bakı xəbərləri: Ev Sahibləri İttifaqında***

"Müvəqqəti Hökumət": Rusiyada 2 mart - 25 oktyabr (yeni təqvimlə 15 mart - 7 noyabr) 1917-ci il tarixlərində iş başında olan hökumət nəzərdə tutulur.

***Bakı xəbərləri***

"…naməlum bir sartın meyiti tapılmışdır...": Sartlar, Orta Asiyada yaşayan bir əhali qrupudur. Sart termininin mənası müxtəlif mənbələrdə bir-birindən fərqli şəkillərdə izah edilmişdir. Bəzi mənbələr sartları farsdilli, bəziləri isə türkdilli xalq olaraq təqdim edir. Mənbələrdən bir qisminə görə isə "sart" sözü etnik bir mənsubiyyəti deyil, xüsusi bir təbəqəni ifadə edir.

***Bakı xəbərləri: Azərbaycan Gömrük İdarəsində***

"Mağalı gömrük şöbəsi…": güman ki, Zaqatalanın Muğanlı kəndi nəzərdə tutulur.

***Bakı xəbərləri: Ərzaq Nəzarəti***

"…şəhər Bələdiyyə rəisinə…": o tarixdə Bakının Bələdiyyə rəisi Pyotr İlyuşkin idi.



# ŞUŞA Türk Dünyasının Mədəniyyət Paytaxtıdır



● Qarabağ Azərbaycandır!

**1905-ci ildə Şuşa ən qaynar nöqtələrdən birinə çevrilmişdi. Şahidlərin ifadələrinə görə, iğtişaşlar zamanı ən böyük qırğın elə bu şəhərdə baş vermişdi. İrəvan quberniya jandarmeriyası rəisinin polis departamenti direktoruna bu hadisələrlə bağlı siyasi icmalında münaqişələrin səbəbləri açıqlanmışdı və o dövrün hakim dairələri bunları belə izah etmişdilər: Birincisi, iki millətin əsrlərlə davam edən düşmənçiliyi; ikincisi, nadanlıq; üçüncüsü, iqtisadi zəmində mübarizə; ən sonuncu səbəb ermənilərin yaramazları tərəfindən törədilən təxribatlar.**



# Qanlı Şuşa hadisələri

## (1905-1906-cı illər)

1905-ci il avqustun 16-da ermənilərin qəflətən təşkil etdikləri hücumlara şuşalılar əslində hazır deyildilər. Bu mənfurlar sözdə sülhdən, dostluqdan, azərbaycanlılarla birlikdə olmaqdan çox danışsalar da, içləri düşmənçilik və ədavətlə dolu idi. Şuşanı mühüm strateji mərkəz hesab etdiklərindən azərbaycanlıları burada məhv edib şəhəri tam ələ keçirmək istəyirdilər.

### *İnsanlığa qəsd*

M.M.Nəvvab 1905-1906-cı illərdə Şuşa şəhərində baş verən qırğınlar barədə yazırdı: "Tuğ, Tağ, Dağdağan, Mirikənd, Harov və digər ətraf kəndlərin erməniləri cəm olub belə qərara gəlirlər ki, qalanı (yəni Şuşa qalasını) asanlıqla ələ keçirmək üçün əvvəlcə ətraf kəndlərdə yaşayan müsəlmanları erməni hücumları ilə təngə gətirib bir qismini qırmaq, digər qismini isə qaçırmaq lazımdır. Kəndlərdən müsəlmanları təmizlədikdən sonra buralar xalis "Hayastan torpağı"na çevriləcək".

Həmin dövrdə bazarda tüfəngin qiyməti 20 manat idisə, ermənilər onu 100 manata, tapança 6 manat olduğu halda 30 manata alırdılar. Sadəlövh azərbaycanlılar isə ermənilərin silahları bu qiymətlərə aldıqlarını görüb evlərində nə qədər silah və sursat var idisə, onlara satırdılar. M.S.Ordubadi yazırdı ki, Şuşa müsəlmanları erməniləri son dərəcə qorxaq bildiklərindən onların azərbaycanlıların əleyhinə qiyam qaldıracaqlarına inanmırdılar. Yerli əhali Bakıda, Naxçıvanda, Qubada baş verən hadisələrə münasibət bildirmək istədikdə isə, Qarabağ erməniləri onları sakitləşdirirdilər ki, "canım, biz min il bir vətəndə qardaşlıq edən millətik. Bizim nə işimiz var Bakıda, Naxçıvanda müharibə olub, biz yenə qardaşıq". Avqustun 16-dək ermənilər kütləvi şəkildə olmasa da, azərbaycanlılara qarşı terror hadisələri törətdilər. Şuşa qəzasında Vəng kəndinin 300-dən çox erməni qulduru yaxınlıqdan keçən karvana basqın etdi: tacirlər öldürüldü, əmlakları talandı.

Həmin gün müsəlman hissəsinə bitişik erməni məzarıstanında kazaklar bir ermənini qətlə yetirirlər. Daşnaklar bunun günahını müsəlmanların üzərinə yıxır və şəhərdə iğtişaş törətməyə başlayırlar. Birinci gün Köçərli məhəlləsinə hücum olur. Bu hücumda bir erməni öz qonşusu olan Abbas bəy adlı müsəlmanın oğlunu, qardaşını, qardaşının bir neçə xidmətçisini qətlə yetirir. Bir az sonra erməni xəfiyyə cəmiyyəti tərəfindən öyrədilmiş diş həkimi Maşoryans camaat arasına çıxıb iğtişaşa dair nitqlər söyləməyə başlayır: "Bu saat təzə xəbər çıxıbdır ki, şəhər kənarında müsəlman kəndi olan Zarıslıda dörd nəfər ermənini məzlum surətdə öldürmüşlər". Bu xəbər şəhərdə vəziyyəti daha da gərginləşdirir, daşnaklar müsəlman dükanlarını dağıdıb tökməyə, yanğınlar törətməyə başlayırlar. Avqustun 17-də ermənilər Şuşada başladıqları qəddarlıqları yeni vəhşiliklərlə tamamlayırlar. Qəddar ermənilərin belə təcavüz və ədalarını görən azərbaycanlı cavanlar din xadimlərinin sakitləşdirmə çağırışlarına belə baxmayaraq, şəhərdə iğtişaşçılara qarşı müqavimət hərəkatı yaradırlar. Bu, əsl müharibə idi. Ermənilər evlərdə, həyətlərdə ələ keçən azərbaycanlıları odlu və soyuq silahlarla qətlə yetirməyə başlayırlar. M.S.Ordubadiyə göndərilən məlumatlarda bildirilir ki, əgər müsəlmanların ətrafdan gələn könüllüləri min nəfər idisə, ermənilərinki ondan on qat artıq idi.

18 avqust hadisələri zamanı Şuşada dəhşətli faciələr baş verir. Erməni quldur dəstələri məhəllə-məhəllə gəzib müsəlman evlərinə, mülklərinə od vurur, dükanları qarət edib dağıdırlar. Nəhayət, müsəlman könüllüləri həmin gün güc toplayıb erməni hissələrini alırlar. Avqustun 19-da azərbaycanlılar qüvvələrini səfərbər edib yenidən erməni separatçılarına qarşı qəti hücuma keçirlər və ermənilər müqavimətə dözməyib geri çəkilirlər. Günün sonunda müsəlmanların qəti qələbəsini görən erməni arximandriti və qubernator Baranovski məscidin həyətinə gəlirlər. Arximandrit ağlaya-ağlaya müsəlmanlara yalvararaq sülh təklif edir və deyir: "Amandır, müsəlmanlar! Şuşada ermənilər müqəssir olsalar da, daha erməni qalmayıb. İndi bir ovuc əlsiz-ayaqsız erməni qalıbdır. Onlara rəhm ediniz".

Bütün bunlara baxmayaraq, avqustun 20-də müsəlmanların sakit olduğunu görən erməni millətçiləri yeni təxribatlar törətməkdə davam edirlər. Terrorçu qrupların bu hərəkəti azərbaycanlı könüllülərini təbdən çıxarır və onlar yenə hücuma başlayırlar. Ermənilərin Şuşada tamamilə məhv olacaqlarına az qalmış hökumət məmurları, erməni ruhaniləri və əsgərlər əllərində kilsə bayraqları və "İncil"lə, başlarında xaçlar musiqi sədaları altında məscidə daxil olur və sülh təklifi ilə yenə də müsəlmanlara müraciət edirlər. Sülh istəyən müsəlmanlar onlarla razılaşırlar. Buna baxmayaraq, həmin gün də erməni evlərindən azərbaycanlılara qarşı şiddətli atəşlər açılmaqda idi. Xəyanətkarlıqlarından əl çəkməyən mənfurlar barışdan sonra realnı məktəbi təmir edən 17 iranlı fəhlənin başını kəsirlər. "Daşnaksütyun"un əsgərləri evinə qayıdan qubernatoru atəşə tuturlar.

Tarixi mənbələrdə göstərilir ki, bu münaqişədə azərbaycanlıların 20 evi, böyük sayda dükanı dağıdılmış, çoxsaylı dinc sakin həlak olmuşdu. Malıbəyli kəndi talan edilmiş, Xankəndidə kazakların gözləri qarşısında qadınlar və uşaqlar qılıncdan keçirilmiş, doktor K.Mehmandarovun və azərbaycanlılardan ibarət silahlı dəstəyə başçılıq edən Nəcəfqulu ağa Cavanşirin malikanələri yandırılmışdı.

### *İkinci Şuşa faciəsi*

Yelizavetpol quberniyasında, o cümlədən Şuşa qəzasında qanlı hadisələr bununla sona yetməmişdi. Erməni-azərbaycanlı münaqişələri dövründə burada general-qubernatorlar dəfələrlə dəyişdirilmişdi. Ağrılı hadisələr dövründə sonuncu general-qubernator Qoloşşapov olmuşdur. M.S.Ordubadi yazırdı ki, Qoloşşapov yalnız zahirən sadə və təvazökar görünürdü. Əslində isə o, tamahkar, məkrli, başqalarının hesabına varlanmış bir şəxs idi. Ermənilərin xahiş və şikayətlərinə həmişə diqqətlə yanaşır, azərbaycanlıları cərimələyir, onları cəzalandırır, halbuki hər baş verən mənfi halları, hətta qətlləri də ermənilər törədirdilər.

Qoloşşapov geri çağırılandan sonra yerinə Alftan təyin edilmişdi. General Alftan isə hər iki tərəfi bir gözdə gördüyündən bəzi yerlərdə vəhşilik edən erməniləri cərimə edir, hətta cəza da verirdi. Ermənilərə belə bir adam qətiyyən sərf etmədiyindən daşnaklar yeni hiylələrə əl atır, imperatriçəyə, qraf Vorontsova şikayətlər yazırdılar. Canişin şikayətlərin düzgünlüyünü yoxlamaq üçün ora bir neçə müstəntiq göndərir, istintaqdan sonra həmin şəxsin təqsiri üzə çıxmadıqda "ermənilərin xətrinə dəyməyən canişin" Gəncə quberniyasını iki general-qubernatorun ixtiyarına verir. Quberniyanın yarısı general Alftana, qalan hissəsi isə Qoloşşapova tapşırılır. Qoloşşapov ikinci dəfə Şuşaya gəldiyi gün dörd azərbaycanlı bağdan meyvə apardıqları vaxt daşnaklar tərəfindən Əsgəranda öldürülür. Müsəlmanların şikayətinə qubernator laqeydcəsinə: "Yoldan, yəni camaatın gediş-gəliş sahəsindən kənar işlər mənim ixtiyarımdan kənardır", - deyib öz mənzilinə qayıdır. Bundan bir qədər sonra Yevlaxdan Şuşaya gələn bir neçə erməni məliyi qaçaqlar tərəfindən qətlə yetirilir. General dərhal Şıxlar kəndindən 2 min manat cərimə aldırır. Gorus uyezdinin qaçaqları bir erməni pristavı öldürdüklərindən müsəlmanların əsilzadəsi Nəcəfqulu ağa üç ay həbsə salınır.

Hadisələr baş verən ərəfədə ermənilər Əsgəran yolunu bağlayıb şəhərlə mahalın əlaqəsini tamam kəsirlər. Bu da ondan ötrü idi ki, müsəlmanlara heç bir yerdən əsla kömək gəlməsin. Nəhayət, 1906-cı il iyulun 12-də ermənilər bir neçə gün əvvəl öz əcəli ilə ölmüş həmvətənlərini generala göstərərək bildirirlər ki, bu adam azərbaycanlılar tərəfindən qətlə yetirilmişdir. General fikirləşmədən Köçərli məhəlləsinə artilleriya atəşi açılması barədə əmr verir. Həmin gün bir tərəfdən kazak dəstələri və piyada rus qoşunu, digər tərəfdən ətraf kəndlərdən yığılmış 10 minə yaxın erməni könüllüsü, silahlı nizami əsgərlər və qaçaqlar azərbaycanlı məhəllələrinə hücuma keçirlər. Nəticədə beş gün ərzində şəhərin erməni hissəsi ilə sərhəddə olan bütün müsəlman evləri, eyni zamanda Köçərli məscidi top atəşləri ilə dağıdılır və yandırılır.

Nəvvabın yazdığına görə, Köçərli məhəlləsində mərhum şahzadə Bəhmən Mirzəyə mənsub olan və sonra oğlanları və ailəsinin yaşadığı ev də Qoloşşapovun fitvası ilə birləşmiş erməni-rus quldur dəstələri tərəfindən yandırılır. Lakin azərbaycanlılar bu döyüşdə də hünər göstərərək erməniləri evlərinə, kazakları isə qərargahlarına qədər qovurlar. Döyüşlərin beşinci günündə azərbaycanlıların üzərinə qəti hücumlar başlanır. Hər tərəfdən ümidləri üzülən müsəlman könüllüləri ölüm-dirim savaşına qalxırlar. Məhz onda 70 yaşlı qocalardan tutmuş 7 yaşlı oğlan uşaqlarına qədər bütün azərbaycanlılar əllərinə silah alıb döyüşə atılırlar. Tədqiqatçı alim A.Paşayev "1905-1906-cı illərdə Azərbaycan xalqına qarşı erməni vəhşilikləri" əsərində yazır ki, azərbaycanlıların qalib gəldiyini görən general vuruşmanın altıncı günü - iyulun 18-də hər iki tərəfdən vəkil götürüb şəhərin azərbaycanlı hissəsinə gələrək hiyləgərcəsinə: "Bir quru barışıqdan ötrü işi bu məqama çatdırdınız", - deyib yalandan ağlayır. Həmin hadisələr zamanı bu məsələlərlə heç bir əlaqəsi olmayan 30 nəfər əlsiz-ayaqsız azərbaycanlı həlak olur. Ermənilər ölülərini gizlətdikləri üçün onlardan ölənlərin sayı məlum olmur. Xankəndidə olan rusların sözlərinə görə, bu hadisələr zamanı Şuşa şəhərindən 400-ə yaxın erməni ölüsü çıxarılmışdı.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Təhsil tariximizdən

# Erməni məkrinin qurbanı

## Xankəndi Pedaqoji İnstitutunun tarixi haqqında

**Azərbaycanda Ali Pedaqoji İnstitut Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun 1921-ci il avqustun 26-da imzaladığı 66 saylı dekretlə yaradılmışdır. Həmin dekretdə qeyd edilirdi ki, respublikanı vahid əmək məktəbi ideyasını həyata keçirə biləcək yüksəkixtisaslı maarif işçiləri ilə təmin etmək məqsədilə Azərbaycan SSR Xalq Komissarları Soveti qərara alır: "Bu ilin sentyabrın 1-dən etibarən Bakı şəhərində dövlət dili olan türk dilində xüsusi olaraq II dərəcəli məktəblər üçün müəllimlər hazırlayacaq ilk Azərbaycan Dövlət Pedaqoji Kişi İnstitutu təsis edilsin. Dekret dərc edildikdən sonra institutun təşkilinə başlansın".**



Ali Pedaqoji İnstitutun Nizamnaməsi Azərbaycan Xalq Maarif Komissarlığı Kollegiyası tərəfindən 13 iyun 1921-ci ildə təsdiq edilmişdir. Nizamnamədə bildirilirdi ki, yeni yaranmış institutun vəzifəsi orta məktəblərdə Azərbaycan dilində dərs deyən ixtisaslı müəllimlər hazırlamaqdır. Xalq Maarif Komissarlığı tərəfindən institutun rəhbərliyi və müəllimləri aşağıdakı tərkibdə təsdiq olunmuşdur: İnstitutun direktoru - Fətulla bəy Rzabəyov; direktor müavini - Həbib bəy Mahmudbəyov; dil-ədəbiyyat müəllimi - Abdulla Şaiq Talıbzadə; fizika-riyaziyyat müəllimi - Məmməd Əfəndiyev; psixologiya və ruhaniyyat müəllimi - Həmid bəy Şahtaxtinski; kimya müəllimi - Sadiq Hüseynov; coğrafiya müəllimi - Qafur Rəşad; rus dili müəllimi - V.Pismennaya.

Arxiv sənəd və materialları təsdiq edir ki, Ali Pedaqoji İnstitutun bünövrəsinin qoyulmasında Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920-ci illər) ölkəmizdə məktəb-təhsil işinin təşkilində və onun yenidən qurulmasında xidmətləri olmuş müəllim və pedaqoqların, maarif fədailərinin yaxından iştirakı olmuşdur. Azərbaycanda Ali Pedaqoji İnstitutun yaradılması asanlıqla başa gəlməmişdir. Bu təhsil ocağının yaradılması uğrunda xalqımızın qabaqcıl, mütərəqqi ziyalıları, ictimai-siyasi xadimləri uzun müddət ərzində mübarizə aparmışlar. Onu da xatırladaq ki, 1918-ci ilə qədər Azərbaycanda orta məktəblərdə tədris doğma ana dilində aparılmırdı. Azərbaycan dilinin tədrisi, hətta ölkənin yerli əhalisi üçün də mütləq hesab edilmirdi. Bu az imiş kimi o dövrün çar hakimiyyəti tərəfindən müəyyən edilmiş qaydalara görə orta məktəblərdə ştatda olan müəllim vəzifəsinə ali təhsil almış şəxslər qəbul edildiyi halda ali təhsili və bu haqda diplomları olan azərbaycanlılar müsəlman olduqlarına görə həmin tədris müəssisələrində dərs deməyə buraxılmırdılar.

1921-ci ildə Bakıda ilk Azərbaycan Dövlət Pedaqoji Kişi İnstitutu təsis edildikdən sonra tariximizin sonrakı dövrlərində Azərbaycanın pedaqoji kadrlara olan ehtiyacını ödəmək üçün 1968-1969-cu tədris ilində Azərbaycan Pedaqoji İnstitutunun Xankəndi filialı yaradıldı. Azərbaycan SSR Nazirlər Soveti tərəfindən 28 noyabr 1973-cü ildə bu şəhərdə Pedaqoji İnstitutun yaradılması haqqında Nazirlər Sovetinin sədri Ə.İbrahimov və Nazirlər Sovetinin İşlər müdiri C.Tatlıyevin imzası ilə 377 saylı qərar qəbul edilmişdir. Həmin qərarda qeyd edilirdi:

1. Respublikanın Dağlıq Qarabağ Muxtar Vilayətini və respublikanın ona yaxın rayonlarını ixtisaslı müəllim kadrları ilə təmin etmək məqsədilə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinə vəzifə olaraq tapşırılsın:
   *a) V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun filialı əsasında Xankəndi Pedaqoji İnstitutu təşkil etsin və burada tələbələrin təlimi rus, Azərbaycan və erməni dillərində aparılsın;*
   *b) yeni açılan institutda normal təlim prosesinin aparılmasını təmin edən lazımi tədbirlər görsün.*
2. DQMV Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin belə bir məlumatı nəzərə alınsın ki, o, Pedaqoji İnstitutun fəaliyyətini genişləndirmək üçün lazımi şərait yaradan əlavə sahə ayırmışdır.
3. Azərbaycan SSR Maliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi ilə birlikdə, respublikanın 1974-cü il büdcəsində Pedaqoji İnstitutun təşkili ilə əlaqədar xərclər smetasını nəzərdən keçirsin və bütün başqa məsələləri həll etsin, institutun inkişafı üçün lazımi vəsait nəzərdə tutsun.

Xankəndidə Pedaqoji İnstitutun yaradılması haqqında Azərbaycan SSR Nazirlər Sovetinin qəbul etdiyi həmin qərarın layihəsi 1973-cü il noyabrın 19-da Azərbaycan KP MK Bürosunda Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin iştirakı ilə keçirilmiş iclasında baxılmış və layihə bəyənilmişdir. Beləliklə, 1969-cu tədris ilində yaradılmış Azərbaycan Pedaqoji İnstitutunun Xankəndi filialı artıq 1973-cü ildən etibarən filial kimi deyil, müstəqil ali təhsil ocağı kimi fəaliyyət göstərməyə başlamışdır. İşğala qədər həmin institutda Azərbaycan və erməni sektoru fəaliyyət göstərirdi. İnstitut təşkil edilərkən burada üç dildə - Azərbaycan, rus və erməni dillərində ali pedaqoji təhsilli kadr hazırlığına başlanılmışdır. Lakin fəaliyyətə başlamasından 19 il keçdikdən sonra erməni-daşnak millətçiləri tərəfindən Xankəndi şəhərində törədilən məlum özbaşınalıq və qanunsuzluqların ilk zərbələrindən biri məhz bu ali təhsil ocağının kollektivinə dəymişdir. Azğınlaşmış millətçi erməni-daşnak qüvvələri tərəfindən Qarabağda milli münasibətlərin qızışdırılması nəticəsində 1988-ci il mayın 16-da institutun Azərbaycan bölməsinin müəllim və tələbələri fiziki və mənəvi təzyiqlər altında Xankəndi şəhərini tərk etməyə məcbur oldular. Bununla da, Xankəndi Pedaqoji İnstitutu özünün köçkünlük həyatını yaşamağa başladı. Moskvadakı mərkəzi hakimiyyət tərəfindən isə erməni millətçilərinin bu cür qanunsuz və dağıdıcı fəaliyyətinin qarşısının alınmasına dair heç bir səy göstərilmədi. Əksinə, 1973-cü ildə Xankəndi Pedaqoji İnstitutunun yaranması haqqında qərarı Azərbaycanın Nazirlər Soveti verdiyi halda, bu institutun sonrakı fəaliyyəti ilə əlaqədar SSRİ Nazirlər Soveti tərəfindən çox yanlış və müəmmalı qərarlar qəbul edilməyə başlandı. Belə ki, SSRİ Nazirlər Sovetinin sədri Nikolay Rıjkov tərəfindən 1988-ci ilin oktyabr ayında Xankəndi Pedaqoji İnstitutunun iki il müddətinə bağlanması haqqında qərar imzalandı. Həmin qərarda institutun Azərbaycan şöbəsinin Gəncəyə, erməni şöbəsinin isə Ermənistanın rayonlarına köçürülməsi əks olunurdu. Bu qərarın verilməsi ilə ermənilər xislətlərinə uyğun olaraq növbəti hiyləgərliklərə əl atdılar. Onların əsas məqsədi Xankəndi şəhərindən azərbaycanlıları, institutun azərbaycanlı kollektivini uzaqlaşdırmaq idi ki, buna da nail ola bildilər. Beləliklə,1988-ci ilin noyabr ayından Xankəndi Pedaqoji İnstitutu fəaliyyətini Gəncə şəhərində davam etdirdi. Ermənilər nail olduqları qərarın özlərinə aid olan bəndlərinə əməl etməyərək təhsillərini Xankəndi şəhərində davam etdirdilər.

Gəncədə birillik fəaliyyətdən sonra institutun müəllim və tələbələri respublika rəhbərliyi və müvafiq qurumları qarşısında Xankəndi Pedaqoji İnstitutunun Qarabağ ərazisində, Şuşada fəaliyyətini davam etdirməsi ilə bağlı təşəbbüs qaldırdılar. Həmin təklif qəbul olunaraq institutun Şuşa şəhərində fəaliyyət göstərməsinə razılıq verildi. İnstitut üçün Şuşada yer ayrıldı, onun maddi-texniki bazasının yaradılmasına Nazirlər Soveti tərəfindən lazım olan vəsaitin ayrılması haqqında qərar verildi.

Lakin təəssüflər olsun ki, bu məsələdə müvafiq qurumlar tərəfindən növbəti bir yanlışlığa yol verildi. Həmin institut Şuşada Xankəndi Pedaqoji İnstitutu kimi deyil, Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun Şuşa filialı kimi fəaliyyət göstərməyə başladı. Bununla da Xankəndi Pedaqoji İnstitutunun adının üstündən sanki xətt çəkildi, Azərbaycan tərəfi rəsmi olaraq bu təhsil ocağını ləğv etdi. Ermənilər Xankəndi Pedaqoji İnstitutunun adını dəyişib, Artsax Dövlət Universiteti qoyduğu halda, bizim müvafiq təşkilatlar müstəqil institutu filiala çevirib, Xankəndi sözünü onun qarşısından götürdülər.

Xankəndi Pedaqoji İnstitutu enişli-yoxuşlu yollar keçmiş, hətta filiala çevrildikdən sonra da Şuşada fəaliyyəti mümkünsüz olmuşdur. Şuşanın işğalından sonra növbəti məkanda, Ağcabədidə fəaliyyət göstərmişdir.

Güman edirik ki, işğaldan azad olunmuş ərazilər abadlaşdırıldıqdan sonra Qarabağımızın Xankəndi şəhərində Xankəndi Pedaqoji İnstitutunun fəaliyyəti bərpa olunacaqdır.

*Rafiq SƏFƏROV,*
*Milli Arxiv İdarəsinin baş məsləhətçisi*



● Yaddaş

# Vandalların vəhşiliyinə şahidlik edən Köçərli məscidi

**Uca dağlar zirvəsində məskən salmış Şuşa Azərbaycan əsgərinin qəhrəmanlıq, mübarizə, vətənə olan məhəbbətin simvolu olmaqla yanaşı, həm də milli-mənəvi dəyərlərimizin rəmzinə çevrilmişdir. Şərq memarlığının ən gözəl incilərinin muzeyi hesab edilən Şuşa həm də Avropa mədəniyyətini özündə sintez edən qədim şəhərdir. Daş döşənmiş küçələri, geniş və yaraşıqlı, unikal Şərq memarlığı üslubunda tikilmiş evləri, kilsə və məscidləri, müxtəlif dövrlərə aid hamamları bu şəhərin qədimliyi ilə yanaşı, mədəni kimliyini də sübut edən tarixi yadigarlardır.**

Şuşada 17 məhəllə var. Maraqlıdır ki, milli-mənəvi dəyərlərə sədaqəti ilə seçilən şuşalılar hər məhəllədə öz dini inanclarını həyata keçirmək üçün bir məscid inşa etmişdilər. Belə məscidlərdən biri də XIX əsrdə Şuşanın Köçərli məhəlləsində tikilmiş Bəhmən Mirzənin saray kompleksinə aid Köçərli məscididir.

Xatırladaq ki, Köçərli məhəlləsi Şuşanın 9 aşağı məhəlləsindən biridir. XIX əsrin memarlıq abidəsi olan məscid 1992-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri Şuşa şəhərini işğal etdikdən sonra vandallar tərəfindən yandırılaraq yararsız hala salınmışdır. Ermənilər Şuşanı işğal edərkən şəhərdə olan bir sıra tarixi abidələri ya yandırmış, ya da dağıdaraq yararsız vəziyyətə salaraq azərbaycanlılara məxsus izləri silməyə cəhd etmişlər. O cümlədən şəhərdə olan 17 məsciddən yalnız ikisi müəyyən qədər öz tarixi görkəmini qoruyub saxlamışdır. Əfsuslar olsun ki, salamat qalan məscidlərdə cüzü dəyişiklik edərək onları da İran-fars məscidi formasına salmağa cəhd etmişdilər.

Ermənilərin etdikləri vəhşiliklər, tarixi mədəni abidələri düşünülmüş şəkildə məhv etmələri barədə dəfələrlə UNESCO-ya müraciət edilib. Belə ki, ermənilərin dağıdıb məhv etdikləri tarixi mədəni abidələrimizin monitorinqinin aparılmasını xahiş etsək də, başı siyasi oyunlara qarışmış bu təşkilat, "biz siyasətə qarışmırıq" bəhanəsi ilə ermənilərin mədəni tariximizə qarşı törətdikləri vəhşilikləri görməzdən gəlib, işğaldan azad edilmiş torpaqlara missiya göndərməkdən "ustalıqla" imtina ediblər.

Bir el məsəlində deyildiyi kimi: "Cidanı çuvalda gizlətmək olmaz". Şuşaya gələn turistlər, diplomatlar, səyyahlar bu qədim tarixi şəhərə qədəm qoyduqda insanlığa utanc gətirən erməni vəhşiliyinin şahidi olurlar. Erməni vəhşiliyinə şahidlik edən "qurbanlardan" olan Köçərli məscidi Şuşada gedən abadlıq və quruculuq işləri sırasında ikinci dəfə yaşam hüququ alanlardandır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs xroniki böyrək çatışmazlığı üzrə tədbirlər proqramının icrası üçün məsrəf mallarının satın alınması məqsədilə *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (Əlaqələndirici şəxs: Səbinə Məmmədova, telefon: (+994 12) 310 07 70 (daxili 4444), E-mail: **smammadova@its.gov.az**) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

**LOT-1.** Xroniki böyrək çatışmazlığı üzrə tədbirlər proqramının icrası məqsədilə məsrəf mallarının satın alınması.

**İştirak haqqı: 1,500.00 (bir min beş yüz) manat.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**

**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**

**VÖEN: 1701911851**

**Hesab: AZ52AIIB38090019440013375105**

**Bank: Kapital Bank ASC Səbail filialı**

**Bankın VÖEN-i: 9900003611**

**Kod: 200059**

**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**

**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1) Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
*2) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış (27.03.2023-cü il tarixdən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır);*
*4) İddiaçının son (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*5) İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*6) Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 90 bank günü qüvvədə olmalıdır);*
*7) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*8) Tender iştirakçısının öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması və yaxud müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd - Kommersiya Məhkəməsindən və ya Dövlət Vergi Xidmətindən Yüklülük haqqında arayış (27.03.2023-cü il tarixdən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır);*
*9) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması haqqında arayış (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır);*
*10) Sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış (malgöndərən uçotda olduğu statistika orqanından alır);*
*11) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*12) İcraçı ləvazimatların istehsal olunduğu və ya satın alındığı ölkənin səlahiyyətli və/və yaxud istehsalçı müəssisəsi tərəfindən verilmiş malların keyfiyyət sertifikatını və istehsalçının təsdiq forması (MAF- Manufacturer's Authorization Form);*
*13) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*14) Tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02.05.2023-cü il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **11.05.2023-cü il saat 18:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı **12.05.2023-cü il saat 16:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. İddiaçı əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə mexaniki alətlərin satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 05 aprel 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1053**

***Tender komissiyası***

## Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA) internet telekommunikasiya xidməti göstərən operator və provayderlərin, o cümlədən host provayderlərin uçotunu *elan edir*

"Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununun və "İnternet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılması Qaydası"nın tələblərinə nəzərə alaraq, İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi bildirir ki, Azərbaycan Respublikasında internet telekommunikasiya sahəsində xidmət göstərən operator və provayderlər, o cümlədən host provayderlər qeydiyyatdan keçməlidir.

İnternet telekommunikasiya xidməti göstərən operator və provayderlər, o cümlədən host provayderlər "Elektron hökumət" portalına **https://e-gov.az/az/services/read/3731/** daxil olaraq autentifikasiyadan keçməklə və ərizə göndərməklə uçota durmalıdır.

Uçotadurma üçün ərizə bu elan dərc edildiyi tarixdən başlayaraq 15 (on beş) gün ərzində verilməlidir.

Qeyd edilən tələbin icra edilməməsi Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 370-1-ci maddəsinə əsasən, uçot qaydalarının pozulmasına görə inzibati məsuliyyətə səbəb ola bilər.

**Əlavə sual və metodiki dəstək üçün registration@icta.az elektron poçt ünvanı və ya (012) 498-11-04 telefon nömrəsi ilə əlaqə saxlanılması xahiş olunur.**

***Rəhbərlik***

***Təkrar***

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tibb müəssisələri üçün dərman vasitələrinin satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (Əlaqələndirici şəxs: Əhmədağa Salayev, telefon: +99412 310 07 70 (daxili 2011), e-mail: **asalayev@its.gov.az**) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. **Tibb müəssisələri üçün dərman vasitələrinin satın alınması.**

İştirak haqqı: **1500.00 (bir min beş yüz)** manat.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**

VÖEN: 1701911851
Hesab: AZ52AIIB38090019440013375105
Bank: "Kapital Bank" ASC Səbail filialı
Bankın VÖEN-i: 9900003611
Kod: 200059
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T.BIK -AIIBAZ2X

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
4. Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.
5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
6. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması.
7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti).
8. İddiaçının tender təklifi (tender təklifi zərflərinin açıldığı gündən sonra **80 (səksən) bank günü** qüvvədə olmalıdır).
9. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən **30 (otuz) bank günü** çox olmalıdır).
10. Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.
11. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd.
12. İddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektli olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış.
13. Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat *(malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib edilməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) **19.04.2023-cü il saat 15:00-a qədər**, tender təklifi və tender təklifinin bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **01.05.2023-cü il saat 18:00-a qədər** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçının təklifləri 0**2.05.2023-cü il saat 15:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında yerləşən "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsində açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# Xüsusi karantin rejimində bəzi məhdudiyyətlər aradan qaldırılıb

**Nazirlər Kabineti "Xüsusi karantin rejimində bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı əlavə tədbirlər barədə" qərar qəbul edib.**

AZƏRTAC Nazirlər Kabinetinə istinadla bildirir ki, qərara əsasən, 2023-cü il 28 mart saat 06:00-dan hava nəqliyyatı vasitəsilə bütün xarici ölkə vətəndaşlarının və həmin ölkələrdə daimi yaşayan digər ölkə vətəndaşlarının, habelə vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına giriş-çıxışına icazə verilib.

Aşağıdakı hallarda COVID-19 pasportu (COVID-19-a qarşı tam peyvənd olunmasını və ya COVID-19-dan sağalaraq immunitetə malik olmasını təsdiq edən sənəd) tələbi ləğv edilir:

-xarici ölkə vətəndaşlarının və həmin ölkələrdə daimi yaşayan digər ölkə vətəndaşlarının, habelə vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına girişi zamanı;

- müəyyən olunmuş yerlərə (şənlik mərasimləri keçirilən məkanlar, idman və sağlamlıq-bərpa obyektləri, iri ticarət mərkəzləri, ictimai iaşə obyektləri, mehmanxanalar, şəhərlərarası (rayonlararası) nəqliyyat marşrutları və belə tələb müəyyən edilmiş digər yerlər) daxil olmaq üçün.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ASCO-nun struktur idarələrinə tələb olunan yaylı döşəklərin satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 07 aprel 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

***Tender komissiyası***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılova qardaşı

**BAĞIR MİKAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının kollektivi Bakı Şəhəri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılova qardaşı

**BAĞIR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri və agentliyin kollektivi Texniki İdarənin Süni qurğuların istismarı və təmiri şöbəsinin rəisi

**RASİM SİRACƏDDİN OĞLU ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Əliş Mevliyev ailəsi ilə birlikdə Əhmədovlar ailəsinə əzizləri

**İBONUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov yazıçı-publisist

**NEMƏT VEYSƏLLİNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun Prokurorluqda İstintaqa Nəzarət İdarəsinin böyük prokuroru Əli Abdullayevə qardaşı

**MUSTAFA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mahmud Məmmədov "Günay Bank" ASC-nin Müşahidə Şurası sədrinin referenti

**SABİR AĞAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"Günay Bank" ASC-nin rəhbərliyi və kollektivi bankın Müşahidə Şurası sədrinin referenti

**SABİR AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5183**
**Sifariş 741**

**Qiyməti 40 qəpik**